# 5 il əvvəl biz hamımız Vətən dedik!

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 240 (30934) 9 noyabr 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

## Prezident İlham ƏLİYEV:

## Ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik!



**44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kənd düşmənlərdən azad edildi. Biz düşməni qova-qova irəliyə gedirdik və azad edilmiş hər şəhər və kənd, orada qaldırılan Azərbaycan Bayrağı bizim Ordumuzu, xalqımızı daha da ruhlandırırdı. Nəhayət, noyabrın 8-də "alınmaz qala" sayılan Şuşa şəhəri erməni işğalçılarından azad edilmişdir.**

**Bizim şanlı Zəfər yürüşümüz 27 sentyabrdan 8 noyabra qədər uğurla davam edirdi. Biz dağlardan, çaylardan, dərələrdən keçərək, sıldırım qayalara dırmaşaraq şanlı Zəfərə doğru gedirdik. Şuşanın düz beş il bundan əvvəl azad edilməsi Ermənistan ordusunun belini qırdı və ondan sonra onlar təslim oldular. Beləliklə, ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik.**

**Bu gün isə Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Bu gün "Böyük Qayıdış" Proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır. Bütün bu tarixi nailiyyətlərlə bağlı bir daha əziz xalqımı təbrik edirəm.**

## Üç dövlət, üç qardaş – tək ürək

**Hərbi parad, sadəcə, silahların nümayişi və əsgərlərin nizamlı addımları ilə ölçülmür. Onun əsl mahiyyəti fəxri kürsüdə dayananların kimliyi və onların dünyaya verdiyi mesajlarla müəyyən edilir.**



Noyabrın 8-də Bakının Azadlıq meydanında keçirilən möhtəşəm Hərbi parad birbaşa geosiyasi manifestə, dünyaya ünvanlanan sözə çevrildi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistanın Baş naziri Şahbaz Şərifin Azərbaycan Prezidenti İlham Əliyevlə birlikdə fəxri kürsüdə yer alması ilə parad yeni və sarsılmaz birliyin – Azərbaycan–Türkiyə–Pakistan qardaşlığının dünyaya rəsmi təqdimat mərasiminə çevrildi. Meydandan keçən polad zirehli texnikanın gurultusu və səmanı yaran reaktiv qırıcıların səsi beynəlxalq arenaya, həm dostlara, həm də rəqiblərə göndərilən çox aydın mesaj idi: Avrasiyanın təhlükəsizlik arxitekturasında artıq gözardı edilməsi mümkün olmayan, ortaq tarix, ortaq dəyərlər və ortaq strateji maraqlar üzərində qurulmuş yeni güc mərkəzi yaranıb.

*(ardı 10-cu səhifədə)*

## Prezident İlham Əliyevin Hərbi paradla bağlı paylaşımı



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial şəbəkə hesablarında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradla bağlı paylaşım edib.**

## Birinci vitse-prezident Mehriban Əliyeva Zəfər Günü ilə bağlı paylaşım edib




**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva rəsmi instaqram hesabında Zəfər Günü ilə bağlı paylaşım edib.**

Paylaşımda deyilir: "Əziz həmvətənlər! Vətən müharibəsində əldə edilən şanlı Zəfərin beşinci ildönümü münasibətilə hər birinizi səmimi-qəlbdən təbrik edirəm! Bugünkü bayramı qəhrəman xalq kimi başımız uca qeyd etdiyimizə görə bizim Prezidentimizə, cəsarətli əsgər və zabitlərimizə təşəkkür edirəm! Allah Vətən uğrunda həlak olmuş bütün şəhidlərimizə rəhmət eləsin! Uca Tanrı xalqımızı və Vətənimizi qorusun!".

## Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Sizi ölkənizin mühüm bayramı olan Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Bu əlamətdar tarix müasir Azərbaycan tarixində xüsusi yer tutur, Azərbaycan xalqının ədalətə, sülhə və birliyə sarsılmaz iradəsini, suverenlik və müstəqillik prinsiplərinə möhkəm sadiqliyini təcəssüm etdirir.

Sizin müdrik və uzaqgörən rəhbərliyiniz, həyata keçirdiyiniz strateji kursa ümumxalq dəstəyi sayəsində Azərbaycan BMT Nizamnaməsinin və beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olaraq öz ərazi bütövlüyünü bərpa etmiş, dövlət quruculuğu salnaməsində davamlı və yaradıcı tərəqqinin yeni səhifəsini açmışdır.

Cənubi Qafqazda möhkəm sülhün və sabitliyin bərqərar edilməsinə yönəlmiş siyasətiniz beynəlxalq ictimaiyyət tərəfindən haqlı olaraq geniş dəstək qazanmışdır. Çünki bu siyasət uzunmüddətli əməkdaşlıq, qarşılıqlı etimad və bütün regionun davamlı inkişafı üçün əlverişli şərait yaradır.

Bu fürsətdən istifadə edərək, Qazaxıstan-Azərbaycan strateji tərəfdaşlığının və müttəfiqliyinin dinamik inkişafını böyük məmnunluqla qeyd etmək istərdim. İkitərəfli əməkdaşlığın dostluq və mehriban qonşuluq ruhunda möhkəmlənməsinə verdiyiniz böyük şəxsi töhfəni yüksək qiymətləndirirəm.

Hörmətli İlham Heydər oğlu, fürsətdən istifadə edərək, Sizə tükənməz enerji, qardaş Azərbaycan xalqının rifahı naminə yeni uğurlar arzulayıram.

**Hörmətlə,**

***Kasım-Jomart TOKAYEV,***
***Qazaxıstan Respublikasının Prezidenti***

# Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Fəxri xiyabanda Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət ediblər.**

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoyaraq xatirəsini ehtiramla andı.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini yad etdi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsini ehtiramla anaraq məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.

# Şəhidlərin xatirəsinə ehtiram





**Vətən müharibəsində Qələbənin beşinci ildönümü münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva xalqımızın müqəddəs and yeri olan Şəhidlər xiyabanını ziyarət ediblər.**

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycanın azadlığı, müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının əziz xatirəsini ehtiramla yad etdilər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil qoydu.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Vətən müharibəsində Qələbəmizə həsr olunmuş Hərbi parada hazırlaşan paytaxt Bakının mənzərəsini seyr etdilər.

# Bakıda Zəfər muzeyinin açılışı

## *Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər*






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakıda Zəfər abidəsini ziyarət edib və Zəfər muzeyinin açılışında iştirak ediblər.**

Prezident İlham Əliyev Zəfər abidəsinin önünə əklil qoydu, şəhidlərin xatirəsini ehtiramla andı.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstələri düzdü.

Sonra dövlətimizin başçısı və birinci xanım Zəfər muzeyinin açılışında iştirak etdilər.

Zəfər muzeyi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci ilin dekabrında "Bakı şəhərində Vətən müharibəsi memorial kompleksinin və Zəfər muzeyinin yaradılması haqqında" Sərəncamından irəli gələrək Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı şanlı Zəfərin nümayiş etdirilməsi, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılıb.

*(ardı 3-cü səhifədə)*

# Bakıda Zəfər muzeyinin açılışı



















*(əvvəli 2-ci səhifədə)*

Muzeyin ekspozisiyası beynəlxalq təcrübə və dünyada mövcud muzey konsepsiyaları əsas götürülməklə, həmçinin ən son texnologiyalar tətbiq edilməklə işlənilib. Burada 8 ekspozisiya zalı yaradılıb: *"Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi", "Ermənistan–Azərbaycan münaqişəsi. Tarixə baxış", "44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı", "Şanlı Zəfər. Şuşanın azad olunması", "Qəhrəmanlar yolu", "Qarabağ Azərbaycandır!", "Dövlət suverenliyinin bərpası. 20.09.2023", "Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş".*

Təqdim olunan faktlar, foto və videomateriallar, interaktiv nümayişlər və xüsusi olaraq bu muzey üçün hazırlanmış eksponatlar, maketlər münaqişə haqqında həqiqətləri, 44 günlük Vətən müharibəsinin gedişi, şanlı Zəfər nəticəsində dövlət suverenliyinin bərpa olunması barədə məlumatları ziyarətçiyə dolğun çatdırmaqla yanaşı, həm də bu hadisələri hər bir kəsə yenidən yaşadır.

Muzeyin girişində tarixi Qələbənin rəmzinə çevrilmiş "Dəmir yumruq" instalyasiyası və Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin çıxışından fikirlər əks olunur. Muzeyi əhatə edən divarda 44 günlük Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın adı ehtiram əlaməti kimi həkk edilib. Divarboyu axan su daimi həyat mənbəyi kimi şəhidlərimizin qəhrəmanlıqları ilə ölümsüzlüyə qovuşduqlarını, hər zaman qəlbimizdə yaşadıqlarını simvolizə edir. Muzeyin ekspozisiya zallarında isə Qarabağda Vətən müharibəsinədək və Zəfər Günündən sonra həlak olmuş şəhidlərimizin adları var.



Muzeyin **"Qarabağ və Şərqi Zəngəzur. Əsrlərin hekayəsi"** adlı birinci zalında Azərbaycanın mədəniyyət beşiyi olan Qarabağın təbii gözəlliyi, tarixi memarlıq baxımından zənginliyi təqdim edilir. Zalın divarındakı kitab instalyasiyalarında Ümummilli Lider Heydər Əliyevin bölgənin sosial-iqtisadi inkişafına verdiyi töhfələrə dair geniş məlumatlar var.

Zalın mərkəzində yerləşən interaktiv kitablar isə Qarabağın təbiəti, ədəbi irsi, musiqisi və xalq sənəti ilə yaxından tanış olmağa imkan yaradır. Eyni zamanda, ziyarətçilərə Qarabağın dövlətçilik, hərb, ədəbiyyat və incəsənət sahələrində iz qoymuş görkəmli şəxsiyyətlərinə dair məlumatlar çatdırılır.

Zəfər muzeyinin **"Ermənistan–Azərbaycan münaqişəsi. Tarixə baxış"** zalı Qarabağ münaqişəsinin ağrılı və unudulmaz səhifələrini əks etdirir. Burada münaqişənin xronologiyası, Ulu Öndərin və dövlətimizin başçısının apardıqları ardıcıl siyasət nəticəsində torpaqlarımızın işğaldan azad olunması, sülh prosesi barədə məlumatlar yer alıb. Zalda qaçqınlar və məcburi köçkünlər, münaqişə qurbanları, eləcə də işğal dövründə ermənilər tərəfindən dağıdılmış abidələr, məscidlər və milli irsə vurulan ziyan haqqında geniş məlumat təqdim olunur.

Qarabağda işğal dövründə dağıdılmış binaların, yerlə-yeksan edilmiş yaşayış yerlərinin taleyinə həsr olunan instalyasiya – viran qalmış ev və bu evin qalıqları altından baş qaldıran ağac isə həyatın yenidən dirçəlişinin rəmzidir.

**"44 günlük Vətən müharibəsi. "Dəmir yumruq" əməliyyatı"** adlı üçüncü zal Azərbaycan torpaqlarının azadlığı uğrunda aparılan qəhrəmanlıq mübarizəsini əks etdirir. Zalın mərkəzindəki LED monitorlar süni intellektlə hazırlanmış videomateriallarla ziyarətçini 44 günlük döyüşlərin mərkəzinə aparır. Monitorlarda döyüş əməliyyatları, hərbi nailiyyətlər və Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı hərbi hücumları ilə bağlı materiallar təqdim olunur. Holoqrafik ekranlar isə müasir hərbi texnikanı 3D formatda nümayiş etdirir. İnteraktiv xəritələr işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən hərbi əməliyyatların mərhələlərini ardıcıllıqla göstərir. Bu zalda tarixi Qələbənin qazanılmasında müstəsna xidmətləri olan Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin qoşun növlərinin bayraqları, eyni zamanda, Silahlı Qüvvələrin xüsusi təyinatlılarının maketləri var. Həmçinin burada Azərbaycan Prezidentinin Vətən müharibəsi və Zəfərlə bağlı bir sıra fərman və sərəncamları nümayiş olunur.

**"Şanlı Zəfər. Şuşanın azad olunması"** adlı dördüncü zalda Azərbaycanın hərb tarixində xüsusi yer tutan, misilsiz taktiki bacarıqla həyata keçirilmiş əməliyyatı təqdim olunur. Vətən müharibəsi zamanı xüsusi təyinatlı döyüşçülər ağır artilleriyasız Şuşanı azad edərək böyük qəhrəmanlıq göstəriblər. Zalın mərkəzindəki Şuşa maketi döyüş meydanını əks etdirir, interaktiv monitorlar isə əməliyyatın gedişini və əsas taktiki məqamları ardıcıl izləməyə imkan yaradır. Digər monitorda şəhərin müharibə dövründə dağıdılmış abidələri təqdim edilir. Ekranda şanlı Zəfər yolunun emosional gedişi nümayiş olunur. Bu zal Şuşanın azadlığını, Azərbaycan əsgərlərinin rəşadətini və qəhrəmanlığını əks etdirir.




Azərbaycan əsgər və zabitlərinin igidliyinə, fədakarlığına və yenilməz iradəsinə həsr olunan **"Qəhrəmanlar yolu"** zalı isə ziyarətçilərə torpaqların azadlığı uğrunda aparılan mübarizənin ruhunu hiss etdirir. Burada Vətən müharibəsində iştirak etmiş qəhrəmanlara təqdim olunan orden və medalların nümunələri sərgilənir. Dəhlizi xatırladan "Qəhrəmanlar yolu" ziyarətçiləri xalqın birliyi və qələbə sevincini simvolizə edən növbəti zala aparır.

Növbəti zal isə **"Qarabağ Azərbaycandır!"** adlanır və xalqımız üçün milli bayrama çevrilən Zəfər Gününü, ümumxalq sevincini əks etdirir. Zalın mərkəzində Vətən müharibəsində şanlı Zəfərin və Qarabağın dirçəlişinin rəmzinə çevrilmiş Xarıbülbülün Murano şüşəsindən hazırlanmış instalyasiyası yerləşir. Parlaq işıqlar və rənglər zala bayram ab-havası bəxş edir, vizual effektlər sevinc və qürur hissini gücləndirir. Böyük ekranlarda 30 illik həsrətə son qoyan Zəfərin yaşatdığı qürurverici və sevinc dolu anlar nümayiş olunur.



**"Dövlət suverenliyinin bərpası. 20.09.2023"** adlı yeddinci zal Azərbaycanın suverenliyinin bərpasına həsr olunub. Xəritə instalyasiyasında Qarabağın və Şərqi Zəngəzurun tam azad edildiyi, Azərbaycan tarixində yeni bir dövrün başlandığı nümayiş olunur.

Muzeyin sonuncu **"Qarabağ və Şərqi Zəngəzur. Dirçəliş"** adlı zalı isə Qarabağın bərpasına və gələcək inkişafına həsr olunub. Zalın mərkəzindəki instalyasiyada qəhrəman şəhidlərimizin övladlarının səsi ilə Qarabağın parlaq gələcəyinə dair mesajlar verilir. İşıqlı üç keçid - bərpa, ekoturizm və inkişaf mövzularını əks etdirərək bölgənin yenidən qurulmasına yönəlmiş fəaliyyəti göstərir. Hər keçiddə mədəniyyət, təhsil və infrastruktur layihələrinin maketləri təqdim olunur. İnteraktiv ekranlar Qarabağın təbii gözəlliyini və davam edən bərpa prosesini canlandırır. Bu məkan Qarabağın dirçəlişini, dayanıqlı inkişafını və gələcəyinə olan inamı ifadə edir.

Ekspozisiya zalının çıxışındakı "Danışan fotolar" adlı bölmədə isə Zəfərin hekayəsini və ruhunu əks etdirən fotolar yer alıb. Burada qonaqlar üçün xatirə kitabı da yerləşdirilib.

Muzeydə, eyni zamanda, Auditorium zalı, kitabxana və kafe yaradılıb. Auditorium zalında seminar və konfransların, müxtəlif ictimai tədbirlərin təşkili nəzərdə tutulur. Muzeyin kitabxanasında Azərbaycan tarixinə, mədəni irsinə, artıq keçmişdə qalan Ermənistan-Azərbaycan münaqişəsinə, eləcə də Qarabağın bərpasına və inkişafına dair kitablar, araşdırma materialları təqdim olunur. Gələcəkdə hər bir şəhidimiz barədə toplanmış materialların, eləcə də Vətən müharibəsi qəhrəmanları haqqında sənədli filmlərin muzeyin bazasına yerləşdirilməsi nəzərdə tutulur.

Zəfər muzeyi, muzeyi əhatə edən Zəfər parkı, parkın girişindəki Zəfər tağı Azərbaycan tarixinə həkk olunmuş 44 günlük Vətən müharibəsini, şanlı Qələbəmizi, qəhrəman şəhidlərimizin əziz xatirəsini yaşadır, buraya gələn hər bir ziyarətçinin yaddaşında qürurverici bu tarix yenidən canlanır.

Zəfər muzeyi noyabrın 9-dan ziyarətçilər üçün açıq olacaq.

# Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad



**Noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib.**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif paradda iştirak ediblər.**

**Azərbaycanın, Türkiyənin və Pakistanın Dövlət himnləri səsləndirildi.**

**Ümummilli lider Heydər Əliyevin və qəhrəman şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu.**

**Müdafiə naziri general-polkovnik Zakir Həsənov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevə raport verdi.**

**Dövlətimizin başçısı paradda çıxış etdi.**

## Prezident İlham Əliyevin çıxışı



– Əziz hərbçilər.

Hörmətli qonaqlar, xanımlar və cənablar.

Mən Sizi və bütün Azərbaycan xalqını şanlı Zəfərimizin beşinci ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Mənim dəvətimi qəbul edən qardaş ölkələrin rəhbərlərini, nümayəndə heyətlərini səmimiyyətlə salamlayıram.

Bu gün bizim paradda Əziz qardaşım, Türkiyə Cümhuriyyətinin cümhurbaşqanı hörmətli Rəcəb Tayyib Ərdoğan iştirak edir. Əziz qardaşım İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi. Onun verdiyi siyasi və mənəvi dəstək bizə əlavə güc verirdi, bizi ruhlandırırdı. Qardaş Türkiyə xalqı hörmətli Prezident Ərdoğanın liderliyi ilə Azərbaycana müntəzəm olaraq dəstək göstərmişdir. Müharibə zamanı onun "Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır!" deməsi bütün dünyaya çox ciddi mesaj idi. Azərbaycan xalqı bu qardaş dəstəyini heç vaxt unutmayacaq.

Müharibədən və şanlı Zəfərimizdən bir il sonra tarixi Şuşa şəhərində Türkiyə və Azərbaycan prezidentləri Şuşa Bəyannaməsini imzalayaraq bizim əlaqələrimizi ən yüksək zirvəyə - müttəfiqlik səviyyəsinə qaldırmışlar. Bu gün bizim Hərbi paradda Türkiyə hərbçilərinin iştirakı birliyimizin növbəti təzahürüdür.

Beş il bundan əvvəl Zəfər paradında da əziz qardaşım Rəcəb Tayyib Ərdoğan bizimlə bərabər idi. Bu gün isə bizimlə bərabər digər əziz qardaşım iştirak edir. Qardaş Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif bizim qonağımızdır. Pakistan dövləti və xalqı 44 günlük Vətən müharibəsi zamanı Azərbaycana dəstək və həmrəylik göstərmişdir. Bu gün ilk dəfə olaraq Azadlıq meydanında Pakistan hərbçiləri də bizimlə bərabər iştirak edirlər. Bu, üç ölkənin - Azərbaycan, Türkiyə, Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür.

Dost ölkələrdən gəlmiş bütün qonaqları salamlayıram və onların bu gün bizimlə bərabər olmaları bir daha birliyimizi, həmrəyliyimizi, qarşılıqlı dəstəyi əyani şəkildə göstərir.

1990-cı illərin əvvəllərində Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın təxminən 20 faizi işğal altına düşmüşdü. Bir milyon Azərbaycan vətəndaşı qaçqın, köçkün vəziyyətinə salınmışdır. Xalqımıza qarşı hərbi cinayətlər törədilmişdir. Xocalı soyqırımı törədilmişdir, etnik təmizləmə siyasəti aparılırdı. Bu, bizim iradəmizi sındırmadı. Azərbaycan heç vaxt işğalla barışmaq fikrində deyildi. Biz sülh danışıqlarını apararkən, eyni zamanda, bəyan edirdik ki, əgər bu danışıqlar nəticə verməsə, Azərbaycan istənilən yollarla, o cümlədən hərbi yolla öz tarixi, əzəli torpaqlarını azad edəcək.

Uzun müddət davam edən danışıqların nəticəsi sıfır olmuşdur. Onun da əsas səbəbi o idi ki, Ermənistan öz xoşu ilə bir qarış torpağı azad etmək fikrində deyildi. Ermənistanın arxasında duran bəzi dövlətlər isə onlara siyasi, iqtisadi və hərbi dəstək göstərərək onlarla həmrəy idi. Onların fikri əzəli Qarabağ torpağımızı Azərbaycandan qoparıb Ermənistana birləşdirmək idi. Bizim isə siyasətimiz ərazi bütövlüyümüzü, suverenliyimizi tam bərpa etməkdən ibarət idi. Hələ 2003-cü ildə ilk dəfə Azərbaycan Prezidenti vəzifəsinə seçiləndə mən bəyan etmişdim ki, nəyin bahasına olursa-olsun biz öz doğma torpaqlarımızı azad edəcəyik. Biz güc toplayırdıq və aydan-aya, ildən-ilə gücümüz artırdı. Biz beynəlxalq arenada öz səsimizi ucalda bildik. Bütün aparıcı beynəlxalq təşkilatlarda ölkəmizin münaqişə ilə bağlı mövqeyi üstünlük təşkil edirdi. Bir çox qərar və qətnamələr bizim Zəfərimizin hüquqi və siyasi əsasını təşkil edirdi. Biz güclü iqtisadiyyat qurmuşduq. Əgər bunu etməsəydik, bizim maliyyə imkanlarımız çox məhdud idi. Biz iqtisadi müstəqillik qazanmışdıq və bu gün Azərbaycan iqtisadi cəhətdən heç bir ölkədən asılı deyil. Bu, bizə daha böyük siyasi güc verirdi. Biz müstəqil siyasət aparan ölkə idik. Bu amillər digər amillərlə bərabər bizi şanlı Zəfərə yaxınlaşdırırdı.

Azərbaycanda ictimai-siyasi sabitlik tam bərqərar olmuşdur. Vətəndaş həmrəyliyi, vətəndaş birliyi, xalq-iqtidar birliyi əsas amillərdən biridir. Biz gənc nəsli vətənpərvərlik ruhunda, Vətənə sevgi ruhunda tərbiyə etmişik və bizim gənclərimiz 44 gün ərzində öz sinələrini qabağa verərək, güllə altına gedərək tarixi torpaqlarımızı işğalçılardan azad etdilər. Vətənpərvərlik, mənəvi keyfiyyətlərimiz şanlı Zəfərimizin əsas amillərindən biridir.

Biz enerji və nəqliyyat layihələrini uğurla həyata keçirərək bir çox ölkələr, böyük coğrafiya üçün əvəzolunmaz ölkəyə çevrildik. Bütün bu amillərlə bərabər, ordu quruculuğu hər zaman prioritet məsələ olaraq qalırdı. Biz güclü ordu, güclü Silahlı Qüvvələr yaratmışıq. Ordumuzun döyüş qabiliyyətini artırmışıq, ordumuzu ən müasir silahlarla, texnika ilə təchiz etmişik. Bütün bu və digər amillər bizim Qələbəmizi, şanlı Zəfərimizi şərtləndirmişdir.

Ermənistan isə düzgün nəticə çıxara bilməmişdir və İkinci Qarabağ müharibəsi ərəfəsində daha da azğınlaşmışdı, bizə qarşı yeni ərazi iddiaları ilə çıxış etməyə başlamışdı. Onlar bizi yeni müharibə ilə hədələyirdilər. Hətta deyirdilər ki, onlar yeni torpaqlar uğrunda yeni müharibə aparacaqlar və Azərbaycanı tam işğal edəcəklər. Deyirdilər ki, onların tankları Bakı küçələrində olacaq. Deyirdilər ki, onlar Bakıda çay içəcəklər. Əslində, onların bu arzuları həyata keçdi. Onları biz gerçəkləşdirdik. Onların tankları bu gün Hərbi Qənimətlər Parkında nümayiş etdirilir. Erməni hərbi cinayətkarları bu gün Bakıda məhkəmə qarşısında cavab verirlər və istintaq təcridxanasında Azərbaycan çayını içirlər.

44 gün ərzində bizim şanlı Silahlı Qüvvələrimiz hər gün irəli gedirdi, bir gün bir addım geriyə atmamışdır. Böyük peşəkarlıq, rəşadət, qəhrəmanlıq və fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Biz bütün dünyaya güclü dövlət və müzəffər xalq kimi özümüzü göstərmişik. Bunu döyüş meydanında sübut etmişik. 44 gün ərzində döyüş meydanında 300-dən çox şəhər və kənd düşmənlərdən azad edildi. Biz düşməni qova-qova irəliyə gedirdik və azad edilmiş hər şəhər və kənd, orada qaldırılan Azərbaycan Bayrağı bizim Ordumuzu, xalqımızı daha da ruhlandırırdı. Nəhayət noyabrın 8-də "alınmaz qala" sayılan Şuşa şəhəri erməni işğalçılarından azad edilmişdir. Bizim şanlı Zəfər yürüşümüz 27 sentyabrdan 8 noyabra qədər uğurla davam edirdi. Biz dağlardan, çaylardan, dərələrdən keçərək, sıldırım qayalara dırmaşaraq şanlı Zəfərə doğru gedirdik. Şuşanın düz beş il bundan əvvəl azad edilməsi Ermənistan ordusunun belini qırdı və ondan sonra onlar təslim oldular. Ondan bir gün sonra - noyabrın 9-dan 10-na keçən gecə Ermənistan rəsmən təslim olaraq kapitulyasiya aktına imza atdı. Beləliklə, ərazi bütövlüyümüzü, tarixi ədaləti, beynəlxalq hüququ və milli ləyaqətimizi biz özümüz bərpa etdik.

Bu gün isə Qarabağ və Şərqi Zəngəzur dirçəlir. Bu gün "Böyük Qayıdış" Proqramı icra edilir. Məktəblər, xəstəxanalar, sənaye müəssisələri, elektrik stansiyaları, su anbarları, evlər tikilir. Artıq 60 mindən çox insan azad edilmiş torpaqlarda yaşayır, çalışır və təhsil alır. Bütün bu tarixi nailiyyətlərlə bağlı bir daha əziz xalqımı təbrik edirəm. Biz bu beş ili qürur hissi ilə yaşamışıq. Əminəm ki, bundan sonra Azərbaycan xalqı qəhrəman, müzəffər xalq kimi, Azərbaycan dövləti qalib dövlət kimi əbədi yaşayacaqdır. Biz - bu torpaqların sahibləri Qarabağa, Şərqi Zəngəzura qayıtmışıq və bundan sonra bu torpaqlarda əbədi yaşayacağıq. Azərbaycan Bayrağı bu torpaqlarda əbədi dalğalanacaqdır.

Mən bütün Azərbaycan xalqını şanlı Zəfərimiz münasibətilə bir daha ürəkdən təbrik edirəm, Azərbaycan xalqına cansağlığı, yeni uğurlar arzulayıram. Qarabağ Azərbaycandır!

***

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi.

*(ardı 5-ci səhifədə)*



# Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad

*(əvvəli 4-cü səhifədə)*



## Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı



– Əziz Qardaşım, Prezident cənab İlham Əliyev.

Pakistanın Baş naziri cənab Şahbaz Şərif.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman şəxsi heyəti.

Azərbaycanlı qardaşlarım.

Sizləri ən səmimi hisslərimlə, hörmət və sevgi ilə salamlayıram.

Zəfər Günümüzün beşinci ildönümündə sizinlə bərabər olmaqdan böyük xoşbəxtlik duyuram. İlham Əliyev qardaşıma zərif dəvətinə görə təşəkkürlərimi bildirirəm. Sizlərə Türkiyədəki qardaşlarınızın salamlarını gətirdim. Sizlərə 86 milyonun ən səmimi sevgilərini gətirdim.

Bu qürur günümüzdə inanıram ki, hazırda Türk Dövlətləri Təşkilatındakı qardaşlarımız da bizimlə eyni coşqunu yaşayır. Zəfərimiz mübarək olsun! Allah Azərbaycanı və Türk dünyasını neçə belə Zəfərlərə qovuşdursun! Azərbaycanın sevincini bölüşən Pakistanın Baş naziri Şahbaz qardaşım başda olmaqla bu gün aramızda olan dost ölkələrdən bütün təmsilçilərə təşəkkür edirəm.

Qardaşlarım, bu gün hamımız birlikdə otuzillik işğala son qoyan möhtəşəm və misilsiz bir Zəfərin beşinci ildönümünü qeyd edirik. Vətən müharibəsində həlak olan bütün şəhidlərimizi - Azərbaycanın igid övladlarını bir daha rəhmətlə yad edirəm. Rəbbim şəhidlərimizin ruhlarını şad, məkanlarını, inşallah, cənnət etsin.

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən olan Məmməd Araz Azərbaycan türkünün Vətən eşqini belə təsvir edirdi:

**Bu gün gərək**
**Hər anımız Vətən! – desin!**
**Qılıncımız, qalxanımız**
**Vətən! – desin**
**Ölənlərin əvəzinə**
**Qalanımız Vətən! – desin.**

**Vətən! – desin**
**Qəlbimizin hər duyğusu,**
**hər vurğusu**
**Vətən! – desin.**
**Fərqi yoxdur, harda olaq,**
**Zamanımız, məkanımız**
**Vətən! – desin.**

Ürəkləri hər dəfə Vətən deyə döyünən qəhrəman qazilərimizə minnətdarlıq hisslərimi ifadə edir, “Uca Allah onlardan razı olsun!” deyirəm. Həyatları bahasına apardıqları qəhrəmanlıq mübarizəsi ilə otuzillik işğala son qoyan Azərbaycan Silahlı Qüvvələrinin bütün şəxsi heyətini bir daha təbrik edirəm. Həmçinin bu böyük Zəfərin memarı və lideri olan İlham Əliyev qardaşımı səmimi-qəlbdən təbrik edir, uğurlarının daimi olmasını diləyirəm.

İstəyirəm biləsiniz ki, Qarabağın azadlığa qovuşması təkcə Azərbaycan üçün deyil, Türk dünyası üçün də böyük bir qürur mənbəyidir. Azərbaycan Ordusunun Qarabağ torpağında atdığı hər addım, istiqlal və şərəf uğrunda tökülən hər damla qan Türk dünyasının tarixində şərəf nişanəsi olaraq ortaq tariximizə qızıl hərflərlə yazılmışdır.

Bu gün burada Azərbaycan əsgəri Türkiyədən gələn əsgər qardaşları ilə çiyin-çiyinə, yan-yanadırlar. Əsgərlərimizə baxdıqca “Bir millət, iki dövlət” şüarının nə demək olduğunu hamımız görə bilirik. Şəhidlərimizin bir-birinə qarışan qanlarının üzərində yüksələn Azadlıq Bayrağı Qarabağın dörd bir yanında şanla, şərəflə, qürurla dalğalanır.

Bilirsiniz ki, əslən qarabağlı olan böyük bir şairimizi 45 gün əvvəl haqq dünyasına yola saldıq. Mərhum Yavuz Bülent Bakiler Qarabağ həsrətini bu misralarla dilə gətirmişdi:

**Torpağına bayraqlarla girə bilərəm,**
**Qara sevdalılar kimi həsrətəm Qarabağa.**
**Uğrunda ölə bilərəm.**
**Bir gün bitərsə hər şey Qarabağı görmədən.**
**İstəmərəm orkestr, böyük əklillər.**
**Allahım, ruhuma bir az sükun ver.**
**Üstümə oxunmuş bir ovuc müqəddəs**
**Qarabağ torpağından sərpilsə yetər.**

İllərlə şairlər Qarabağ üçün həsrət dolu belə şeirlər yazmışlar. İlham qardaşımın qətiyyətli liderliyi ilə Azərbaycan Ordusu Qarabağı işğaldan azad edərək könüllərdəki 30 illik bu yanğını da söndürdü. Allaha şükürlər olsun, bu gün Laçından Şuşaya, Zəngilandan Xankəndiyə, Xocalıdan Füzuliyə qədər Qarabağın hər qarışında əmin-amanlıq, inkişaf, sülh, rifah və azadlıq var. İnşallah, bu sülh və təhlükəsizlik mühiti daha da güclənməkdə davam edəcək.

Əziz dostlarım, hörmətli qonaqlar, Qarabağ Zəfəri vicdanları qanadan böyük bir ədalətsizliyə son qoymaqla qalmadı. Eyni zamanda, bölgəmizdə yeni bir dövrün qapılarını açdı. Vətən müharibəsi Asiyada və Avropadakı geosiyasi balansı da dəyişdi. Biz nə kin saxlayarıq, nə də keçmişdəki zülmlərin yenidən yaşanmasına izn verərik. Beləliklə, bu Zəfəri bir son olaraq deyil, Qafqazda davamlı sülhə gedən yolun məhək daşı olaraq görürük. Qafqazda sülhün bərqərar olmasının Asiyadan Avropaya qədər bütün bölgənin rifahına xidmət edəcəyi qənaətindəyik. Bunu da burada xüsusilə vurğulamaq istəyirəm ki, biz davamlı sülh məsələsində son dərəcə ümidvarıq, nikbinik. İlham Əliyev qardaşımın davamlı sülhün bərqərar olması üçün göstərdiyi səmimi fəaliyyəti təqdir edirik. Ermənistanın Baş naziri cənab Paşinyanın da bu yolda atdığı cəsur addımları məmnunluqla izləyirik. İnşallah, bu möhtəşəm Zəfər hər iki liderin konstruktiv mövqeyi ilə bölgədə əmin-amanlığı və sülhü bərqərar edəcək davamlı bir müqavilə ilə nəticələnəcək.

Türkiyə olaraq bu məsələdə üzərimizə nə düşürsə, inşallah, bunu etməkdə davam edəcəyik. Hazırkı nöqtədə Can Azərbaycanın həm bölgəsində, həm də kənarda əldə etdiyi irəliləyişlərdən böyük qürur duyuruq. Aramızdakı müstəsna əlaqələr konkret strateji layihələrlə hər gün daha da güclənir. Xatırlayırsınız, “Əsrin müqaviləsi”, “Azəri-Çıraq-Günəşli” başda olmaqla, Bakı-Tbilisi-Ceyhan xam neft boru kəməri, “Şahdəniz” və TANAP ilə taclandırdığımız əməkdaşlığımızı son olaraq İğdır-Naxçıvan təbii qaz boru kəmərinin istismara verilməsi ilə daha da möhkəmləndirdik. İndi bu əməkdaşlığımızı daha da inkişaf etdirmək və miqyasını genişləndirmək üçün səy göstəririk.

Qafqazda yaradılacaq yeni marşrutların nəqliyyat və enerji tədarükü imkanlarının artırmasını gözləyirik. Xəzərdən keçən Şərq-Qərb Orta Dəhlizini bölgədəki bütün qardaşlarımızın faydasına xidmət edəcək şəkildə sərmayələrlə inkişaf etdirməliyik. Bilavasitə Bakı-Tbilisi-Qars dəmir yolu xəttini ən səmərəli şəkildə istifadə etmək üçün Azərbaycanla birlikdə irəliyə doğru daha çox addımlar atacağımıza inanıram.

Əziz qardaşlarım, Azərbaycan Qarabağ başda olmaqla bölgənin bərpasında və yenidən qurulması, xalqın təhlükəsiz şəkildə geri qayıtması, yox edilən mədəni və dini mirasın bərpası üçün böyük səylər göstərir. Qarabağa İlham qardaşımla birlikdə, həmçinin Pakistanın Baş naziri Şahbaz Şərifin də bir qismində iştirak etdiyi səfərlərimiz oldu. Zəfərdən sonra Qarabağın bütün ərazisində yaşanan inkişaf və investisiya səfərbərliyinə bilavasitə şahid oldum. Hava limanlarını, yolları, körpüləri, tunelləri, dəmir yollarını, evləri, yüksələn binaları, kənd təsərrüfatı və nəqliyyat layihələrini yerində gördüm. İlham qardaşımın liderliyi ilə Can Azərbaycanın nələrə qadir olduğuna yaxından şahid oldum. Bir daha “Maşallah!”, “Bərəkallah!” deyirəm. Təbii ki, bizim gördüklərimiz, sadəcə, bir başlanğıcdır. İnşallah, bunların davamı da gələcəkdir. Qarabağ möhtəşəm gözəlliyi ilə bölgənin yenidən parlayan ulduzu olacaq. Bu prosesdə biz də Azərbaycana hər cür lazımi dəstəyi verəcəyik.

Can Azərbaycan ilə ikitərəfli əlaqələrimizlə yanaşı, Türk Dövlətləri Təşkilatı çərçivəsindəki birlik və həmrəyliyimizi də davam etdiririk. Ailə məclisimizin bütün üzvlərinin ən yüksək səviyyədə iştirakı ilə oktyabr ayında Qəbələdə 12-ci Zirvə Görüşümüzü keçirdik. Zirvə Görüşündə çağırışını etdiyim 15 Dekabr – Dünya Türk Dili Günü qərarının da UNESCO nəzdində həyata keçməsindən məmnunluq duyuram. Təşkilata sədrliyi dövründə Azərbaycan ilə həmrəyliyimiz, inşallah, daha geniş vüsət qazanacaq. İndidən Can Azərbaycana fəaliyyətində uğurlar diləyirəm. Azərbaycanın sarsılmaz dəstəyi ilə Şimali Kipr Türk Respublikasının Türk dünyası içərisindəki mövqeyinin güclənməsini arzu edirəm.

“Rəbbim yar və yardımçınız olsun!” deyirəm. Bu düşüncələrlə Vətən müharibəsində al qanları ilə torpağı sulayan əziz şəhidlərimizi rəhmətlə yad edir, qazilərimizə təşəkkürlərimi bildirirəm.

Eynilə, 1918-ci ildə Bakını işğaldan azad edən Qafqaz İslam Ordusunun bütün şəhidlərini, xüsusən şöhrəti ilə ün salmış şəhid Ənvər Paşanı və qardaşı Nuri Killigil Paşanı bir daha ehtiramla yad edirəm. Fürsətdən istifadə edərək 9 Noyabr Dövlət Bayrağı Gününüzü də ürəkdən təbrik edirəm. Hamınızı ən səmimi hisslərimlə salamlayıram. Sağ olun, var olun, Allaha əmanət olun!

*

**Daha sonra Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif çıxış etdi.**

## Baş nazir Məhəmməd Şahbaz Şərifin çıxışı



– Mənim əziz qardaşım, Prezident İlham Əliyev.

Mənim əziz qardaşım, Prezident Rəcəb Tayyib Ərdoğan.

Əziz qardaşım, Birləşmiş Ərəb Əmirliklərinin Şeyx həzrətləri Əl Məktum.

Azərbaycan Silahlı Qüvvələrinin qəhrəman şəxsi heyəti.

Azərbaycanlı qardaş və bacılar.

Hörmətli rəsmilər, xanımlar və cənablar.

Salaməleyküm, günortanız xeyir olsun.

Əziz qardaşım Prezident İlham Əliyevə belə bir sevinc dolu münasibətlə mənə etdiyi nəzakətli dəvətə, mənə və nümayəndə heyətimə göstərdiyi səmimi qonaqpərvərliyə görə təşəkkürümü bildirirəm. Pakistan xalqının səmimi salamlarını azərbaycanlı qardaş və bacılarına çatdırıram. 44 günlük Vətən müharibəsində əldə edilmiş şanlı Qələbənin beşinci ildönümünü qeyd edirik.

Xanımlar və cənablar, Pakistan, Azərbaycan və Türkiyə - ürəkləri bir döyünən üç qardaş bu gün burada çiyin-çiyinə dayanaraq, belə möhtəşəm tədbiri birlikdə, hamılıqla qeyd edirlər.

Azərbaycanlı və türk qardaşların arxasınca marşla gedən müzəffər Silahlı Qüvvələrimizi görmək, əlhəmdülillah, hər il güclənən möhkəm dostluğumuzun gözəl rəmzi olan “JF-17 İldırım” qırıcı təyyarələrin gurultulu səsinə qərq olan səmanı seyr etmək nə dərəcədə fəxarət və duyğulandıran mənzərədir.

Xanımlar və cənablar, bu il avqustun 14-də Hindistanla dördgünlük mübarizədə tarixi zəfərimizi – Maarka-e-Haqqı qeyd etmək məqsədilə sürəkli alqışlarla İslamabadda Pakistanın Silahlı Qüvvələri ilə birlikdə fərəh hissi ilə marş altında keçən Azərbaycan və Türkiyənin hərbi kontingentləri yadıma düşür. Bu gün ürəyim fəxarət hissi ilə dolur.

Xanımlar və cənablar, çünki mən böyük həvəslə və vətənpərvərlik eşqi ilə möhtəşəm hadisəni qeyd edən güclü Azərbaycan xalqını burada görürəm. Uşaqlıq xatirələrim göz önünə gəlir. O zaman, mərhum atam 1947-ci ildə Pakistanın yaranması ilə nəticələnmiş ulu babalarımızın tarixini mənə söylədi. Bu gün sizin təbəssümlü simanızı və sevinc dolu gözlərinizi gördükdə uşaqlığın o əziz xatirələri bir daha qəlbimdə canlanır.

Xanımlar və cənablar, azadlıq mübarizəmizdə işıq saçan mayakımız, milli şairimiz Allama Məhəmməd İqbal şeirində yazırdı:

“Birlik qarşısında dayanır nə qılınc, nə strategiya!

İnamın alovu zəifləyəndə isə bu birliyin bütün telləri titrəyir!”.

Mən bu misraları indi ingilis dilində söyləyirəm. İqbal öz tarixi şeirində bu misraları bu cür yazmışdır. Bu cür dəyərli misralar bizə xatırladır ki, azadlığı yalnız güclə qazanmırlar. Onu təmin edən qətiyyətli inam və bağlılıqdır, çünki onlar qəhrəman mücadiləsinə həvəs verir.

Xanımlar və cənablar, beş il əvvəl Azərbaycanın cəsur oğulları əziz qardaşım Prezident İlham Əliyevin qətiyyətli və uzaqgörən rəhbərliyi ilə tarixi mübarizəyə qalxdılar. Bütün dünya təəccüblə onun şahidi oldu ki, Azərbaycanın cəsur Silahlı Qüvvələri öz ata-baba yurdlarının tacı olan Qarabağı azad etdi. Torpaqların azadlığı uğrunda bütün mübarizə dövründə Pakistan qardaş Azərbaycanın yanında bir qaya kimi dayandı. Bundan sonra da belə olacaq.

Hörmətli qonaqlar, Azərbaycanın Qarabağdakı Qələbəsi suverenlik və öz müqəddəratı uğrunda vuruşan bütün xalqlar üçün, o cümlədən Qəzzanın cəsur və güclü xalqı və Hindistanın qeyri-qanuni işğal etdiyi Cəmmu və Kəşmir xalqı üçün ədalətin möhtəşəm təntənəsi, ümid yeri oldu.

Bu ilin mayında Hindistanla dördgünlük mübarizə zamanı bütün dünya Azərbaycan ilə Türkiyənin böyük xalqlarının və qətiyyətli rəhbərlərinin Pakistanın yanında dayandığının şahidi oldu. Feldmarşal Səyid Asim Munirin dinamik və qorxmaz rəhbərliyi ilə Pakistanın olduqca peşəkar Silahlı Qüvvələri düşmənin burnunu ovdu, düşməni şoka və qorxuya salan sərrast və çox tutarlı hərbi zərbələr endirdi.

Hava Qüvvələri Marşalı Zahir Bəbir Sidhunun bacarıqlı komandanlığı altında Vətənin müdafiəsi üçün səmaya qalxan və hər zaman ayıq-sayıq olan şahinlərimiz düşmənin çox müasir yeddi təyyarəsini ildırım sürəti ilə sıradan çıxartdılar.

Əslində, Pakistan azərbaycanlı və türkiyəli qardaşları kimi, sülhə çalışır, lakin heç kəsdə şübhə belə qoymur ki, kimsə qarşımıza çıxsın, suverenliyimizə hücum çəksin, yaxud ərazi bütövlüyümüzü şübhə altına alsın.

Xanımlar və cənablar, bu gün keçmişimizi xatırlamaqla bərabər, gələcəyimizə də böyük ümid və arzularla baxırıq. Məcburi köçkün ailələrin Qarabağa, öz yurdlarına qayıdışını görmək çox ilhamlandırıcıdır. Əziz qardaşım cənab Prezident, bu, Sizin Azərbaycan xalqının rifahı və tərəqqisinə olan güclü şəxsi sadiqliyinizin böyük rəmzidir.

Qarabağın incisi Şuşada, Xankəndidə, Füzulidə, Laçında və azad edilmiş Qarabağın bütün ərazilərində yenidənqurmanın bu cür inanılmaz sürəti tam fenomenal xarakter daşıyır. Həmçinin inkişafın ən uğurlu modellərindən biri bu gün Türkiyədə görünür və onun memarı əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğandan başqa kim ola bilər?! Bütün qonaqlarla yanaşı, bu gözəl mərasimdə Türkiyəni müasir, aparıcı, strateji və iqtisadi gücə çevirən onun uzaqgörən rəhbərinə böyük iftixarla baxdığımı qeyd etməliyəm.

Xanımlar və cənablar, əsl qələbə təkcə döyüş meydanında deyil, eləcə də sülh və anlaşma körpülərinin salınmasındadır.

Əziz qardaşım Prezident İlham Əliyev, Azərbaycan ilə Ermənistan arasında ləyaqət və qarşılıqlı hörmətə əsaslanan sülhə aparan çətin yolda Azərbaycanı istiqamətləndirərək, Sizin müdrik rəhbərliyiniz mənə böyük təəssürat bağışlayır.

Qarabağda möhtəşəm hərbi Qələbəni qazandıqdan sonra, cənab Prezident, Siz indi də bacarıqlı diplomatiyanız sayəsində sülhü qazandınız. Burada mən həmin sülh üçün uğur gətirmiş nümunəvi rəhbərlik keyfiyyətlərinə görə ABŞ Prezidenti Donald Trampa təşəkkürümü bildirməliyəm. Məhz Prezident Trampın qətiyyətli və həlledici rəhbərliyi ilə Pakistanla Hindistan arasında atəşkəs əldə olundu, əsas müharibəyə imkan verilmədi və milyonlarla insanın həyatını xilas edərək Cənubi Asiyada sülh bərpa olundu.

Xanımlar və cənablar, sülhə olan ümumi qətiyyətimiz bu yaxınlarda Əfqanıstanla olan hadisələrdə sınaqdan keçdi. Mən əziz qardaşım Prezident Rəcəb Tayyib Ərdoğana verdiyi böyük töhfəyə görə təşəkkürümü bildirmək istəyirəm. Bu, Qətər dövlətinin iştirakı ilə baş tutdu. Bu, həm çətin, həm də asan anlarda çiyin-çiyinə dayanan ölkələrimiz arasında güclü, sınaqdan keçmiş qardaşlıq əlaqələrinin əsl təzahürüdür.

Xanımlar və cənablar, bu gün Zəfəri qeyd etdiyimiz bir vaxtda, biz, həmçinin şəhidləri yad etməliyik. Azərbaycan torpaqlarının azadlığı uğrunda mübarizə aparmış şəhidlərə Allah rəhmət eləsin. Onların cəsarəti, qüvvəsi və verdiyi qurbanlar xalqınızın tarixində və yaddaşında qalan fəsli yazdı. Bu gün cəsur oğul və qızlarımızın qanı və canı sayəsində azad olmuş zəngin Qarabağ torpaqlarında gözəl xarıbülbül yenə çiçək açır və sülh ümidi gətirir.

Qoy, Uca Allah tərəqqi və firavanlıq dolu gələcəyə doğru qətiyyətlə addımlayan böyük xalqlarımıza qüvvə versin.

Yaşasın Pakistan-Azərbaycan dostluğu!

Yaşasın Pakistan, Azərbaycan və Türkiyə dostluğu!

Sağ olun.

*(ardı 6-cı səhifədə)*

# Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad

*(əvvəli 5-ci səhifədə)*

Dövlət başçılarının çıxışlarından sonra Hərbi parad başladı.

Hərbi parada müdafiə nazirinin birinci müavini – Azərbaycan Ordusunun Baş Qərargah rəisi, "Zəfər" və "Qarabağ" ordenli general-polkovnik Kərim Vəliyev komandanlıq edib.

Silahlı Qüvvələrimizin şəxsi heyəti Azərbaycan Respublikasının Dövlət Bayrağı altında tribunaya doğru irəlilədi. Dövlət Bayrağının ardınca Azərbaycan Ordusunun və hərbi əməliyyatlarda xüsusilə fərqlənən birləşmələrin Döyüş bayraqları "Vətənə xidmətə görə" ordenli general-mayor Vüqar Əliverdiyevin başçılığı ilə Azadlıq meydanına gətirildi.

Sonra Xüsusi Təyinatlı Qüvvələrin parad heyətləri tribuna qarşısından keçdilər. Parad heyətlərinə Vətən Müharibəsi Qəhrəmanı general-mayor Ələkbər Cahangirov rəhbərlik edirdi.

Ardınca "Qarabağ" ordenli polkovnik Zamiq Əmirov, "Azərbaycan Bayrağı" ordenli polkovniklər Çingiz Əliyev, Mərdan Musayev və Vətən Müharibəsi Qəhrəmanı polkovnik İlqar Orucovun başçılıq etdikləri parad heyətləri tribunanın önündən keçdilər.

Hərbi paradda Türkiyə Respublikası nanın qarşısından keçdi.

Quru Qoşunların bayrağı altında ordu korpuslarının tribuna önündən keçən parad heyətlərinə müdafiə nazirinin müavini - Quru Qoşunları Komandanı, Vətən Müharibəsi Qəhrəmanı general-polkovnik Hikmət Mirzəyev rəhbərlik edirdi.

Daha sonra "Qarabağ" ordenli polkovnik Teymur Məmmədovun başçılığı ilə Birinci Ordu korpusunun, "Rəşadət" ordenli general-mayor Vilayət Quliyevin rəhbərliyi ilə İkinci Ordu korpusunun, "Azərbaycan Bayrağı" ordenli general-mayor Bilal Çompuzovun başçılığı ilə Üçüncü Ordu korpusunun, "Vətənə xidmətə görə" ordenli general-mayor İdris Məhərrəmovun rəhbərliyi ilə Dördüncü Ordu korpusunun, "Zəfər" ordenli general-mayor Akif Pirverdiyevin başçılığı ilə Beşinci Ordu korpusunun, Vətən Müharibəsi Qəhrəmanı general-leytenant Kənan Seyidovun rəhbərliyi ilə Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçuları tribuna qarşısından keçdilər.

"Azərbaycan Bayrağı" ordenli general-mayor Anar Hüseynovun başçılığı ilə Hərbi Hava Qüvvələrinin parad heyəti, "Vətənə xidmətə görə" ordenli polkovnik Adəm Hüseynovun rəhbərlik etdiyi İnsansız Sistem Qoşunlarının parad heyəti, "Hərbi Xidmətlərə görə" medallı Hərbi Dəniz Qüvvələri komandanı kontr-admiral Şahin

















Silahlı Qüvvələrinin hərbçiləri də iştirak etdilər. İki kolondan ibarət parad heyətinə polkovnik-leytenant Uğur Alan rəhbərlik edirdi.

İlk dəfə olaraq paytaxt Bakının Azadlıq meydanında Pakistan İslam Respublikası Ordusunun mayoru Saqib Alamın başçılıq etdiyi parad heyəti mətin addımlarla tribu-

Məmmədovun başçılıq etdiyi Azərbaycan Hərbi Dəniz Qüvvələrinin parad heyəti, Vətən Müharibəsi Qəhrəmanı, polkovnik-leytenant Xaliq İbrahimovun rəhbərliyi ilə dəniz piyadalarından ibarət parad heyəti, "Vətənə xidmətə görə" ordenli 2-ci dərəcəli kapitan Sirac Siracovun başçılıq etdiyi dəniz xüsusi təyinatlılarından ibarət parad heyəti, "Vətənə xidmətə görə" ordenli polkovnik Aqil Cəbrayılovun rəhbərlik etdiyi Raket və Artilleriya Qoşunlarının parad heyəti Azadlıq meydanına daxil oldular.

Müdafiə Nazirliyi Hərbi Polisinin hərbi qulluqçuları "Vətənə xidmətə görə" ordenli general-mayor Elgün Əliyevin, Dövlət Sərhəd Xidmətinin 2 kolondan ibarət parad heyəti Vətən Müharibəsi Qəhrəmanı" general-leytenant İlham Mehdiyevin, Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının Xüsusi Təyinatlı bölmələrinin 2 kolondan ibarət hərbi qulluqçuları "Vətənə xidmətə görə" ordenli general-mayor Tofiq Hüseynovun rəhbərliyi ilə mətin addımlarla tribunanın önündən keçdilər.

Sonra Xarici Kəşfiyyat Xidmətinin "Yarasa" və Dövlət Təhlükəsizliyi Xidmətinin "Qartal" xüsusi təyinatlılarından ibarət parad heyətləri tribunanın qarşısından addımladılar. Dövlət Təhlükəsizliyi Xidmətinin parad heyətinə "Qarabağ" ordenli general-mayor Cabir Cəfərov başçılıq edirdi.

Dövlət Mühafizə Xidmətinin "Hərbi xidmətlərə görə" medallı polkovnik-leytenantı Eldar Quliyevin rəhbərlik etdiyi Milli Qvardiyanın parad heyəti, Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin "Şücaətə görə" medallı polkovniki Orxan Novruzovun başçılıq etdiyi parad heyəti, Fövqəladə Hallar Nazirliyinin "Hərbi xidmətlərə görə" medallı polkovniki Xaliq Hüseynovun rəhbərlik etdiyi parad heyəti, Milli Müdafiə Universitetinin "Hərbi xidmətlərə görə" medallı rektoru general-mayor Gündüz Əbdülovun başçılıq etdiyi parad heyəti, Heydər Əliyev adına Hərbi İnstitutun "Qarabağ" ordenli general-mayoru Ümidvar Quliyevin rəhbərlik etdiyi parad heyəti, Bakı Hərbi Kollecinin "Vətən uğrunda" medallı polkovniki İntiqam Mirzəyevin başçılıq etdiyi parad heyəti, Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin Vətən Müharibəsi Qəhrəmanı polkovnik Nizami Mövlanovun rəhbərlik etdiyi parad heyəti tribunanın önündən keçdilər.

*(ardı 7-ci səhifədə)*

# Bakıda Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad

*(əvvəli 6-cı səhifədə)*

Ardınca Hərbi Dəniz Qüvvələrinin və Dövlət Sərhəd Xidməti Sahil Mühafizəsinin döyüş gəmiləri və katerləri Hərbi parad üçün Xəzər dənizinin sahil sularında yüksək döyüş hazırlığı nümayiş etdirdi.

Daha sonra hərbi texnikaların keçidi oldu.

Bundan sonra xüsusi təyinatlı avtomobil texnikası və silah sistemləri kolonu Azadlıq meydanına daxil oldu. Kolona "Vətən uğrunda" medalı ilə təltif edilmiş general-mayor Eldəniz Yəhyayev başçılıq edirdi.

Azadlıq meydanından keçid edən, üzərində 12,7 millimetrlik NSV pulemyotları, tankəleyhinə idarəolunan "SPIKE-ER", 120 millimetrlik "SPEAR" minaatanlar quraşdırılan "SandCat-Stormer" zirehli idarəetmə, çevik hərəkət avtomobilləri, silahlanmaya yeni qəbul edilmiş Milli Müdafiə Sənayesinin məhsulu "VAŞAQ" xüsusi əməliyyat nəqliyyat vasitələri, "COBRA-II" zirehli tibbi təxliyə avtomobilləri, "SKİF" raket kompleksi, "BTR-82A" zirehli transportyorları, "PDM-3" Piyadaların Döyüş Maşınları, "T-72M1" və "T-90S" tankları Azərbaycan Ordusunun hərbi qüdrətini nümayiş etdirdi.

Daha sonra Azadlıq meydanında Hava Hücumundan Müdafiə silahları sistemləri kolonunun keçidi oldu. Kolona "Vətən uğrunda" medalı ilə təltif olunmuş general-mayor Zaur Yusifli başçılıq edirdi. Tribuna önündən "S-125 TM", "BUK-MB", "BUK-MB2K", "İLDIRIM-8", "S-300 FAVORİT" və "TOR-2M" zenit-raket komplekslərinin keçidi oldu. Ardınca silahlanmaya yeni qəbul edilmiş Yerli Müdafiə Sənayesinin məhsulu "VİKİNQ" hava hədəflərinə qarşı çoxfunksiyalı mobil döyüş kompleksi, təkmilləşdirilmiş "Şilka" özüyeriyən zenit qurğusu və "HQ-9" uzaqmənzilli zenit-raket kompleksi nümayiş olundu.







Sonra İnsansız Sistem Qoşunları tərəfindən Ordumuzun pilotsuz uçuş aparatları və digər insansız vasitələri təqdim edildi. Kolona "Azərbaycan Bayrağı" ordenli general-mayor İlqar Qafarov başçılıq edirdi. Azadlıq meydanına üzərində "Orbiter-1KM" zərbə pilotsuz uçuş aparatları, "Orbiter-2", "Orbiter-3" və "Orbiter-4" kəşfiyyat pilotsuz uçuş aparatları, "Aerostar" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatları, "Bayraktar-TB2" silahlı kəşfiyyat pilotsuz uçuş aparatı, silahlanmaya yeni qəbul edilmiş "Hero-120", "Sky Striker" sərbəst uçan döyüş sursatları, "Orbiter-5" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatları, "Harop" zərbə pilotsuz uçuş aparatları, "Hermes-450" taktiki-kəşfiyyat pilotsuz uçuş aparatı yerləşdirilmiş "Marauder" və "Matador" tipli minaəleyhinə zirehli nəqliyyat vasitələri daxil oldu.

Ardınca Azadlıq meydanına artilleriya silahları sistemlərinin kolonu daxil oldu. Kolona "Zəfər" ordenli general-leytenant Ağamir Sultanov başçılıq edirdi. Meydanda 120 millimetrlik "Vena" özüyeriyən minaatan qurğusu və artilleriya qurğuları - 122 millimetrlik "Qvozdika", 152 millimetrlik "Akasiya", 152 millimetrlik "MSTA-S", 203 millimetrlik "Pion", həmçinin 220 millimetrlik "TOS-1A" ağır odsaçan, tankəleyhinə "Xrizantema-S" kompleksləri, "DANA" özüyeriyən artilleriya sistemi, 155 millimetrlik uzaqmənzilli "NORA" və 155 millimetrlik uzaqmənzilli "DİTA" özüyeriyən artilleriya sistemləri, 122 millimetrlik RM-70/85 yaylım atəşli reaktiv sistemi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərində 122 millimetrlik "ACCULAR" idarəolunan yaylım atəşli reaktiv sistemi, 160 millimetrlik "QRADLAR" yaylım atəşli reaktiv sistemi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərindən buraxılan SkyStriker BLOK-4 sərbəst uçan döyüş sursatları sistemi, "Qasırğa" taktiki raket kompleksi, 300 millimetrlik uzaqmənzilli TRG-300 taktiki raket sistemi, 300 millimetrlik iriçaplı "Smerç" yaylım atəşli reaktiv sistemi, 306 millimetrlik "Ekstra" taktiki raket kompleksi, 306 millimetrlik "Polonez" əməliyyat taktiki raket kompleksi, silahlanmaya yeni qəbul edilmiş PULS üzərində 370 millimetrlik yüksəkdəqiqlikli "Predator Hawk" əməliyyat taktiki raket kompleksi, beşinci nəsil İCEBREAKER qanadlı raket kompleksi və "LORA" əməliyyat-taktiki raket sistemlərinin keçidi oldu.















*

Bundan sonra Azadlıq meydanı üzərində Azərbaycan və Türkiyə pilotlarının iştirakı ilə Hərbi Hava Qüvvələrinə məxsus döyüş təyyarələrinin və helikopterlərin uçuşu oldu.

"Akıncı" pilotsuz uçuş aparatı Bakı səmasında, Azadlıq meydanı üzərində 900-1500 metr hündürlükdə dövrə vuraraq çəkilişlər apardı.

Azərbaycan, Türkiyə və Pakistan respublikalarının Dövlət bayraqlarını daşıyan "Mİ-17" döyüş-nəqliyyat helikopterləri üçlüyünə Vətən Müharibəsi qəhrəmanları – Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə və polkovnik Rəşad Nadirov başçılıq edirdi. "Qarabağ" ordenli general-mayor Zaur Rüstəmovun başçılığı ilə "Mİ-17" helikopteri isə Ümummilli Lider Heydər Əliyevin portretini nümayiş etdirdi.

Paytaxt səmasında təntənəli aviasiya nümayişləri davam etdi. Əvvəlcə polkovnik-leytenant Ziya Əliyevin başçılıq etdiyi uzaqmənzilli hava-yer tipli raketlərlə təchiz olunmuş "Mİ-17" döyüş-nəqliyyat helikopterləri beşliyi klin düzülüşündə Azadlıq meydanının üzərindən keçdi. Növbəti mərhələdə "Mİ-17" döyüş-nəqliyyat helikopterlərinin beşliyi klin düzülüşündə uçaraq tamaşaçılara heyranedici anlar yaşatdı. Bu beşliyə "Vətənə xidmətə görə" ordenli polkovnik-leytenant Sabit Hüseynov rəhbərlik edirdi.

Daha sonra polkovnik-leytenant Aslan Ramazanovun başçılığı ilə "MFİ-17" təlim təyyarələrinin beşliyi səmada dövrə vurdu. Ardınca "L-39" təlim təyyarələrinin beşliyi klin düzülüşündə nümayişini davam etdirdi. Qrupun rəhbəri "Vətənə xidmətə görə" ordenli polkovnik Əliyar Əsgərov idi. "İL-76" hərbi-nəqliyyat və silahlanmaya yeni qəbul edilmiş "C-27J" yük təyyarələrindən ibarət üçlüyü polkovnik-leytenant Zəfər Fərhadov, "Rəşadət" ordenli polkovnik Ruslan Ələkbərov və "Qarabağ" ordenli polkovnik Vüqar Salahov idarə etdilər. Silahlanmaya yeni daxil olan "JF-17" çoxməqsədli qırıcı təyyarələrinin beşliyi də klin düzülüşündə nümayişini davam etdirdi. Qrupa "Vətənə xidmətə görə" ordenli polkovnik Novruz Tahirov başçılıq edirdi. Türkiyə Hərbi Hava Qüvvələrini təmsil edən "F-16" çoxməqsədli qırıcı təyyarələr beşliyi Bakı səmasında peşəkar uçuş nümayiş etdirdi. Beşliyə Albay Nevzat Oflamaz başçılıq edirdi. Təkmilləşdirilmiş "SU-25-Laçın" hücum təyyarələri beşliyinin başçısı "Qarabağ" ordenli general-mayor Həsən Əlövsədov, 2-ci pilotu isə "Vətənə xidmətə görə" ordenli polkovnik Anar Həsənov idi. Sonuncu - Azərbaycan Respublikasının Dövlət Bayrağının rənglərini paytaxt səmasında canlandıran "SU-25" hücum təyyarələri qrupuna "Vətənə xidmətə görə" ordenli polkovnik Ruslan Məmmədrzayev başçılıq edirdi.

Bununla da Vətən müharibəsində qazanılan Qələbənin 5-ci ildönümünə həsr olunmuş Hərbi parad başa çatdı.

# Azərbaycan, Türkiyə və Pakistan liderləri birgə nahar ediblər



**Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif birgə nahar ediblər.**

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycana səfərə gəlib

**Noyabrın 8-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasına səfərə gəlib.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov, Türkiyənin milli müdafiə naziri Yaşar Güler və digər rəsmi şəxslər qarşıladılar.

# Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri başa çatıb



**Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycan Respublikasına səfəri noyabrın 8-də başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanı Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Samir Şərifov və digər rəsmi şəxslər yola saldılar.

# Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycana səfəri başa çatıb

**Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin Azərbaycan Respublikasına səfəri noyabrın 8-də başa çatıb.**



Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Fariz Rzayev və digər rəsmi şəxslər yola saldılar.

# Azərbaycan və Türkiyə prezidentlərinin, Pakistanın Baş nazirinin üçtərəfli görüşü



**Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərifin üçtərəfli görüşü olub.**

Görüşdə Türkiyə Prezidenti və Pakistanın Baş naziri Vətən müharibəsində Qələbənin 5-ci ildönümü münasibətilə dövlətimizin başçısını bir daha təbrik edib, Bakıda keçirilən hərbi paradın yüksək səviyyədə təşkil olunduğunu vurğulayıblar.

Söhbət zamanı Azərbaycanın, Türkiyənin və Pakistanın daim bir-birinin yanında olduqları qeyd edilib, ölkələrimiz arasında siyasi, iqtisadi, hərbi, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığın daha da inkişaf etdiyi bildirilib.

Liderlər Azərbaycan-Türkiyə-Pakistan üçtərəfli formatının perspektivləri ilə bağlı fikir mübadiləsi aparıblar.

***AZƏRTAC***

# Bakıda keçirilən Hərbi parad dünyanın nüfuzlu media qurumlarında

**Vətən müharibəsində qazanılmış şanlı Qələbənin beşinci ildönümü münasibətilə Bakının Azadlıq meydanında keçirilən möhtəşəm Hərbi parad dünyanın bir sıra ölkələrinin aparıcı media qurumlarının geniş diqqət mərkəzində olub və beynəlxalq mətbuatda əhatəli şəkildə işıqlandırılıb.**







Yayımlanan xəbərlərdə Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin çıxışlarında səsləndirdiyi fikirlərə yer verilib, paradın Azərbaycan Ordusunun hərbi qüdrətini tam şəkildə nümayiş etdirdiyi vurğulanıb, həmçinin Vətən müharibəsi barədə məlumat verilib.

Hərbi parad Türkiyənin və Şimali Kiprin aparıcı media qurumları, o cümlədən Anadolu agentliyi, "TRT Avaz", "TRT Haber", "A Haber", "Haber Global", NTV televiziya kanalları, "Milliyet", "Hürriyet", "HaberTürk", "Akşam", "Sabah", "Yeni Şafak", "Türkiye Gazetesi", "Kıbrıs Gazetesi" qəzetləri və digər media qurumları tərəfindən xüsusilə geniş işıqlandırılıb. Hər iki qardaş ölkənin aparıcı informasiya agentlikləri, televiziya kanalları, qəzetləri və xəbər portalları milyonlarla tamaşaçının və oxucunun diqqətini həm prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğanın çıxışlarına, həm də paradda nümayiş etdirilən hərbi texnika və silahlara cəlb edib.

Pakistanın aparıcı media qurumları, o cümlədən "ARN News Centre", "AAJ News (AAJ TV)", "The Express Tribune", "Brecorder", "Geo News", "24 News HD", "Minute Mirror", "Lead Pakistan", "Dawn" televiziya və nəşrlərinin yayımladığı xəbərlərdə Hərbi paradın möhtəşəmliyi, Azərbaycan, Türkiyə və Pakistan hərbi qüvvələrinin birgə iştirakı, nümayiş olunan hərbi texnika və aviasiya qüvvələri barədə məlumat verilib. Xüsusi diqqət Azərbaycan Prezidentinin çıxışına yönəldilib, dövlətimizin başçısının Türkiyə və Pakistanın Vətən müharibəsi zamanı Azərbaycana qətiyyətli dəstəyi barədə fikirləri geniş işıqlandırılıb.

Birləşmiş Ərəb Əmirliklərinin aparıcı media qurumları da, o cümlədən "ARN News Centre", "UAE BARQ", "Emarat Al Youm", "Al Bayan", "Sharjah24" və "20Four" portalları Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi paradı geniş işıqlandırıb. Xəbərlərdə Bakıda keçirilən Hərbi paradın möhtəşəmliyi, nümayiş etdirilən hərbi texnika və Azərbaycan Ordusunun hərbi qüdrəti barədə ətraflı məlumat verilib. Xüsusi diqqət Azərbaycan Prezidenti İlham Əliyevin, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərifin paraddakı çıxışlarında səsləndirdiyi fikirlərə yönəldilib.

Gürcüstanın nüfuzlu "1tv.ge", "24news.ge", "aktual.ge", "interpress.ge" portalları Azərbaycanda Vətən müharibəsində Qələbənin 5-ci ildönümü ilə bağlı təşkil olunan Hərbi parad və bayramla bağlı xəbərlər yayıblar. Yayımlanan xəbərlərdə Azərbaycanda Zəfər Gününün təntənəli şəkildə qeyd olunması, Vətən müharibəsində Qələbənin beşinci ildönümü ilə bağlı Bakıda keçirilən Hərbi parad və bu tədbirdə Azərbaycan və Türkiyə prezidentlərinin, Pakistanın Baş nazirinin, eləcə də digər rəsmi şəxslərin iştirak etmələrindən, Azərbaycan və Türkiyə prezidentlərinin çıxışından materiallar yayıblar.

Rusiyanın bir sıra nəşrləri də Hərbi parad barədə məqalələr yayımlayıb. Bu ölkənin "Gazeta.ru" nəşri paradın miqyasına diqqət çəkərək 5 mindən çox hərbçinin iştirak etdiyini və 150-dən artıq hərbi texnikanın nümayiş etdirildiyini, eləcə də Xəzər dənizində hərbi gəmilərin düzüldüyünü qeyd edib. "News.ru" Prezident İlham Əliyevin çıxışındakı simvolik ifadəni ön plana çəkib: "Onlar Bakıda çay içmək istəyirdilər, indi Azərbaycan çayını istintaq təcridxanasında içirlər".

İspaniyanın EFE agentliyi də Hərbi parada xüsusi diqqət ayırıb. Agentliyin yayımladığı xəbərdə İkinci Qarabağ müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunan Hərbi paradda Türkiyə və Pakistan liderlərinin də iştirakı vurğulanıb.

Rumıniyanın "Ultima-ora" nəşri Prezident İlham Əliyevin paraddakı çıxışında Prezident Rəcəb Tayyib Ərdoğanın Türkiyənin Vətən müharibəsinin ilk günündən Azərbaycana, Azərbaycan xalqına və Ordusuna dəstəyi barədə fikrinə xüsusi yer verilib.

Moldovanın nüfuzlu "Moldova Today" nəşri Bakıda keçirilən Hərbi paradda Azərbaycan, Türkiyə və Pakistan hərbi qüvvələrinin birgə iştirakına, üç qardaş ölkənin liderlərinin çıxışlarına, nümayiş olunan hərbi texnikaya və regionda sabitliyin güclənməsinə xüsusi diqqət ayırıb. "Bu parad təkcə silahların nümayişi deyil, regionda yeni geosiyasi reallığın başlanğıcıdır", - deyə nəşrdə xüsusi vurğulanıb.

Bolqarıstanın "24 Chasa" nəşri paradda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın Zəfərinin Türk dünyası üçün qürur mənbəyi olması, Qarabağın azad edilməsinin bütün Türk dünyası üçün əhəmiyyəti barədə fikirləri qeyd edilib.

Misirin aparıcı media qurumları, o cümlədən "Al Shorouk", "Al Ahram" və "Cairo24" nəşrləri də Bakıda keçirilən Hərbi paradı geniş işıqlandırıb. Xəbərlərdə paradda iştirak edən ali qonaqlar, nümayiş olunan hərbi texnika, Azərbaycan, Türkiyə və Pakistan hərbi qüvvələrinin birgə iştirakı barədə ətraflı məlumat verilib.

Hərbi parad barədə nüfuzlu "Forbes" jurnalı, Səudiyyə Ərəbistanının ingilisdilli "Arab News" və digər media qurumları da xəbərlər yayımlayıb. "Forbes" jurnalında dərc olunan geniş reportajda Hərbi paradın Azərbaycanın hərbi qüdrətini gücləndirdiyini göstərdiyi vurğulanıb.




# Zəfər Günü münasibətilə konsert və atəşfəşanlıq

**8 Noyabr Zəfər Günü münasibətilə Bakının Dənizkənarı Milli Parkında Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə tanınmış incəsənət ustalarının iştirakı ilə təntənəli bayram konserti keçirilib.**

Ümumşəhər şənliyinin keçirildiyi ərazidə Vətən müharibəsində qazanılmış şanlı Zəfərin 5-ci ildönümü münasibətilə xüsusi təntənəli ab-hava yaradılıb.

Bayram konserti zəngin proqram və möhtəşəm atəşfəşanlıqla yekunlaşıb.

***XQ***



# ...Həm də diplomatiya savaşının zəfəri

## 8 Noyabr – tarixi ədalətin və milli ləyaqətin bərpası günü

**8 Noyabr Azərbaycanın diplomatik müdrikliyinin, strateji səbrinin və milli iradəsinin qələbəsidir. Vətən müharibəsində əldə olunan parlaq qələbə ilə Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi, lakin bu qələbə yalnız cəbhə xəttində deyil, diplomatik masada da qazanıldı. Zəfər Günü – döyüş meydanında cəsarətin, beynəlxalq arenada isə siyasi uzaqgörənliyin simvoludur.**



Zəfərin ən mühüm mənəvi və siyasi dəyəri ondan ibarətdir ki, Azərbaycan qələbədən sonra da məsuliyyətli güc kimi davrandı. Qələbə ölkəni ədalətli nizam qurmaq məqsədinə yönəltdi. Müharibədən dərhal sonra Azərbaycanın qarşısında dayanan ən çətin və zəruri missiya diplomatik məkanın yenidən qurulması idi. Hərbi əməliyyatların dayandırılması ilə yeni bir diplomatik oyun meydanı açıldı. Qələbə əldə edən tərəf kimi Azərbaycanın davranışı burada bütün region üçün presedent xarakteri daşıyırdı.

Azərbaycan müharibədən sonra barış ritorikasına keçidlə faktiki olaraq yeni bir diplomatik fəlsəfə yaratdı, "müharibədən sonrakı sülh diplomatiyası" fəlsəfəsi. Müharibəyə qədər diplomatiya ədalətin bərpası üçün vasitə idisə, müharibədən sonra o, sabitliyin qorunması üçün siyasi mexanizmə çevrildi. Prezident İlham Əliyevin qələbədən sonrakı çıxışlarında səslənən "biz keçmişin dustağı deyilik, gələcəyə baxırıq" tezisi bu siyasətin məzmununu dəqiq ifadə edir.



Azərbaycanın sülh diplomatiyası hərbi gücə arxalanan, lakin zor tətbiqini siyasətin alətinə çevirməyən bir modeli ifadə edir. Sülh təşəbbüsləri kontekstində Azərbaycanın davranış tərzi Qafqazda geosiyasi balansın əsas tənzimləyicisinə çevrildi. Müharibədən dərhal sonra Bakı regionda açıq kommunikasiya, iqtisadi inteqrasiya və qarşılıqlı asılılığa əsaslanan yeni əməkdaşlıq modelini təklif etdi. 2025-ci ilin 8 avqustunda Vaşinqtonda paraflanan sülh razılaşması uzunmüddətli diplomatik xəttin məntiqi nəticəsi oldu. Vaşinqton mərhələsi göstərdi ki, Qafqazda sülh artıq beynəlxalq gündəliyin tərkib hissəsidir. Azərbaycan bu mərhələdə emosional ritorikanı kənara qoyaraq, real güc balansına əsaslanan diplomatik sistem qurdu. Yeni mərhələdə Bakı regiondakı güc mərkəzləri arasında incə tarazlığı qorumağı bacardı. Rusiya ilə münasibətlərdə açıq qarşıdurmadan qaçaraq, onun təsirini diplomatik yolla məhdudlaşdırdı; sülhməramlıların mərhələli şəkildə çıxarılması buna nümunədir. Türkiyə ilə əməkdaşlıq isə hərbi müttəfiqlikdən diplomatik sinerjiyə keçdi. Eyni zamanda, Qərblə enerji və kommunikasiya layihələri üzərindən qarşılıqlı asılılıq yaradıldı ki, bu da balanslaşdırılmış təsir sisteminin təməlini qoydu.

Bakı Ermənistan üçün iqtisadi inteqrasiyanın, İran üçün sərhəd sabitliyinin, Gürcüstan üçün enerji tranzit təhlükəsizliyinin əsas təminatçısına çevrildi. Qlobal miqyasda Azərbaycan çoxqütblü sistemin tələblərinə uyğun davranaraq, nə bir blokun üzvü, nə də marjinal mövqedə olan ölkə kimi çıxış etdi. BRICS+ və Qlobal Cənub kimi formatlara açıq olmaqla yanaşı, Qərb strukturları ilə də əməkdaşlığını saxladı. COP29-un Bakıda keçirilməsi ölkənin beynəlxalq məsuliyyət daşıyan aktor kimi tanınmasına xidmət etdi.

Azərbaycan diplomatiyası postmüharibə dövründə iki paralel xətdə hərəkət etdi: birincisi, regionda dayanıqlı sülhün beynəlxalq təminatını formalaşdırmaq; ikincisi, daxili səviyyədə milli birliyin, qələbə yaddaşının diplomatik kapitala çevrilməsi. Birinci istiqamət – sülhün beynəlxalq təminatı – Azərbaycan diplomatiyasının rasional düşünülmüş strateji xəttidir. Bakı yaxşı bilirdi ki, hərbi zəfər yalnız beynəlxalq səviyyədə tanındığı və hüquqi çərçivəyə salındığı zaman siyasi nəticəyə çevrilir.

Azərbaycanın postmüharibə diplomatiyasının strateji məntiqi iki əsas şərt üzərində quruldu: Minsk qrupunun ləğvi və Ermənistan konstitusiyasında dəyişikliklərin edilməsi. Hər iki məsələ beynəlxalq hüququn və reallığın uzlaşdırılması üçün zəruri şərt idi. Minsk qrupunun faktiki fəaliyyətinin dayandırılması Azərbaycanın diplomatik səhnədə əldə etdiyi ən mühüm sistemli nailiyyətlərdən biridir. Qurum illərlə münaqişəni dondurmaq, status-kvonu legitimləşdirmək və "prosesin özünü məqsəd" kimi saxlamaq üçün alətə çevrilmişdi. Azərbaycan müharibədən sonra bu mexanizmin tarixi mənasını hüquqi və siyasi əsaslarla tam aradan qaldırdı. Əslində, Minsk qrupu 1992-ci ildə yaradılanda məqsəd münaqişənin sülh yolu ilə həllinə töhfə vermək idi. Amma zaman keçdikcə, bu format real vasitəçilik platformasından çox, geosiyasi maraqların toqquşma məkanına çevrildi. ABŞ, Rusiya və Fransanın həmsədrliyi ilə fəaliyyət göstərən bu qurum 30 il konkret nəticə əldə etmədi; əksinə, onun fəaliyyəti münaqişənin dondurulmasına, Ermənistanın işğal siyasətinin beynəlxalq səviyyədə "passiv legitimlik" qazanmasına xidmət etdi.

Azərbaycan üçün əsas dönüş nöqtəsi 2020-ci il müharibəsindən sonra baş verdi. Bakı diplomatik səviyyədə aydın şəkildə göstərdi ki, Minsk formatı artıq reallığa uyğun deyil, çünki onun predmeti – "Dağlıq Qarabağ münaqişəsi" – mövcud deyil. Prezident İlham Əliyevin "Minsk qrupu artıq tarixdə qalıb" bəyanatı bu siyasi reallığın hüquqi ifadəsi idi. Bundan sonra beynəlxalq təşkilatlar və aparıcı güclər artıq məsələyə "postmünaqişə dövrü" kontekstində yanaşmağa başladılar. Minsk qrupunun sıradan çıxması ilə Azərbaycan ilk dəfə Cənubi Qafqazda vasitəçisiz diplomatiya modelini həyata keçirdi. Bakı–İrəvan dialoqu birbaşa formatda baş tutmağa başladı, Brüssel və Vaşinqton görüşləri isə köhnə mexanizmin deyil, yeni regional reallığın nəticəsi idi. Beləliklə, Azərbaycan diplomatiyası uzun illər boyu beynəlxalq status-kvonu qoruyan vasitəçi institutları aradan qaldıraraq, öz sülh prosesini suveren diplomatik platformaya çevirdi.

Digər şərt – Ermənistan konstitusiyasında dəyişiklik – sülh müqaviləsinin real təminatı üçün hüquqi baza rolunu oynayır. Ermənistanın hazırkı konstitusiyasında "Dağlıq Qarabağ" ifadəsinin və ərazi iddialarının saxlanması, əslində, müharibənin bitməsinə baxmayaraq, revanşist hüquqi mühitin yaşamasına şərait yaradır. Azərbaycan diplomatiyası bu məsələni prinsipial şəkildə gündəmdə saxlayır: sülhün imzalanması hüquqi və ideoloji müstəvidə də təmin olunmalıdır. Azərbaycan diplomatiyası bu məsələyə sırf formal hüquqi məqam kimi deyil, siyasi sabitliyin fundamental təminatı kimi yanaşır. Çünki hər hansı beynəlxalq sülh sazişi yalnız tərəflərin hüquqi sənədlərində əksini tapan müddəalarla möhkəmlənəndə dayanıqlı olur. Əgər Ermənistan konstitusiyasında Azərbaycanın suverenliyinə qarşı iddialar qalırsa, bu, sabah həmin ölkədə hakimiyyət dəyişikliyi baş verdiyi zaman sülh sazişinin etibarsızlaşdırılması üçün ideoloji əsas kimi istifadə oluna bilər.

Diplomatik baxımdan, Bakı bu tələbi irəli sürərkən beynəlxalq hüququn suverenlik və ərazi bütövlüyü prinsiplərinə istinad edir. Bu yanaşma həm də BMT Nizamnaməsi və Helsinki Yekun Aktında təsbit olunan prinsiplərlə tam uzlaşır. Azərbaycan aydın şəkildə bildirir ki, Ermənistanın konstitusiyasındakı iddialar yalnız Bakıya qarşı deyil, həm də beynəlxalq hüquqa yönəlmiş ziddiyyətli normadır.

İkinci istiqamət isə milli birliyin diplomatik kapitala çevrilməsi – daxili həmrəyliyin beynəlxalq səviyyədə yumşaq gücə transformasiyası idi. Azərbaycan diplomatiyası Zəfəri milli özünüdərkin və dövlət legitimliyinin yenilənməsi kimi təqdim etdi. Müharibə dövründə yaranan milli həmrəylik, Prezident İlham Əliyevin rəhbərliyində dövlət və xalqın bir amal ətrafında birləşməsi postmüharibə mərhələsində diplomatik dildə güclü ideoloji arqumentə çevrildi. Azərbaycan bu ideoloji üstünlüyü beynəlxalq tribunalarda "ədalətli sülh", "reinteqrasiya" və "postmünaqişə inkişafı" anlayışları ilə birləşdirdi. Qarabağda aparılan bərpa işləri, köçkünlərin qayıdışı və yeni iqtisadi zonaların yaradılması ölkənin sülh gündəliyinin real ifadəsinə çevrildi. Nəticə etibarilə, bu iki paralel xətt – beynəlxalq təminat və milli konsolidasiya – Azərbaycanın postmüharibə diplomatiyasını formalaşdıran əsas sütunlara çevrildi.

Bu gün Azərbaycanın diplomatiyası "postzəfər dövləti" modelinin daşıyıcısıdır. Azərbaycanın yeni diplomatik identiteti həm də regionda barışın psixoloji əsasını yaradır. Bu gün Zəfər Günü həm də bir dövlət məktəbi, liderlik, diplomatiya və milli birliyin harmoniyasını öyrədən dərsdir. Azərbaycan sübut etdi ki, XXI əsrin beynəlxalq münasibətlər sistemində qalıcı qələbə siyasi ağlın məhsulu ola bilər. Zəfərin fəlsəfəsi bu anlayışı praktik reallığa çevirdi: ədalət bərpa olundu, amma diplomatiya qalib gəldi.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# 10 noyabr Bəyanatından 8 avqust Bəyannaməsinə gələn yol

**Zəfərə gedən yolun hər günü Azərbaycan xalqının inamla irəlilədiyi, torpaqlarını qarış-qarış yağı işğalından azad etdiyi günlər idi. 44 günlük İkinci Qarabağ müharibəsinin hər günü şanlı tariximizin qızıl səhifəsinə çevrildi. Ümumilikdə müasir tariximizin ən parlaq səhifələrindən biridir desək, səhv etmərik. Müharibənin ilk günündən son gününə qədər baş verən hadisələr daim diqqət mərkəzində olub və böyük həyəcanla izlənilib. Hər kəsin səbirsizliklə gözlədiyi Qələbə xəbəri noyabrın 9-dan 10-na keçən gecə gəldi. Bu, "məğlubedilməz ordu"suna güvənən düşmənin kapitulyasiyası idi. Beləliklə, 30 ilə yaxın davam edən işğala son qoyuldu. Prezident İlham Əliyev üçtərəfli Bəyanatı bütün xalqın gözü qarşısında imzaladı. Ermənistanın Baş naziri Nikol Paşinyan da həmin sənədə qol çəkdi, amma bunu pərdə arxasında, ictimaiyyətdən gizli etdi.**

Qeyd edək ki, 2020-ci il 10 noyabr tarixində Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı üçtərəfli Bəyanat 44 günlük Vətən müharibəsinin rəsmi olaraq başa çatdığını elan edən sənəddir. Bu razılaşma həmin dövrün reallıqlarına uyğun şəkildə Azərbaycanın milli maraqlarına cavab verirdi.

Üçtərəfli Bəyanatda Ağdam, Kəlbəcər və Laçın rayonlarının Azərbaycana qaytarılması, Laçın dəhlizinin eninin 5 kilometr olaraq müəyyən edilməsi, eləcə də hazırda geniş müzakirə olunan Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonları arasında maneəsiz nəqliyyat əlaqəsinin təmin edilməsi kimi mühüm müddəalar öz əksini tapdı. Sənədə əsasən, Rusiya sülhməramlılarının münaqişə bölgəsinə yerləşdirilməsi də o dövrdə Azərbaycan üçün zəruri idi. Əgər bu baş verməsəydi, ermənilər müxtəlif təxribatlara əl ataraq vəziyyəti "etnik təmizləmə" və ya "soyqırımı" kimi beynəlxalq ictimaiyyətə təqdim etməyə cəhd göstərə bilərdilər.

Bəyanatda "Rusiya sülhməramlı kontingentinin erməni silahlı qüvvələrinin çıxarılması ilə paralel şəkildə yerləşdirilməsi" ifadəsinin işlənməsi xüsusi əhəmiyyət daşıyırdı. "Erməni silahlı qüvvələri" ifadəsi yalnız Ermənistan ordusunu deyil, bölgədə fəaliyyət göstərən bütün qanunsuz silahlı birləşmələri əhatə edirdi. Bu, gələcəkdə rəsmi İrəvanın "söz oyunu"na yol verməmək üçün atılmış uzaqgörən addım idi. Lakin Ermənistan götürdüyü bu öhdəliyi yerinə yetirmədiyinə görə, 2023-cü il 19-20 sentyabrda Xankəndi və ətraf ərazilərdə lokal antiterror tədbirləri həyata keçirildi. Bu əməliyyatlar nəticəsində Azərbaycan həm ərazi bütövlüyünü, həm də suverenliyini tam bərpa etdi.

10 noyabr sənədinin yeni geosiyasi reallıq üçün aktuallığına gəlincə, bəzi ekspertlər bunun hazırkı məqamda əhəmiyyətli olmadığını düşünür. Baxmayaraq ki, Rusiya Xarici İşlər Nazirliyi noyabrın 7-də yaydığı informasiyada üçtərəfli Bəyanatın və 2021-ci ilin yanvarında Moskvada, 2021-ci ilin noyabrında və 2022-ci il oktyabrında Soçidə keçirilən görüşlərdə Azərbaycan və Ermənistan rəsmilərinin razılaşmalarının qüvvədə qalmasını və öz aktuallığını itirməməsini bildirib.

Aydın məsələdir ki, Rusiya Cənubi Qafqazda gedən proseslərdən kənarda qalmaq istəmir. Xüsusilə də Azərbaycan–Ermənistan münasibətlərinin normallaşması məsələsində. Bu, özünü iki ölkə arasında sərhədlərin delimitasiya və demarkasiyası, yekun sülh sazişinin imzalanması, eləcə də Zəngəzur dəhlizində (TRIPP) iştirakı ilə bağlı məsələlərdə daha qabarıq göstərir.




Bu il avqustun 8-də Vaşinqtonda ABŞ Prezidenti Donald Trampın iştirakı ilə paraflanan sülh müqaviləsi və Zəngəzur dəhlizinin açılması ilə bağlı bəyanat Birləşmiş Ştatların regionda rolunu daha da artırıb. Hər şeydən göründüyü kimi, Moskva bundan bir qədər narahatlıq keçirir. Düzdür, Rusiya XİN Vaşinqtonda Azərbaycan və Ermənistan xarici işlər nazirləri tərəfindən sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsinin paraflanmasını müsbət qiymətləndirib. Amma, eyni zamanda, Moskvanın iştirak etdiyi həmin görüşlərin və 10 noyabr Bəyanatının sülh prosesi üçün "yol xəritəsi" olduğunu bəyan edib. Yəni Moskva bütün dünyanın qəbul etdiyi kimi, Azərbaycan və Ermənistan arasında sülh prosesinin yalnız ABŞ-ın təşəbbüsü və vasitəçiliyi nəticəsində baş verməsi faktı ilə razılaşmaq istəmir.

Rəsmi Kremlin mövqeyinə görə, 10 noyabr 2020-ci il tarixli Bəyanat və ondan irəli gələn mexanizmlər bu gün də hüquqi və siyasi baxımdan öz qüvvəsini saxlayır və regionda dayanıqlı sülhün əsas bünövrəsini təşkil etməlidir. Təhlillər göstərir ki, bu, əslində Rusiyanın Cənubi Qafqazda təsir imkanlarını qorumaq niyyətindən irəli gəlir. Çünki Rusiya üçün bu bölgə həm geosiyasi, həm də iqtisadi baxımdan strateji əhəmiyyət kəsb edir. Moskva istəmir ki, Qərb, xüsusilə də ABŞ sülh prosesində əsas oyunçuya çevrilsin. Buna görə də Rusiya rəsmiləri 10 noyabr Bəyanatını və həmin sənəddə nəzərdə tutulan mexanizmləri regionda sülhün yeganə "yol xəritəsi" kimi təqdim etməyə çalışır.

Əlbəttə, Azərbaycan qonşu ölkələrlə qarşılıqlı əməkdaşlığa, regionda sülh və sabitliyin möhkəmləndirilməsinə hər zaman xüsusi önəm verir. Bununla belə, hazırda bölgədə formalaşan yeni reallıqlar fonunda açıq şəkildə görünür ki, Ermənistan ərazisindən keçəcək "Tramp yolu" artıq ABŞ-ın nəzarəti altında fəaliyyət göstərəcək. Bəyanatda qeyd olunduğu kimi, bu marşrut boyunca Rusiya təhlükəsizlik qüvvələrinin yerləşdirilməsi artıq mümkün hesab edilmir. Bu da öz növbəsində faktiki olaraq, Moskvanın regiondakı əvvəlki dominant mövqeyinin məhdudlaşdığına dəlalət edir. Ona görə də Kremlin iddiasının əksinə olaraq, 2020-ci il 10 noyabr Bəyanatı bu gün əvvəlki qədər aktuallığını saxlamır. Həmin sənəd o dövrün reallıqlarına cavab verirdi.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Elxan ŞAHİNOĞLU,**
**Atlas Araşdırmalar**
**Mərkəzinin rəhbəri**

Müxtəlif dövlətlərin liderləri İkinci Qarabağ müharibəsinin bitməsinin 5-ci ildönümü ilə əlaqədar Prezident İlham Əliyevə təbriklər ünvanlayırlar. Rusiya Xarici İşlər Nazirliyinin yaydığı bəyanatda isə 10 noyabr 2020-ci ildə Ermənistan, Rusiya və Azərbaycan liderləri arasında əldə edilən üçtərəfli razılaşmaların öz aktuallığını qoruyub saxladığı iddia edilir. Aydındır ki, Kreml Azərbaycanın ərazi bütövlüyünü təmin etməsi münasibətilə bizi təbrik etmək istəmir, ancaq 5 il əvvəlki razılaşmanın xatırladılmasının da mənası yoxdur. Rusiya özü həmin razılaşmaya doğru-dürüst riayət etməmişdi. Razılaşmaya zidd olaraq Ermənistan öz silahlı qüvvələrini Azərbaycan ərazisindən çıxarmadı, rusiyalı hərbçilərin bilavasitə iştirakı ilə separatçılara silah və sursat, mina daşındı. Bu vəziyyətdə Azərbaycan müharibədən 3 il sonra antiterror əməliyyatı keçirməyə məcbur qaldı.

Kremlin iddiasının əksinə olaraq, 10 noyabr 2020-ci il Bəyanatı artıq aktuallığını itirib. Razılaşmanı imzalayan üç ölkədən ikisinin lideri üçün bu razılaşma aktual deyil. Hazırda aktuallıq kəsb edən 8 avqust Vaşinqton razılaşmasıdır. Azərbaycan və Ermənistan Ağ Evdə sülh layihəsini parafladılar, "Tramp yolu" ilə bağlı razılığa gəldilər. Bakı və İrəvan bu razılaşmaların yerinə yetirilməsi üzərində işləyirlər. Rusiya Cənubi Qafqaz dövlətlərinin daxili işlərinə qarışmamalı, bölgə dövlətləri arasında əməkdaşlığa mane olmamalı, bu kimi cəhdləri sülhə töhfə kimi qiymətləndirməyə çalışmamalıdır.

# Milli iradənin, bəşəri ədalətin və siyasi müdrikliyin təntənəsi

**Müasir Azərbaycan dövlətçiliyinin ən şərəfli səhifələrindən olan 8 Noyabr – Zəfər Günü hərbi-siyasi qələbəmizin rəmzi olmaqla yanaşı, həm də beynəlxalq hüququn, tarixi ədalətin bərpası günü kimi hər bir azərbaycanlıda milli qürur hissi doğurur. Bu günün mənəvi, siyasi və hüquqi əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan xalqı və dövləti beynəlxalq hüquq normalarına əsaslanaraq, ərazi bütövlüyünü bərpa etmiş, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsində təsbit olunmuş suverenlik prinsipini 2023-cü ilin sentyabrında tam təmin etmişdir.**



2020-ci ilin 27 sentyabr – 10 noyabr tarixləri arasında davam edən 44 günlük İkinci Qarabağ müharibəsi nəticəsində əldə edilən qələbə dövlətin milli təhlükəsizliyinin təminatı, regionda sülh və ədalətin bərqərar olması baxımından strateji əhəmiyyətə malikdir. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hərbi-siyasi strategiya müstəqillik tarixində dönüş nöqtəsi olmuşdur. Bu strategiya beynəlxalq hüququn əsas prinsiplərinə – dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına söykənərək, Azərbaycana dünyada ədalətin və beynəlxalq hüququn bərpasını təmin edən ölkə statusu qazandırmışdır.

30 ilə yaxın işğal altında saxlanılan torpaqlarımızın azad olunması, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamənin – 822, 853, 874 və 884 nömrəli sənədlərin icrasının Müzəffər Azərbaycan Ordusunun gücü hesabına təmin edilməsi beynəlxalq hüququn tətbiqinin effektiv mexanizmi olmuşdur. Bu şanlı hadisə dövlətin ərazi bütövlüyünü bərpa etmək hüququnun legitimliyini bir daha təsdiqləmişdir. Ölkəmiz beynəlxalq hüququn əsas prinsiplərindən kənara çıxmadan, BMT Nizamnaməsinin 51-ci maddəsinə – özünümüdafiə hüququna əsaslanaraq uğurlu hərbi əməliyyatlar həyata keçirmiş, Ermənistanın tam kapitulyasiyasına nail olmuşdur. Bu baxımdan, 8 Noyabr tarixi həm də beynəlxalq hüququn praktiki təsdiqi kimi dəyərləndirilməlidir.

2020-ci ilin sentyabr-noyabr aylarında işğal faktını aradan qaldıran, 2023-cü il 19-20 sentyabr tarixində isə cəmi 23 saat davam edən lokal antiterror tədbirləri ilə ərazimizdəki separatçı rejimin mövcudluğuna son qoyan, dövlət suverenliyini bərpa edən Azərbaycan bu möhtəşəm qələbələri ilə sonsuz qürur hissi keçirir. Hər iki tarixin xüsusi əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan bu tarixlərdə keçirilən hərbi əməliyyatların nəticəsi olaraq düşməni məhz döyüş meydanında məğlubiyyətə uğratmış, ərazi bütövlüyünü, beynəlxalq hüququ və ədaləti güc yolu ilə təmin etmişdir.

Xüsusi vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin 2003-cü ildən münaqişənin həlli istiqamətində yürütdüyü siyasətin əsas mahiyyəti Ermənistanın mövqeyinin beynəlxalq hüquq baxımından əsassızlığını sübuta yetirmək, təcavüzkar ölkəni Cənubi Qafqazdakı dinamik inkişaf prosesindən, qlobal enerji-kommunikasiya layihələrindən təcrid etmək, ən nəhayət, Azərbaycanın iqtisadi-hərbi qüdrətinin artırmaqla qarşı tərəfin mövqeyinə təsir göstərməkdən ibarət olmuşdur.

Prezident İlham Əliyev ötən illərdəki çıxışlarında hər zaman bildirirdi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində beynəlxalq hüquq və normaları, ədalət meyarı Azərbaycanın tərəfindədir və bunu dünya ictimaiyyəti də birmənalı təsdiq edir. Dövlət başçısı onu da bəyan etmişdir ki, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllini mümkün sayır. Cənab İlham Əliyev ölkəmizin ərazi itkisi ilə barışmayacağını hər zaman qətiyyətlə bildirmiş və münaqişənin həllində məhz beynəlxalq hüquq normalarına istinad etmişdir: **"Bir daha bəyan edirəm, nə 5 ildən sonra, nə 10 ildən sonra, nə 15 ildən sonra, nə də 100 ildən sonra Dağlıq Qarabağ Azərbaycandan ayrılmayacaqdır. Mən nə qədər Prezidentəm, buna yol verməyəcəyəm".**

Ötən illərdə Azərbaycanın danışıqlar prosesindəki mövqelərini gücləndirən ciddi amillərdən biri də respublikamızın iqtisadi cəhətdən qüdrətlənməsi, bir sıra qlobal enerji və kommunikasiya layihələrini uğurla başa çatdırması ilə əlaqədardır. Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, TAP, TANAP layihələrinini reallaşması, eyni zamanda, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi Azərbaycanın dünya siyasətindəki, habelə Avropanın enerji təhlükəsizliyindəki rolunu gücləndirmiş, beynəlxalq mövqelərini möhkəmləndirmişdir. Cənubi Qafqaz regionunda həyata keçirilən bu qlobal layihələrdən tamamilə kənarda qalan Ermənistan isə Avropa və Qərb üçün əhəmiyyətini itirmişdir. Təcavüzkarlıq siyasətindən əl çəkməyən Ermənistan, əslində, özü-özünü Cənubi Qafqazda gerçəkləşən bütün strateji layihələrdən kənarda saxlamışdır.

Cənab İlham Əliyevin prezidentliyi dövründə Azərbaycanın münaqişənin həlli ilə bağlı mövqeyi danışıqların ilk günlərindən sonadək dəyişməz olaraq qalmışdır: Dövlət başçısı bəyan etmişdir ki, münaqişənin həllinin hüquqi və siyasi əsasları BMT Nizamnaməsi, habelə təşkilatın Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri, ATƏT-in Helsinki Yekun Aktı, BMT Baş Məclisinin 2008-ci ildə qəbul etdiyi A/RES/62/243 saylı qətnaməsi, habelə ATƏT və Avropa Şurasının müvafiq sənədləri və qərarlarında əks olunan beynəlxalq hüququn norma və prinsiplərinə söykənir. Bütün bu sənədlər Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığını təsdiqləmişdir.

2020-ci ilədək rəsmi Bakının danışıqlar prosesində iştirakını şərtləndirən mühüm amillərdən biri də respublikamızın haqlı mövqeyini beynəlxalq miqyasda, əsasən də mötəbər təşkilatlar çərçivəsində sübuta yetirmək üçün vaxt imkanı əldə etmək istəməsi olmuşdur. ATƏT-in artıq tarixin arxivinə gömülmüş Minsk qrupu çərçivəsində aparılan danışıqlar prosesi son nəticədən asılı olmayaraq, Azərbaycana təcavüzkar dövləti ifşa etmək, onun işğalçı siyasəti barədə beynəlxalq miqyasda obyektiv rəy formalaşdırmaq baxımından mühüm əhəmiyyət daşımışdır. Rəsmi Bakının danışıqlar prosesində sonadək təmkinlə iştirakı ona həm də hərb yolunun seçilməsi üçün əsaslı arqumentlər vermişdir. Yəni danışıqlar prosesi rəsmi Bakıya hərb yolunun qaçılmazlığını zamanla beynəlxalq ictimaiyyətə əsaslandırmaq imkanı qazandırmışdır.

Ötən illərdə problemin həllinə səy göstərən nüfuzlu beynəlxalq təşkilatlar, dünyanın fövqəldövlətləri birmənalı anlamışlar ki, Azərbaycanı onun milli maraqlarına zidd hər hansı güzəştə məcbur etmək əsla mümkün deyildir. Problemin sülh yolu ilə həllini tapmayacağı təqdirdə, Prezident İlham Əliyevin xalqın iradəsinə söykənərək digər vasitələrin köməyi ilə Azərbaycanın ərazi bütövlüyünü təmin edəcəyinə cəmiyyətdə ciddi inam olmuşdur. Əldə edilən sosial-iqtisadi nailiyyətlər ölkəmizin müdafiə potensialını daha da artırmış, ulu öndər Heydər Əliyevin qurduğu milli ordu daha da qüdrətlənmişdir. Dövlət başçısının bu qətiyyəti, təbii ki, xalqın iradəsindən, əldə edilmiş sosial-iqtisadi nailiyyətlərin dövlətimiz üçün yaratdığı imkanlardan, Azərbaycanın beynəlxalq aləmdə ildən-ilə daha da güclənməkdə olan mövqeyindən, ən əsası isə cəmiyyətimizdəki mütəşəkkillikdən irəli gəlmişdir.

Ermənistanın uzun illər münaqişəni "baş vermiş fakt" əsasında "həll etməyə" çalışması beynəlxalq humanitar hüququn norma və prinsipləri üçün ciddi təhlükələr doğurmuşdur. 30 ilə yaxın müddətdə Azərbaycanın BMT, ATƏT, Avropa Şurası, Avropa Birliyi ümumilikdə, dünya dövlətlərinin mütləq əksəriyyəti tərəfindən birmənalı tanınan ərazi bütövlüyünün və suverenliyinin bərpası istiqamətində həlledici addımların atılmaması xalqımızın haqlı hiddətinə və narazılığına səbəb olmuşdur.

Ermənistanın ötən əsrin 80-ci illərindən Azərbaycanın tarixi ərazilərinə qarşı yeni vüsət alan iddiaları – separatçılıq hərəkətləri beynəlxalq hüquq və normalarına, o cümlədən BMT-nin, ATƏT-in, Avropa Şurasının nizamnamələrinə, Helsinki Bəyannaməsinə daban-dabana zidd olmuşdur. Həmin prinsiplər heç bir dövlət tərəfindən və heç bir xüsusi akt əsasında ləvğ edilə bilməz. Beynəlxalq hüququn ən əsas və münaqişəyə tətbiq edilə biləcək prinsiplərindən biri dövlətlərin dinc–yanaşı yaşaması prinsipidir. Bu norma istisnasız olaraq iki qonşu dövlətin hər hansı mübahisəli məsələni dinc vasitələrlə, zora əl atmadan həllini "Dövlətlər arasındakı mübahisələri həll etmək üçün bir vasitə olmaq etibarilə müharibə yolundan qarşılıqlı surətdə imtina etməyi, beynəlxalq mübahisələrin yalnız dinc yolla həll edilməsini, dövlətlər arasında hüquq bərabərliyinə, suverenliyə, ərazi bütövlüyünə ciddi hörmət edilməsini, tam bərabərlik və qarşılıqlı fayda əsasında əməkdaşlığın inkişafını nəzərdə tutur".

Beynəlxalq hüququn əsas normalarından biri də təcavüzkarlığın qadağan edilməsi, zor işlətməmək və ya zor işlətməklə hədələməmək prinsipidir. 1993-cü il London konfransında verilən izaha əsasən, "Münaqişədə səbəbindən asılı olmayaraq, digər dövlətə qarşı birinci olaraq silahlı qüvvədən istifadə etmiş tərəf təcavüzkar hesab edilir". Beynəlxalq hüququn digər normaları, eləcə də dövlətlərin ərazi bütövlüyü və toxunulmazlığı prinsipi də Ermənistan tərəfindən kobudcasına pozulmuşdur. Bu prinsipin məzmunu "beynəlxalq münasibətlərdə iştirak edən dövlətlərin hər birinin ərazi bütövlüyünə qarşılıqlı olaraq hörmət etməsini, buna uyğun olaraq, onların hər hansı iştirakçı dövlətin ərazi bütövlüyünə, siyasi istiqlaliyyətinə və ya birliyinə qarşı heç bir hərəkət etməməsini nəzərdə tutur". Ərazi bütövlüyü pozulan və təcavüzə məruz qalan dövlətin isə təcavüzkarlıq əməlindən fərdi və ya kollektiv özünümüdafiə hüququ vardır.

Xatırlatmaq lazımdır ki, 2018-ci ildə Ermənistanda hakimiyyət dəyişikliyindən sonra bu ölkədə iqtidara gələn qüvvələr ilk dövrdə münaqişənin sülh yolu ilə tənzimlənməsində guya maraqlı olduqlarını bəyan edərək, bu istiqamətdə müvafiq addımların atılması üçün Azərbaycandan onlara zaman tanınmasını istəmişlər. Tacikistanın paytaxtı Düşənbədə 2018-ci ilin sentyabrın 28-də MDB Dövlət Başçıları Şurasının iclasında iştirak edən Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan Prezidenti İlham Əliyevdən Ermənistanda bəzi dəyişikliklər etmək, parlament seçkilərinə hazırlaşmaq və sair işlər üçün ona müəyyən vaxt verilməsini xahiş etmişdir. Ölkəmizin bu güzəştinə baxmayaraq, Ermənistan nəinki zəbt edilmiş ərazilərin dinc yolla qaytarılmasına razılıq vermiş, əksinə, bu ölkənin hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar, atdığı addımlarla danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmağa yönəlmişdir. Bununla da Ermənistanda hakimiyyətə gələn qüvvələr əsl məqsədlərinin münaqişə ilə bağlı "status-kvo"nu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişlər.

Bu dövrdə Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətinin genişləndirilməsi, Azərbaycan torpaqlarının ələ keçirilməsi prosesinin davam etdirilməsi üçün yeni iddiaların irəli sürülməsi, işğal altındakı ərazilərimizdə qondarma seçkilərin keçirilməsi və qondarma "prezident"in andiçmə mərasimini mədəniyyət beşiyimiz olan Şuşada təşkil edilməsi hadisələrin daha gərgin məcrada inkişafını şərtləndirmişdir.

Bunlara paralel olaraq, Ermənistanın baş naziri Nikol Paşinyan Azərbaycan ərazilərində yaradılmış separatçı rejimi danışıqlar masasına oturtmaq niyyətilə sülh danışıqlarının formatını dəyişdirməyə cəhd etmiş, 2019-cu ilin avqust ayında isə işğal olunmuş Qarabağ ərazisinə səfəri çərçivəsində "Qarabağ - Ermənistandır, nöqtə" tipli populist bəyanat səsləndirməklə sülhə olan bütün ümidlərin üzərindən xətt çəkmişdir. Ermənistanın sülh razılaşması üçün siyasi-diplomatik müstəvini tamamilə bağlayan mövqeyi 2020-ci ilin iyul ayında özünü qabarıq büruzə vermiş, bu ölkənin silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimizi ələ keçirmək məqsədilə atəşkəs rejimini kobud şəkildə pozmuş, ağır hərbi təxribat törətmişlər.

Tovuz döyüşlərindən sonra münaqişənin danışıqlar yolu ilə həlli daha mümkünsüz hala gəlmiş, Azərbaycan xalqı bu vəziyyətlə barışmaq niyyətində olmadığını açıq şəkildə nümayiş etdirmişdir. 2020-ci il iyulun 14-də Bakıda Silahlı Qüvvələrə və Ali Baş Komandana çoxminlik dəstək yürüşü bunun real təzahürü olmuş, həmin vaxt Prezident İlham Əliyevin çağırışına səs verən on minlərlə gənc Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin qeydiyyatda olduqları şöbələrinə müraciət edərək könüllü olaraq döyüşlərdə iştirak etmək arzularını bildirmişlər.

2020-ci il sentyabrın 27-də Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin saat səhər 06:00 radələrindən etibarən genişmiqyaslı təxribatlar törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması barədə məlumat yaymışdır. Bu, artıq Vətən müharibəsinin başlanması olmuş, Ordumuz ilk gündən sonadək düşməni döyüş meydanında məğlub etmiş, əsas hədəfinə nail olmuşdur.

İkinci Qarabağ müharibəsindəki tarixi Zəfərin əldə olunmasında hüquqi-siyasi mexanizmlərin düzgün tətbiqi ilə yanaşı, milli birliyin, dövlət idarəçiliyinin effektivliyinin və ordunun peşəkarlığının rolu həlledici olmuşdur. Zəfər Günü məhz bu dövlət iradəsinin, liderlik məsuliyyətinin və milli həmrəyliyin nəticəsi olaraq formalaşmışdır.

Son beş ildə qazandığımız parlaq hərbi-siyasi qələbələr təkcə Azərbaycanın deyil, bütün regionun geosiyasi arxitekturasını dəyişdirmişdir. Cənubi Qafqazda yeni reallıqlar yaranmış, Azərbaycanın iştirakı ilə regionda sülh, əməkdaşlıq və qarşılıqlı asılılıq mexanizmləri formalaşmağa başlamışdır. Xüsusi vurğulamaq lazımdır ki, tarixin Zəfərin 5-ci ildönümü ərəfəsində - 2025-ci il avqustun 8-də ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Azərbaycan, ABŞ və Ermənistan liderlərinin imzaladığı Birgə Bəyannamə beynəlxalq ictimaiyyət tərəfindən Cənubi Qafqazda münaqişə səhifəsinin qapadılması, dayanıqlı sülhün reallığa çevrilməsi istiqamətində atılmış qətiyyətli addım kimi qiymətləndirilir. Bu sənəd təkcə iki ölkə arasında uzun illər davam edən gərginliyə son qoyulması deyil, həm də Ermənistanda ictimai düşüncəni zəhərləyən köhnə ideoloji qəliblərin, revanşist mövqelərin tam iflası deməkdir.

Postmüharibə dövründə Ermənistanda Azərbaycanla sülhün əldə edilməsi mövzusuna münasibət birmənalı olmamışdır. Bununla belə, Qarabağdakı separatçı rejimin süqutu və Azərbaycanın suverenliyinin tam təmin edilməsi, sonrakı mərhələdə əldə olunmuş ikitərəfli razılaşmalar, nəhayət, avqustun 8-də Vaşinqtonda imzalanmış rəsmi sənədlər Ermənistan cəmiyyətində sülh ovqatını əhəmiyyətli dərəcədə gücləndirərək radikal-revanşist qüvvələrin mövqeyinə öldürücü zərbə olmuşdur. Ermənistan cəmiyyəti məğlubiyyətlə barışaraq, sülh istiqamətində atılan addımları müsbət qarşılayır, uzunmüddətli qarşıdurmanın ölkə üçün iqtisadi gerilik, siyasi təcrid və regional əlaqələrdən kənarda qalmaq kimi nəticələr verdiyini etiraf edir. Bu xüsusda qonşu ölkələrin ərazisinə əsassız iddiaların erməni xalqına yaxşı heç nə vəd etmədiyi, Ermənistanın təhlükəsizliyinin Azərbaycan və Türkiyə ilə münasibətlərin normallaşdırılmasından keçdiyi də etiraf olunur.

Postmünaqişə dövründə Zəfər Günü həm də Azərbaycan dövlətinin bərpa və reinteqrasiya siyasətinin ideoloji dayağına çevrilmişdir. Azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa, yenidənqurma və məskunlaşma proqramları dövlətin sosial siyasətinin konkret nümunələridir. Bu siyasət beynəlxalq hüququn "münaqişədən sonrakı ədalətli sülh" prinsipi ilə uyğunlaşdırılmışdır. Azərbaycan dövləti azad edilmiş ərazilərdə konstitusion quruluşun bərpasına nail olmuş, dövlət idarəçilik sistemini və vətəndaş hüquqları təmin etmişdir.

Zəfərin 5-ci ildönümünün ölkəmizdə yüksək səviyyədə qeyd olunması, bu münasibətlə Bakıda keçirilən Hərbi parad beynəlxalq miqyasda Azərbaycanın artan nüfuzunun göstəricisidir. Qələbə nəticəsində ölkəmizin regional və qlobal səviyyədə rolunun artması, enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri və beynəlxalq diplomatik təşəbbüslərdə lider mövqelərə yüksəlməsi xarici siyasət doktrinamıza yeni məzmun gətirmişdir. Beləliklə, 8 noyabr təkcə hərbi-siyasi Zəfərin ildönümü deyil, həm də dövlətimizin beynəlxalq sistemdə öz yerini möhkəmləndirdiyi, hüquqi subyektliyini tam şəkildə təsdiq etdiyi şanlı tarixdir.

Zəfərin beşilliyi ərəfəsində Azərbaycan artıq tamamilə yeni bir mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə dövlətin qarşısında duran əsas vəzifə regionda dayanıqlı sülhün təmin olunması, Ermənistanla münasibətlərin beynəlxalq hüquq prinsipləri çərçivəsində normallaşdırılması və sülh müqaviləsinin imzalanmasıdır. Azərbaycanın son beş ildə diktə etdiyi sülh gündəliyi beynəlxalq hüququn müvafiq normalarına əsaslanır. Dövlətimiz bu istiqamətdə konstruktiv dialoq, qarşılıqlı etimad və iqtisadi əməkdaşlıq prinsiplərini irəli sürərək, regional sabitliyin hüquqi əsaslarını möhkəmləndirir.

**Bütün bunların fonunda deyə bilərik ki, 8 Noyabr – Zəfər Günü Azərbaycanın dövlətçilik tarixində hər zaman milli iradənin, tarixi, hüquqi ədalətin və siyasi müdrikliyin təntənəsi kimi qalacaqdır.**

***Məhəmməd İMANLI,***
***Azərbaycan Dövlət Dənizçilik Akademiyası hüquq kafedrasının müəllimi, professor***

# Üç dövlət, üç qardaş – tək ürək

**(əvvəli 1-ci səhifədə)**



8 Noyabr paradını yeni reallığın möhtəşəm vizual simfoniyası da adlandırmaq olar. Azadlıq meydanının tribunaları, Azərbaycan xalqının qələbə sevincini bölüşən on minlərlə vətəndaşla dolu ikən, fəxri kürsüdəki mənzərə bütün dünyanın diqqətini özünə çəkirdi. Bu, İkinci Qarabağ müharibəsinin ilk günlərindən son anına qədər Azərbaycanın haqq işinə, ədalətli savaşına tərəddüdsüz siyasi və mənəvi dəstək verən iki qardaş ölkənin Zəfərin sevincini də şərik paylaşmasının təbii, səmimi təzahürü idi.

Parad həm də Azərbaycan Ordusunun son illərdə keçdiyi möhtəşəm modernləşmə yolunu əyani nümayiş etdirdi. Vətən müharibəsinin qəhrəmanları olan xüsusi təyinatlıların polad intizamla meydandan keçidi ən müasir döyüş taktikasını mənimsəmiş peşəkar bir ordunun yetişdiyini göstərirdi. Bunun ardınca nümayiş etdirilən hərbi texnika isə bu ordunun zərbə gücünün miqyasını ortaya qoydu. Lakin paradın simvolik gücünü ən yüksək zirvəyə qaldıran məqam Azadlıq meydanında addımlayan əsgərlər oldu. Prezident İlham Əliyevin çıxışında bu tarixi anı xüsusi vurğulaması təsadüfi deyildi: "Bu gün ilk dəfə olaraq Azadlıq meydanında Pakistan hərbçiləri də bizimlə bərabər iştirak edirlər. Bu, üç ölkənin – Azərbaycan, Türkiyə və Pakistan xalqlarının, ordularının birliyinin təzahürüdür".

Bu bəyanat üç ordunun daim çiyin-çiyinə dayandığını, ittifaqın təkcə kağız üzərindəki sənədlərdən ibarət olmadığını, döyüş ruhu və qardaşlıq andı ilə möhkəmləndiyini bütün dünyaya bəyan etdi.

Liderlərin çıxışları hərbi qüdrət nümayişinin siyasi və ideoloji çərçivəsini müəyyən etdi. Prezident İlham Əliyev ittifaqın təməl daşını qoyan tarixi anları bir daha xatırlatdı: "Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq, Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi. Onun bizə verdiyi siyasi və mənəvi dəstək bizə güc verirdi, bizi ruhlandırırdı".

Prezident Rəcəb Tayyib Ərdoğan isə çıxışında qardaşlığın dərinliyini və səmimiliyini ifadə edərək "Sizləri ən səmimi duyğularımla, sayğı və sevgi ilə salamlayıram. Zəfər Günümüzün 5-ci ildönümündə sizlərlə bərabər olmaqdan böyük bəxtiyarlıq duyuram. İlham Əliyev qardaşıma dəvəti üçün minnətdarlığımı çatdırıram. Sizlərə Türkiyədəki qardaşlarınızın salamlarını gətirdim. Sizlərə 86 milyonun ən səmimi məhəbbətlərini gətirdim" sözləri ilə iki xalq arasındakı qırılmaz mənəvi bağları bir daha təsdiqlədi.

Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif isə bu qələbənin tarixi ədalət üçün daşıdığı əhəmiyyəti və Pakistanın prinsipial mövqeyini bir daha bəyan etdi: "Torpaqlarının azadlığı uğrunda bütün mübarizə dövründə Pakistan qardaş Azərbaycanın yanında bir qaya kimi dayandı, bundan sonra da belə olacaq. Azərbaycanın Qarabağdakı Qələbəsi suverenlik və öz müqəddəratı uğrunda vuruşan bütün xalqlar üçün ədalətin möhtəşəm təntənəsi, ümid yeri oldu". Bu çıxışlar beynəlxalq aləmə ünvanlanmış, üç ölkənin xarici siyasət prioritetlərini və qırmızı xətlərini müəyyən edən strateji bəyanatlar idi.

Azərbaycanın paytaxtında yaşanan bu təntənəli mənzərə Azərbaycan–Türkiyə–Pakistan dostluğunun, sadəcə, ritorik və ya emosional bir bağ olmadığını, onun dərin tarixi, dini və ən əsası, strateji köklərdən rişələndiyini bir daha sübut etdi. Türkiyə və Azərbaycan arasındakı qardaşlıq ortaq etnik, dil və mədəni irs üzərində qurulubsa, Pakistanın bu birliyə qoşulması, ortaq dini kimliyin və daha vacibi, kəsişən strateji maraqların nəticəsidir. Qarabağ məsələsində Türkiyə və Pakistanın Azərbaycana, Kəşmir məsələsində Azərbaycan və Türkiyənin Pakistana, Şimali Kipr məsələsində isə Azərbaycan və Pakistanın Türkiyəyə verdiyi tərəddüdsüz dəstək beynəlxalq münasibətlər sistemində nadir rast gəlinən və "Üç qardaş modeli" adlandırılan yeni ittifaqın formalaşdığını göstərir.

Zəfər Günü keçirilən parad qardaşlığın hərbi-strateji əməkdaşlıq müstəvisinə keçidinin də dönməzliyini nümayiş etdirdi. Bu, faktiki hərbi ittifaq xarakteri daşıyan dərin tərəfdaşlıqdır. Son illərdə müntəzəm olaraq keçirilən "Üç qardaş" birgə hərbi təlimləri üç ölkənin xüsusi təyinatlı qüvvələrinin bir-birinin döyüş taktikalarını öyrənməsi, silah sistemlərini sinxronlaşdırması və real döyüş şəraitində vahid komandanlıq altında fəaliyyət göstərmək üçün qarşılıqlı fəaliyyət qabiliyyətini təkmilləşdirməsi məqsədi daşıyır. Bu, hərbi ittifaqların ən mühüm xüsusiyyətidir.

Onu da qeyd etməliyik ki, Bakıdakı Hərbi parad ilə bundan əvvəl Laçında keçirilən üçtərəfli görüş arasında birbaşa və qırılmaz məntiqi-ideoloji bağlılıq mövcuddur. Əgər Laçın görüşü bu ittifaqın "strateji beyni" idisə, Bakı paradı onun "polad əzələsi" oldu. Laçında liderlər postmünaqişə dövrünün gündəliyini, regionda davamlı sülhün təmin edilməsini, Zəngəzur dəhlizi başda olmaqla bütün nəqliyyat kommunikasiyalarının açılmasını, enerji təhlükəsizliyi sahəsində əməkdaşlığı və terrorizmə qarşı birgə mübarizəni müzakirə etmişdilər. Bu, ittifaqın quruculuq, sülh və rifah hədəflərini müəyyən edən "yol xəritəsi" idi. Bakı paradı isə bütün dünyaya bəyan etdi ki, qardaş ölkələrin Laçında müəyyən etdikləri sülh quruculuğu gündəliyini istənilən xarici müdaxilədən və təhdiddən qorumaq üçün lazımi hərbi gücə, siyasi iradəyə malikdir.

8 Noyabr – Zəfər Günündə keçirilən Hərbi parad Azərbaycanın Vətən müharibəsində qazandığı qələbənin ildönümünü qeyd etməkdən daha geniş bir missiyanı yerinə yetirdi. O, Azərbaycan–Türkiyə–Pakistan ittifaqının – üç dövlətin, üç qardaşın, amma tək ürəyin Avrasiyanın geosiyasi reallıqlarına birbaşa təsir edən və heç bir kənar qüvvənin iradəsinə tabe olmayan sarsılmaz güc mərkəzi olduğunu bütün dünyaya bəyan etdi.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

*Konstitusiya və Suverenlik İli*

# Müasir dövlətçiliyimizin hüquqi təməli

**Azərbaycan Respublikasında Konstitusiya Günü təkcə hüquqi bayram deyil, həm də müstəqil dövlətçiliyimizin ən mühüm siyasi hadisələrindən biridir. 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi – referendum yolu ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası ölkəmizin demokratik inkişafına, insan hüquq və azadlıqlarının qorunmasına, sabit və səmərəli dövlət idarəçiliyinin formalaşmasına möhkəm hüquqi zəmin yaratmışdır.**




### Müstəqil Azərbaycanın ilk Konstitusiyası

Azərbaycan tarixi boyu müxtəlif konstitusiya mərhələləri yaşamışdır. 1918-ci ildə yaradılmış Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk demokratik respublika kimi fəaliyyət göstərsə də, onun Konstitusiyasını qəbul etməyə imkan olmamışdı. SSRİ dövründə isə Azərbaycan Sovet Sosialist Respublikasının 3 konstitusiyası (1921, 1937 və 1978-ci illər) qüvvədə olmuşdur. Lakin bu sənədlər müstəqil dövlət iradəsini deyil, mərkəzləşdirilmiş sovet sisteminin ideoloji prinsiplərini əks etdirirdi.

Buna baxmayaraq, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi birinci dönəm – 1969-1982-ci illər Azərbaycan tarixində iqtisadi, mədəni və siyasi yüksəliş dövrü kimi yadda qalmışdır. Bu sırada Heydər Əliyev hələ sovet hakimiyyəti illərində, məhdud səlahiyyətlər və ideoloji çərçivələr daxilində olsa da, Azərbaycan xalqının hüquqlarını, dilini, mədəniyyətini və iqtisadi inkişafını hüquqi müstəviyə gətirməyə nail olmuşdu. 1977-ci ildə SSRİ-nin yeni Konstitusiyası qəbul olunduqdan sonra bütün müttəfiq respublikalar kimi, Azərbaycan SSR də öz yeni konstitusiyasını hazırlamalı idi. Bu işə rəhbərlik edən Heydər Əliyev 1978-ci ildə qəbul olunmuş bu ali sənədin təkcə sovet ideologiyasına deyil, həm də Azərbaycan xalqının milli mənafelərinə uyğun olmasına xüsusi diqqət göstərmişdir.

Heydər Əliyevin ən mühüm təşəbbüslərindən biri Azərbaycan dilinin dövlət dili kimi Konstitusiyada təsbit edilməsi olmuşdur. O dövrdə SSRİ rəhbərliyində rus dilinin "ümumdövlət dili" kimi üstünlüyü təşviq edilirdi, digər respublikalarda milli dillərə bu statusun verilməsinə skeptik yanaşılırdı. Lakin Heydər Əliyev böyük siyasi cəsarət və diplomatik çeviklik göstərərək Konstitusiyanın 73-cü maddəsinə "Azərbaycan SSR-in dövlət dili Azərbaycan dilidir" müddəasını daxil etdirdi. Bu, yalnız dil məsələsi deyildi, bu addım Azərbaycan xalqının milli kimliyinin, mədəni irsinin və suveren düşüncəsinin qorunması baxımından strateji əhəmiyyət daşıyırdı.

Heydər Əliyev Konstitusiya layihəsində eyni zamanda sosial ədalət, əmək, təhsil, səhiyyə, mədəniyyət və ətraf mühitin qorunması sahəsində vətəndaşların hüquqlarının genişləndirilməsinə nail olmuşdu. Konstitusiyada "Azərbaycan SSR-in vətəndaşlarının bərabərliyi", "milli mədəniyyətin inkişafı", "təbiətin mühafizəsi" kimi müddəalar məhz Ulu öndərin təşəbbüsü ilə daha konkret və işlək şəkildə əks olunmuşdu.

Ulu öndər SSRİ-nin mərkəzləşdirilmiş iqtisadi sistemində belə, Azərbaycanın iqtisadi potensialını artırmaq üçün hüquqi mexanizmlərin yaradılmasına çalışırdı. 1978-ci il Konstitusiyasına respublikanın təbii sərvətlərə, torpağa, suya, faydalı qazıntılara və enerji mənbələrinə sahiblik hüququ daxil edilmişdi. Bu, gələcəkdə Azərbaycanın iqtisadi müstəqilliyi üçün mühüm hüquqi baza yaratdı. Həmçinin respublikanın idarəetmə orqanlarının səlahiyyətləri də əvvəlki konstitusiyadan daha geniş şəkildə müəyyənləşdirilmişdi. Heydər Əliyev deyirdi: "Qanunlar xalqın mənafeyinə xidmət etməlidir. Əgər qanun xalqın iradəsini əks etdirmirsə, o, formal sənəddən başqa bir şey deyil". Bu yanaşma sonradan onun müstəqil Azərbaycanın Konstitusiyasını hazırlayarkən tətbiq etdiyi prinsiplərin təməlini qoydu. Beləliklə, Heydər Əliyev hələ sovet sisteminin sərt ideoloji çərçivələri daxilində belə milli maraqları qoruyaraq, Azərbaycanın gələcək dövlət müstəqilliyinə hüquqi və siyasi zəmin yaratmışdı.

1991-ci ildə dövlət müstəqilliyinin bərpasından sonra isə yeni, milli dəyərlərə və beynəlxalq hüquq normalarına əsaslanan Konstitusiyanın hazırlanması tarixi zərurətə çevrildi.

### Yeni müstəqillik dövrünün Ana Qanunu

1991-ci ildə Azərbaycan öz müstəqilliyini formal olaraq bərpa etsə də, ölkədə siyasi sabitlik, iqtisadi inkişaf və təhlükəsizlik təmin olunmamışdı. Son dərəcə ağır tarixi şəraitdə Heydər Əliyevin polad iradəsi və uzaqgörən siyasəti hadisələrin düzgün məcrada inkişafı üçün həlledici amilə çevrildi. Belə ki, ölkə daxilindəki vətəndaş müharibəsi dərəcəsinə yüksəlmiş qarşıdurmalar nəinki dövlət müstəqilliyimizi, hətta milli varlığımızı birbaşa hədəfə almışdı. Ermənistanın təcavüzü, iqtisadi böhran, dövlətçiliyin zəif institusional bazası respublikanı dünya xəritəsindən silinmə təhlükəsi ilə üz-üzə qoymuşdu.

Azərbaycanın o dövrdəki iqtidarının qorxaqlığı, siyasi səbatsızlığı bir tərəfdən, AXC-Müsavat cütlüyündə birləşmiş xəyanətkar ünsürlərin antimilli mövqeyi isə digər tərəfdən ölkəni sonu görünməyən faciələrə sürükləyirdi. Məhz bu səbəbdən dövlətçilik və hüquqi baxımdan ən ciddi məsələ sayılan yeni Konstitusiyanın hazırlanması kimi heç kimin yadına da düşmürdü, heç belə bir niyyət mövcud da deyildi. O dövrdə məqsəd ancaq 70-80-ci illərdə Heydər Əliyevin rəhbərliyi ilə Sovet Azərbaycanında əldə olunmuş sosial-iqtisadi və mədəni nailiyyətləri dağıtmaqdan ibarət idi və təəssüf ki, buna da nail oldular.

Məhz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışı ilə Azərbaycanın formal bəyan olunmuş müstəqilliyi real müstəqilliyə çevrildi. Dövlətçilik məfkurəsini hər kəsdən yaxşı dərk edən Ulu öndər bütün xarici və daxili təhdidlərə baxmayaraq, 1995-ci ildə yeni müstəqil Azərbaycanın Konstitusiyasının qəbuluna nail oldu. Ulu öndər Heydər Əliyev ölkədə sabitliyi bərpa etməklə yanaşı, müstəqil dövlətin hüquqi əsaslarını yaratmaq kimi tarixi missiyanı həyata keçirdi. Yeni Konstitusiya demokratik dövlət quruculuğunun əsas prinsiplərini təsbit edir:

- *dövlət suverenliyi və müstəqilliyin təminatı;*
- *hakimiyyətin bölünməsi prinsipi – qanunverici, icraedici və məhkəmə hakimiyyətinin qarşılıqlı balansı;*
- *insan və vətəndaş hüquq və azadlıqlarının ali dəyər kimi tanınması;*
- *dünyəvilik, hüquqi dövlət və vətəndaş cəmiyyəti prinsipləri.*

Bu müddəalar həm dövlət idarəçiliyində, həm də cəmiyyətin siyasi mədəniyyətində yeni mərhələnin əsasını qoydu. Konstitusiyaya dəyişikliklərlə bağlı 2002-ci il 24 avqustda keçirilən referendum nəticəsində:

- *seçki sisteminə dəyişiklik edildi: qarışıq sistem ləğv olundu, tam majoritar sistemə keçildi ki, bu da seçicilərin təmsilçiliyini gücləndirdi, deputatların məsuliyyətini artırdı, Parlamentin fəaliyyət səmərəliliyini təmin etdi, milli maraqlara əsaslanan siyasi idarəetmə modelini möhkəmləndirdi, dövlətin sabit inkişaf kursuna hüquqi zəmin yaratdı;*
- *müəyyən siyasi-hüquqi vəziyyətlərlə əlaqədar Prezident səlahiyyətlərinin müvəqqəti icrasının Baş nazirə həvalə edilməsi icra hakimiyyətinin vahidliyini, hakimiyyətin qolları – qanunverici (Milli Məclis) və icraedici (Prezident) arasında səlahiyyət balansını qorumaq üçün mühüm addım idi. Dövlət quruculuğunun gücləndirilməsi və idarəetmənin sabitliyinin təmin edilməsi baxımından mühüm mərhələ hesab olunan bu dəyişiklik, eyni zamanda, dövlət idarəçiliyində çevikliyi artırmaq və fövqəladə hallarda qərarvermə prosesini sürətləndirmək məqsədlərini nəzərdə tuturdu.*

Prezident İlham Əliyevin Ana Qanunumuzun 30 illik yubileyi ilə əlaqədar 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması barədə Sərəncamında Konstitusiyanın Heydər Əliyev dövrü ilə bağlı mühüm məqamlar öz əksini tapmışdır: "Ulu öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də qəbul olunmuş Azərbaycan Respublikasının ilk Konstitusiyası ölkəmizdə genişmiqyaslı qanunvericilik və institusional islahatların əsasını təşkil etdi. Bu Konstitusiya dövlətimizin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunması, hüquqi, dünyəvi dövlət quruculuğu, vətəndaşlarımızın layiqli həyat səviyyəsinin, dünya ölkələri ilə dostluq və əmin-amanlıq şəraitində əməkdaşlığın təmin edilməsi kimi ali niyyətlərin həyata keçirilməsi üçün mühüm qanunvericilik bazası rolunu oynamışdır". Bu baxımdan dövlətçilik tariximizin ən böyük nailiyyətlərindən biri olan 1995-ci il Konstitusiyasının qəbulu Azərbaycan xalqının əsrlər boyu müstəqil və suveren dövlətə sahib olmaq, milli-mənəvi dəyərlərə, həmrəylik, humanizm, ədalət və qanunun aliliyi prinsiplərinə əsaslanan inkişaf etmiş cəmiyyət qurmaq arzusunun ifadəsi kimi dəyərləndirilməlidir.

### Yeni dövr və konstitusiya islahatları

2003-cü ildə ümumxalq seçkilərində İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi ilə ölkənin dövlətçilik tarixində yeni mərhələyə start verildi. Prezident İlham Əliyev Ümummilli liderin siyasi irsini uğurla inkişaf etdirərək yeni dövrün çağırışlarına uyğun Azərbaycanın tərəqqi strategiyasını müəyyənləşdirdi. İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz həm daxili, həm də xarici siyasətdə güclü və müstəqil dövlətə çevrildi.

Eyni zamanda onun siyasi iradəsi ilə həyata keçirilmiş konstitusion islahatlar ölkənin sabitliyinin etibarlı şəkildə təmin edilməsi, müasir tələblərə cavab verən idarəçilik sisteminin yaradılması və təkmilləşdirilməsi daha mütərəqqi inkişaf mərhələsinə keçid baxımından mühüm addımlar sırasındadır. Sonrakı illərdə keçirilən referendumlar dövlət idarəetməsini müasirləşdirmək, siyasi sabitliyi qorumaq və hakimiyyətin məsuliyyətini artırmaq məqsədi daşıyıb.

2009-cu il 18 mart Konstitusiya referendumu zamanı qəbul edilən ən mühüm dəyişikliklərdən biri prezidentin iki dəfədən artıq seçilməsinə qoyulan məhdudiyyətin aradan qaldırılması idi. Bu qərar

- *dövlət idarəçiliyində ardıcıllıq və strateji dayanıqlıq,*
- *liderlik institutunun sabitliyini və dövlət idarəetməsində milli məktəbin qorunması,*
- *islahatların davamlılığının təmin olunması,*
- *demokratik legitimliyin - xalqın seçki hüququnun genişlənməsi və*
- *dövlətin müstəqil inkişaf kursunun qorunması baxımından mühüm əhəmiyyət daşıyır.*

26 sentyabr 2016-cı il Konstitusiyaya əlavə və dəyişikliklər üzrə referendum ən genişmiqyaslı konstitusiya islahatı olmuşdur. Ölkənin Ali Qanununa 23 yeni maddə əlavə olunmuş, 29 maddə isə dəyişdirilmişdir. Əsas məqamlar isə aşağıdakılardır:

- *Prezidentin səlahiyyət müddəti 5 ildən 7 ilə qaldırılmış;*
- *yeni vəzifələr təsbit olunmuş, Birinci vitse-prezident və vitse-prezidentlər institutu yaradılmış;*
- *Prezidentə parlamenti buraxmaq və növbədənkənar seçki təyin etmək səlahiyyəti verilmiş;*
- *insan hüquqlarının müdafiəsi və sosial təminat sahəsində yeni normalar əlavə edilmişdir.*

Bu referendumlar və konstitusiya islahatları dövlətin idarəçilik sistemini müasirləşdirib, çevik və məsuliyyətli prezidentlik modelini formalaşdırıb. Ötən 30 il ərzində aparılan ardıcıl konstitusiya islahatları nəticəsində Azərbaycanın timsalında yeni müstəqil, nümunəvi müasir və səmərəli idarəetmə modelinə malik dövlətlərdən birinə çevrilmişdir.

### Azərbaycan Konstitusiyası və Qarabağ Zəfəri

Xalqın dərin etimadına söykənən və qüdrətli ordumuzun gücünə arxalanan Müzəffər Ali Baş Komandan İlham Əliyevin bənzərsiz sərkərdəlik məharəti sayəsində əldə olunmuş və bu günlərdə 5 illik yubileyini qeyd etdiyimiz möhtəşəm tarixi Qarabağ Zəfəri də təkcə hərbi qələbə deyil, həm də "suveren, demokratik, hüquqi və dünyəvi dövlət" prinsiplərinə yeni siyasi məzmun qazandırmaqla Konstitusiyamızın ruhunda, onun əsas prinsiplərində təsbit olunmuş milli ideallların real həyatda təntənəsidir.

Konstitusiyamızın 9-cu bölməsi Prezidentin ali baş komandan səlahiyyətlərini müəyyən edir. Vətən müharibəsi dövründə Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi bu səlahiyyətlərin məhz milli təhlükəsizlik və dövlətin bütövlüyü naminə necə səmərəli istifadə oluna biləcəyini göstərdi. Beləliklə, Konstitusiyada nəzərdə tutulan prezident institutunun strateji rolu tarix qarşısında özünü tam doğrultdu.

Ana Qanunun preambulasında "Azərbaycan xalqının dövlət müstəqilliyini və ərazi bütövlüyünü qorumaq iradəsi" ifadəsi yer alır. Qarabağ Zəfəri göstərdi ki, bu iradə təkcə hüquqi sənəddə deyil, xalqın genetik yaddaşında, milli ruhunda yaşayır. Bu gün Konstitusiyamız artıq postmüharibə dövrünün reallıqlarına əsaslanan yeni mərhələyə daxil olub. İndi Konstitusiya təkcə ali hüquqi sənəd deyil, həm də Azərbaycan xalqının birliyinin, müstəqilliyinin və ədalətin simvoluna çevrilən tarixi Zəfərin mənəvi təcəssümüdür.

***Əli HÜSEYNLİ,***
***Milli Məclisin***
***Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri***

# Azərbaycanın dövlət müstəqilliyinin ali sənədi

**Müasir Azərbaycan Respublikası mövcudiyyətinin ilk illərində böyük çətinliklərlə, idarəolunmaz vəziyyət səbəbindən hətta müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdi. Ermənistanın təcavüzünün geniş miqyas alması fonunda iqtisadiyyat, siyasət və digər sahələrdə ciddi böhran yaşandı. Yaranmış durğunluğa ulu öndər Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Bakıya qayıtması və Azərbaycan Ali Sovetinin sədri seçilməsi son qoydu, gələcəyə ümid yaratdı.**

Heydər Əliyev şəxsiyyətinin hakimiyyətə qayıdışından sonra dövlətçiliyin konsepsiyası işlənib hazırlanmış, milli ideologiya halına gəlmişdi. Ulu öndər artıq tarixin arxivinə göndərilmiş Ermənistan, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli kimi mühüm məsələ ilə bağlı əhəmiyyətli addımlar atdı. Nəticədə 1994-cü ilin mayında Ermənistanla atəşkəs əldə edildi. Həmin ilin sentyabrında isə Xəzər dənizinin zəngin neft-qaz strukturlarının işlənməsi ilə bağlı "Əsrin müqaviləsi" tarixi sənədi imzalandı.

Tədricən formalaşmaqda olan sabitlik mühiti ölkə qanunvericiliyinin təkmilləşdirilməsinə də imkan verdi. Beləliklə, Azərbaycan Konstitusiyasının işlənib hazırlanması istiqamətində işlərə başlanıldı. Qısa zamanda həyata keçirilmiş bu fəaliyyət tez bir zamanda yekunlaşdı. 1995-ci ilin noyabrında müəllifi Ümummilli lider Heydər Əliyev olan Azərbaycanın yeni Konstitusiyası qəbul edildi.

Heydər Əliyev "azərbaycançılıq" konsepsiyasını dövlətin bütövlüyünü qoruyan ideoloji-praktik paradiqma kimi həyata keçirdi. Konstitusiyamız da bunu rəhbər tutdu və yeni dövlət ideyasının siyasi birliyini və sosial legitimliyini təsdiqlədi. Əsas Qanun hazırlanarkən, ümumbəşəri dəyərlər və hüquqi dövlət ənənələri nəzərə alınmaqla yanaşı, bu ideyaların müasir inkişaf meyilləri Azərbaycan milli maraqları əsasında formalaşdırılmış, dövlətçilik ənənələri və milli-mənəvi dəyərlərlə zənginləşdirdi. Konstitusiyamız ölkəmizin gələcək inkişafının konseptual əsaslarını və prioritetlərini müəyyənləşdirdi, habelə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu üçün möhkəm hüquqi əsas yaratdı.

Ulu öndər 1995-ci il noyabrın 10-da Konstitusiya layihəsi üzrə komissiyanın son iclasında vurğulamışdır: "Bu sənədin hazırlanmasına böyük məsuliyyət hissi ilə yanaşmışam. Komissiyanın sədri kimi daim şəxsi məsuliyyətimi dərk etmişəm və bu gün də dərk edirəm. Ona görə də hazırlanmasına çox vaxt sərf etmişəm. Düzdür, çox gərgin çalışmışam. Hər bir ifadənin, hər sözün mənasını dəfələrlə öyrənmiş, onların indiki və gələcək üçün nə dərəcədə əsaslı olduğunu təhlil etmişəm. Bu layihəni böyük məmnuniyyət hissi ilə imzalayıram və bu gün onun üçün tam məsuliyyət daşıdığımı bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycan üçün – indiki və gələcək üçün çox böyük siyasi və hüquqi sənəd yaratmışıq".

Bəli, Konstitusiyamız dövlət quruculuğuna dair müasir doktrinal yanaşmalar əsasında, ölkəmizdə siyasi, iqtisadi və sosial münasibətlərin əsas prinsiplərini və müddəalarını müəyyən edir. Sənədin hüquqi fəlsəfəsinin təməli, bütün normalarının və müddəalarının əsası demokratik, hüquqi, sosial dövlət ideyasıdır; insan, onun hüquq və azadlıqları ən ali dəyər hesab olunur. Bütün hüquqi və demokratik dövlətlərdə də belədir. Əsas Qanun hüquqi sistemin təməlini təşkil edir, siyasi sabitliyin, ictimai sülhün və bəzən milli barışığın təminatçısı missiyasını daşıyır. Tam əminliklə deyə bilərik ki, 1995-ci il Konstitusiyası genişmiqyaslı islahatlar vasitəsilə Azərbaycanın bütün sahələrdə tərəqqisinin təminatçısı olmuşdur.

Azərbaycan Konstitusiyasında müasir sivilizasiyalaşmış cəmiyyətlərin inkişaf istiqamətlərini müəyyən edən irəliləyişçi ideyalar və dəyərlər geniş əks olunmuşdur. Onlardan xüsusi önəm daşıyanlar: insanın şəxsiyyətinə və ləyaqətinə hörmət, dövlət orqanlarının demokratik qaydada formalaşdırılması, insan hüquqlarının qorunması üçün effektiv mexanizmlərin mövcudluğu, siyasi sistemdə plüralizmin təmin olunması, sosial ədalətin əldə edilməsi, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və digər prinsiplərdir.

Konstitusiya xalq hakimiyyətini Azərbaycan Konstitusiyasının mühüm əsası kimi elan edir, Azərbaycan xalqını dövlət hakimiyyətinin yeganə mənbəyi hesab edir, xalqın suveren hüququ kimi öz taleyini sərbəst və müstəqil şəkildə müəyyənləşdirməsini və dövlət formasını təsis etməsini təsbit edir. Əsas qanuna görə, xalqın birliyi dövlətimizin təməlində dayanır və Azərbaycan Respublikası vətəndaşların ümumi və bölünməz vətənidir.

Yeni Konstitusiyanın qəbulu xalqımızın həyatında baş verən köklü dəyişikliklərlə bağlı idi. Nəzərə alaq ki, müdrik dövlət siyasəti sayəsində ölkədə ayrı-ayrı millətlərin sərbəst yaşaması və müxtəlif din və mədəniyyətlərin harmonik şəkildə birgə mövcudluğu üçün bütün zəruri şərait yaradılmışdır. Buna görə Azərbaycan dünya miqyasında yalnız neft və qaz ixrac edən ölkə kimi deyil, həm də dözümlülük və multikulturalizm dəyərlərini ixrac edən ölkə kimi tanınır. Bu model əsrlərdir humanizm və ümumbəşəri dəyərlərə əsaslanır və sosial sabitliyin təməlidir.

Konstitusiyada ölkənin bütövlüyünün qorunması, hakimiyyətin bölünməsi, dövlət hakimiyyətinin daxili işlərdə yalnız hüquqla, xarici işlərdə isə yalnız Azərbaycan Respublikası tərəfindən imzalanmış beynəlxalq müqavilələrin müddəaları ilə məhdudlaşdırılması, siyasi plüralizmin təmin olunması, beynəlxalq hüququn milli qanunvericilik üzərində üstünlüyü (Azərbaycan Konstitusiyası və referendum yolu ilə qəbul edilmiş aktlar istisna olmaqla) kimi mühüm prinsiplər təsbit edilmişdir.

Konstitusiyanın əsas hüquqi xüsusiyyətlərindən biri onun stabilliyidir. Sənəd uzunmüddətli fəaliyyət üçün nəzərdə tutulmuş sabit məzmunlu aktdır. Konstitusiyanın sabitliyi ölkədə qanunçuluğun, dövlət hakimiyyətinin təşkili və həyata keçirilməsinin, fərd, dövlət və cəmiyyət münasibətlərinin sabitliyinin əsas şərtidir.

30 illik tarixində Azərbaycan Konstitusiyası dövlətə öz müddəalarını həyata keçirməkdə böyük təcrübə qazandırmış, sənəddə əks olunan konsepsiyaların inkişafı ilə bir çox normativ-hüquqi aktlar qəbul edilmiş, güclü sosial dövlətin, rəqabət qabiliyyətli iqtisadiyyatın qurulmasına və insan hüquqlarının qorunmasına təkan vermişdir. Ümumbəşəri dəyərlərə əsaslanan Azərbaycan Konstitusiyası bu gün də böyük hüquqi, siyasi və ideoloji potensiala malikdir və Azərbaycan xalqının rifahına xidmət edir.

Otuz ilə yaxın müddətdə Azərbaycanın suveren ərazisinin təqribən iyirmi faizi Ermənistanın hərbi işğalı altında qalmışdı. Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti və hərbi cinayətlər nəticəsində bir milyon azərbaycanlı öz yurd-yuvasından didərgin salınmışdı. Onların fundamental insan hüquqları kobud şəkildə pozulmuşdu.

44 günlük Vətən müharibəsi zamanı Silahlı Qüvvələrimiz işğal altındakı əraziləri azad etdi, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq hüquqa və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq bərpa etdi. Hesab edirəm ki, müqəddəs Zəfərimizdə də Ulu öndərin adı ilə bağlı Heydər Əliyev Konstitusiyasının aşıladığı həmrəylik prinsiplərinin, dövlətçiliyə sədaqət ruhunun, mütəşəkkillik əzminin müstəsna rolu var.

***Arif QULİYEV,***
***Kiyev Əqli Mülkiyyət və Hüquq Universitetinin professoru, hüquq elmləri doktoru***



# Qarabağ Zəfərinin beynəlxalq əks-sədası

## *İnformasiya savaşının qələbə notları*

**Azərbaycan Ordusu 44 günlük savaşda ölkəmizin haqq işi – ərazi bütövlüyünün bərpası uğrunda mübarizəni təkcə döyüş meydanlarında deyil, həm də informasiya və diplomatiya cəbhəsində aparırdı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin beynəlxalq mediaya verdiyi çoxsaylı müsahibələr bu prosesdə mühüm strateji əhəmiyyət daşıyırdı.**

Noyabrın 9-da “BBC News” telekanalına verilən müsahibə də həmin informasiya hücumunun ən önəmli məqamlarından biri idi. Bu müsahibə dünya ictimaiyyətinə obyektiv faktları çatdırmaqla bərabər, həm də Azərbaycan diplomatiyasının rasional və beynəlxalq hüquqa əsaslanan xəttini nümayiş etdirmək baxımından xüsusi önəmə malik idi. Prezident İlham Əliyev çıxışında Qərb auditoriyasına aydın və faktlara söykənən mesajlar göndərir, Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu, Ermənistanın işğalçı siyasət yürütdüyünü, beynəlxalq hüququn prinsiplərini pozduğunu və respublikamızın BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələri gerçəkləşdirdiyini diqqətə çatdırırdı.

“BBC News” jurnalistinin sualları bir çox hallarda Ermənistanın təbliğatını əks etdirən iddialara əsaslansa da, dövlətimizin başçısının cavabları həmin uydurmaları faktların gücü ilə tamamilə ifşa edirdi. Ölkə rəhbəri Ermənistanın 30 ilə yaxın müddətdə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal altında saxladığını, həmin torpaqlarda qanunsuz məskunlaşma apardığını, şəhər və kəndləri yerlə-yeksan etdiyini xatırladırdı.

Prezident, eyni zamanda, Azərbaycanın beynəlxalq hüquqa uyğun olaraq, öz torpaqlarında antiterror əməliyyatı həyata keçirdiyini və bu müharibədə işğalçıya qarşı ədalətli müqavimət göstərdiyini, dövlətimizin və xalqımızın ədalət uğrunda mübarizə apardığını, bu ədalətin isə beynəlxalq hüququn prinsipləri ilə tam üst-üstə düşdüyünü vurğulayırdı. Beləliklə, Prezident İlham Əliyev Qərb auditoriyasının diqqətinə Azərbaycanın məqsədinin revanşizm və ya aqressiya olmadığını, beynəlxalq qaydalara əsaslanan sülhün təmin edilməsinin qarşıya mühüm vəzifə kimi qoyulduğunu çatdırırdı.

Azərbaycan lideri çıxışında müxbirin informasiya manipulyasiyalarına tutarlı cavablar verirdi. Qeyd edək ki, jurnalistin müsahibə boyu işlətdiyi suallarda birtərəfli ton hiss olunurdu. Başqa sözlə, müxbir münaqişəni “bərabər tərəflərin toqquşması” kimi təqdim etməyə çalışırdı. Lakin Prezident İlham Əliyev cavabında savaşı “burada bərabər tərəflər yoxdur, bir tərəf işğalçı, digər tərəf isə ədalət və beynəlxalq hüquq uğrunda mübarizə aparan dövlətdir” kimi qiymətləndirirdi.

Azərbaycan liderinin arqumentləri soyuq məntiqə və hüquqi əsaslara söykənirdi. O, konkret faktlarla BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasının tələb olunduğunu sübut edirdi. Ölkə rəhbəri, eyni zamanda, bu tələblərin 30 il ərzində icra edilmədiyini də bildirirdi.

Müsahibədə dövlətimizin başçısı jurnalistin “mülki şəxslərin hədəfə alınması” barədə iddialarını rədd edərək mülki əhalini hədəf alan tərəfin Ermənistan olduğunu, Gəncə, Bərdə, Tərtər və digər şəhərlərin Ermənistan ordusunun raket hücumlarına məruz qaldığını xatırladır, bu faktları “BBC” auditoriyasına açıq şəkildə təqdim edir və informasiya manipulyasiyasının əsassızlığını sübuta yetirirdi.

Prezident İlham Əliyev Vətən müharibəsi günlərində bu məsələni bütün beynəlxalq media platformalarında prinsipial və ardıcıl şəkildə gündəmə gətirərək Ermənistanın törətdiyi cinayətlərin hüquqi-siyasi qiymətini dəqiq ifadə edirdi. Azərbaycan lideri müsahibədə bununla bağlı faktlara əsaslanaraq, Ermənistanın Gəncə, Bərdə, Tərtər kimi şəhərlərə raket zərbələri endirməsini, dinc əhalini hədəfə almasını beynəlxalq hüquq çərçivəsində müharibə cinayəti kimi qiymətləndirirdi, bunu erməni faşizminin növbəti təzahürü adlandırırdı: “Onlar adətən döyüş meydanında məğlubiyyətə uğrayanda mülki şəxslərə atəş açırlar. Bunu biz Birinci Qarabağ savaşında da gördük. Məhz Xocalı soyqırımını törədənlər bizim həmin mənfur qonşularımızdır. Bu dəfə də görəndə ki, artıq döyüş meydanında Azərbaycan Ordusu qarşısında acizdirlər və işğal edilmiş torpaqlarda bizə qarşı müqavimət göstərə bilmirlər, onlar yenə də mülki vətəndaşları hədəfə aldılar və namərd hücum nəticəsində bizim insanlarımız həlak oldular, həm Gəncədə, həm də dünən Tərtərdəki qəbiristanlıqda”.

Azərbaycanın dövlət başçısı vurğulayırdı ki, Gəncə, Bərdə və Tərtər şəhərlərinə atılan raketlər müharibə qanunlarına ziddir, bu hücumlar sırf terror məqsədi daşıyır və beynəlxalq hüquq baxımından açıq-aşkar müharibə cinayətidir. Ermənistan ordusu cəbhə xəttindən uzaqda yerləşən bu şəhərlərdə mülki infrastrukturu – yaşayış binalarını, xəstəxanaları, məktəbləri, ticarət obyektlərini, uşaqları və qadınları məqsədli şəkildə hədəfə almışdı. Bu faktlar təkcə Azərbaycanın suverenliyinə qarşı deyil, həm də bütün bəşəri dəyərlərə, humanizm prinsiplərinə qarşı yönəlmişdi.

Xatırladaq ki, Gəncə və Bərdəyə atılan “Skad” və “Smerç” tipli raketlər nəticəsində onlarla dinc sakin həyatını itirdi, yüzlərlə insan yaralandı. Bu hadisələr beynəlxalq ictimaiyyətə təqdim edilən sübutlarla bir daha göstərdi ki, Ermənistan silahlı qüvvələri müharibənin elementar etik qaydalarına belə məhəl qoymur. Prezident İlham Əliyev bu faktları dünya mediası qarşısında konkret sənədlərlə, foto və video materiallarla ortaya qoyaraq, işğalçının cinayətkar mahiyyətini ifşa etdi və bildirdi ki, bu hücumlar müharibə deyil, terror aktıdır.

Beynəlxalq hüququn əsas prinsiplərinə görə, münaqişə şəraitində mülki əhalinin və onların əmlakının məqsədli şəkildə məhv edilməsi Cenevrə konvensiyalarının kobud pozuntusudur. Azərbaycan Prezidenti məhz bu kontekstdə Ermənistanın hərəkətlərini müharibə cinayəti kimi qiymətləndirərək beynəlxalq ictimaiyyəti bu cinayətlərin tanınmasına və cəzasızlığın qarşısının alınmasına çağırırdı. Bu, təkcə hüquqi deyil, həm də mənəvi məsələ idi. Çünki Vətən müharibəsində Azərbaycan dövləti heç vaxt mülki obyektləri hədəf almırdı, əməliyyatları yalnız beynəlxalq humanitar hüquq çərçivəsində aparırdı.

Prezident İlham Əliyevin bu prinsipial mövqeyi Azərbaycanın haqlı mübarizəsini daha da gücləndirdi. Onun beynəlxalq tribunalara, aparıcı KİV-lərə və siyasi mərkəzlərə ünvanlanan çıxışlarında əsas fikir bundan ibarət idi ki, ədalət yalnız güclü ordunun deyil, həm də güclü hüquqi və mənəvi mövqenin sayəsində təmin olunur. Məhz bu səbəbdən Azərbaycan həm hərbi, həm diplomatik, həm də hüquqi müstəvidə qalib gəldi.

Vətən müharibəsinin ən ağrılı səhifələrindən biri olan Gəncə, Bərdə və Tərtərin bombalanması hadisələri Azərbaycan xalqının yaddaşında dərin iz buraxdı. Lakin həmin faciələr, eyni zamanda, ölkəmizin haqlı mövqeyinin açıq-aydın görünməsinə, beynəlxalq ictimaiyyətin diqqətinin Ermənistanın təcavüzkar siyasətinə yönəlməsinə səbəb oldu. Prezident İlham Əliyevin səyləri nəticəsində Azərbaycan bu cinayətlərin unudulmaması və gələcəkdə təkrarlanmaması üçün güclü siyasi-hüquqi baza formalaşdırdı.

Müsahibənin mühüm hissələrindən biri də sülh məsələsinə həsr olunmuşdu. Prezident İlham Əliyev çıxışında Azərbaycanın hər zaman sülh danışıqlarına sadiq olduğunu, lakin Ermənistanın bu prosesi imitasiya etdiyini, illərlə vaxt qazanmaqla status-kvonun möhkəmlənməsinə çalışdığını bildirirdi. Dövlət başçısı “müharibə sülhün alternativi deyil, onun bərpasıdır”, – deyirdi.

Yeri gəlmişkən, Azərbaycan müharibəyə başlamaqla sülh prosesini bərpa edir, ədalətli nizamı qurmağa yönəlmiş addım atırdı. Bu yanaşma beynəlxalq aləmdə də “məsuliyyətli gücün davranışı” kimi qiymətləndirilir, Azərbaycanın beynəlxalq hüququ pozan deyil, onu bərpa edən tərəf olduğu söylənilirdi.

Prezidentin müsahibədə münaqişənin davam etməsinin başlıca səbəbini beynəlxalq ədalətsizlik və ikili standartlar olduğunu vurğulayırdı. “Əgər eyni qətnamələr başqa regionlarda dərhal icra olunurdusa, niyə Azərbaycan məsələsində 30 il susqunluq nümayiş etdirilir” deyirdi. Əslində bu ritorik sual “BBC” auditoriyasına ünvanlanan ən kəskin mesajlardan biri idi.

Müsahibədə Prezident İlham Əliyev “Qarabağ ermənilərinin gələcəyi” məsələsinə də xüsusi toxundu. O, Qarabağda yaşayan ermənilərin Azərbaycan vətəndaşları kimi eyni hüquqlara malik olacaqlarını, onların təhlükəsizliyi və sosial rifahının Azərbaycan dövləti tərəfindən təmin ediləcəyi bəyan etdi. Bu bəyanat Qərb ictimaiyyətinə aydın mesaj idi: Azərbaycan milli zəmində qisasçılıq siyasəti yürütmür, multikultural və tolerant ənənələrə əsaslanan dövlət modelinə malikdir. Dövlət başçısı qeyd edirdi ki, Qarabağda yaşayan insanlar etnik mənsubiyyətinə görə deyil, qanun qarşısında bərabər vətəndaşlar kimi dəyərləndiriləcəklər. Bu, postmünaqişə dövrü üçün strateji istiqaməti müəyyənləşdirən, beynəlxalq ictimaiyyətə Azərbaycanın humanist mövqeyini göstərən bəyanat idi.

Azərbaycan lideri müsahibəsində təkcə hərbi əməliyyatların gedişi ilə yanaşı, həm də regionun gələcək təhlükəsizlik arxitekturasına dair baxışlarını səsləndirdi. Cənubi Qafqazda dayanıqlı sülhün yalnız ədalətli status-kvonun bərpası, yəni Azərbaycanın ərazi bütövlüyünün gerçəkləşdirilməsi sayəsində mümkünlüyünü diqqətə çatdırdı. Dövlətimizin başçısı daha sonra dedi: “Artıq yeni regional reallıq formalaşır. Azərbaycan güclü iqtisadiyyata, suveren siyasi iradəyə və beynəlxalq nüfuza malik dövlətdir”. Bu kontekstdə dövlət başçısının vurğuladığı “müharibə dövründə Ermənistan ordusunun məğlubiyyətinin səbəbi təkcə hərbi deyil, həm də siyasi və ideoloji böhran idi” fikri regionda yeni güc balansının yaranmasına işarə idi. Azərbaycan isə qalib dövlət kimi sülhün, əməkdaşlığın və qarşılıqlı faydalı inteqrasiyanın tərəfdarıdır. Prezidentin sözləri ilə desək, “Biz sülh istəyirik, lakin heç vaxt ədalətsiz sülhə razı ola bilmərik”.

Noyabrın 9-da “BBC News” telekanalına verilən müsahibə, əslində, 44 günlük Vətən müharibəsinin informasiya cəbhəsində növbəti dönüş nöqtəsi oldu. Prezident İlham Əliyev beynəlxalq auditoriyaya bir daha nümayiş etdirdi ki, Azərbaycan dövləti beynəlxalq hüququn keşiyində dayanır, ədalət və sülh tərəfdarıdır. Bu müsahibə həm də göstərdi ki, informasiya müharibəsində soyuq məntiq, hüquqi arqument və prinsipial mövqe emosional təbliğatdan qat-qat güclüdür. Azərbaycan diplomatiyası məhz bu model üzərində qurulub.

Xatırladaq ki, bu cür yanaşma müharibədən sonra bölgədə davamlı sülhün bərqərar olunması üçün əsas ideoloji xətt idi. Belə bir dövrdə Azərbaycan tarixi ədalətə əsaslanan regional inteqrasiya modeli təşəbbüsünü irəli sürdü. Bu isə beynəlxalq ictimaiyyət üçün Azərbaycanın revanşist, təcavüzkar dövlət olmadığı, ədalətli sülhün tərəfində dayandığı haqqında dünyaya mühüm mesaj idi.

44 günlük Vətən müharibəsində qazanılan Zəfər isə sadəcə hərbi uğur deyildi, həm də milli kimliyin, dövlət suverenliyinin və tarixi ədalətin bərpası idi. “BBC News” telekanalının suallarına verilən cavablar isə əvvəlki müsahibələrdə olduğu kimi, tarixi Qələbənin ideoloji təməlinin mahiyyətini dünya ictimaiyyətinə çatdıran mühüm sənəd idi. Azərbaycanın səsi artıq təkcə döyüş meydanında deyil, beynəlxalq tribunalar və media platformalarında da qətiyyətlə eşidilirdi. Bu, Prezident İlham Əliyevin diplomatik iradəsinin və milli liderlik konsepsiyasının parlaq təzahürü kimi diqqət çəkirdi.

***Vaqif BİNYATOĞLU***
***XQ***

# Vətən müharibəsinin xronikası

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Vətən müharibəsi 30 illik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan möhtəşəm Zəfər Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**

## 9 noyabr

• Müdafiə Nazirliyi mətbuat xidmətinin məlumatına görə, Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun




mövqelərini və yaşayış məntəqələrimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub. Cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivlikdə davam edib. Sutka ərzində cəbhənin əsas istiqamətlərində düşmənə ciddi zərbələr vurulub. Cəbhənin bəzi sahələrində düşmən şəxsi heyət və hərbi texnikada itkilər verərək geri çəkilməyə məcbur edilib. Sutka ərzində düşmənin xeyli sayda canlı qüvvəsi, 1 ədəd T-72 tankı, 1 ədəd D-30 topu, 1 minaatan heyəti, döyüş sursatı ilə




dolu bir hərbi yük avtomobili sıradan çıxarılıb.

• Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib: “Müzəffər Azərbaycan Ordusu Füzulinin Qobu Dilağarda, Yal Pirəhmədli, Yuxarı Yağlıvənd, Dilağarda, Seyid Mahmudlu, Ələsgərli, Xocalının Dəmirçilər, Çanaqçı, Mədətkənd, Sığnaq, Xocavəndin Susanlıq, Domi, Tuğ, Akaku, Azıx, Cəbrayılın Hüseynalılar, Söyüdlü, Aşağı Sirik, Qubadlının Yuxarı Mollu, Aşağı Mollu, Xocik, Zəngilanın Keçikli, Ördəkli kəndlərini işğaldan azad edib”.



• Dövlətimizin başçısı özünün rəsmi “Twitter” səhifəsində daha 48 kənd, 1 qəsəbə və 8 strateji yüksəkliyin işğaldan azad edilməsi məlumat verib: “Müzəffər Azərbaycan Ordusu Xocavəndin Mets Tağlar, Salakətin, Zoğalbulaq, Aragül, Tağavard, Böyük Tağavard, Zərdanaşen, Şəhər, Xocalının Şuşakənd, Muxtar, Daşaltı, Füzulinin Aşağı Güzdək, Qovşatlı, Mirzəcamallı, Şəkərcik, Mərdinli, Şıxlı, Qaraməmmədli, Dövlətyarlı, Hacılı, Hüseynbəyli, Saracıq, Zəngilanın Sobu, Qaragöz, İsgəndərbəyli kəndlərini, Bartaz qəsəbəsini, Bartaz (2300 metr), Sığırt (1370 metr), Şükürataz yüksəkliklərini (2000 metr) və Cəbrayılın Qalacıq, Mollahəsənli, Əsgərxanlı, Yuxarı Nüsüs, Aşıq Məlikli, Niftalılar, Qərər, Çələbilər, Qubadlının Qaramanlı, Xəndək, Həmzəli, Mahrızlı, Hal, Ballıqaya, Ulaşlı, Tinli, Xocahan, Boyunəkər, Qaraqoyunlu, Çərəli, Laçının Güləbird, Səfiyan, Türklər kəndlərini işğaldan azad etmişdir”.

• Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “BBC News”a müsahibə verib.

• Müdafiə Nazirliyi düşmənin atəş nöqtələrinin və şəxsi heyətinin məhv edilməsini əks etdirən videogörüntü yayıb.

• Müdafiə Nazirliyinin məlumatına görə, Şuşa istiqamətində düşmənin mühasirəyə alınan qüvvələrinin məhv edilməsi əməliyyatı davam edib. Noyabrın 9-da Laçın-Şuşa yolu üzərindəki Zarıslı kəndi yaxınlığında mühasirədən çıxmaq məqsədilə bölmələrimizin üzərinə hücum etməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinin 1 tankı və 1 piyada döyüş maşını zərbə PUA-ları ilə məhv edilib.

• Baş Prokurorluğun məlumatına görə, sentyabrın 27-dən noyabrın 9-dək Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 93 nəfər həlak olub, 407 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 3326 ev, 120 çoxmənzilli yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb.

• Cəbhənin Xocavənd istiqamətində düşmən tərəfindən fərdi yaşayış evlərinin arasında yerləşdirilən və aviasiya vasitələrimizə qarşı tətbiq olunan “Tor-M2KM” zenit-raket kompleksi bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

## 10 noyabr

• Noyabrın 10-na keçən gecə Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidenti münaqişə zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması barədə Bəyanat imzalayıblar. Bununla bağlı Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa müraciət edib: “Bu gün ölkəmiz üçün tarixi bir gündür. Bu gün Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə son qoyulur. Hesab edirəm ki, indicə imzalanmış Üçtərəfli Bəyanat məsələnin həlli istiqamətində son nöqtə olacaqdır”.

• Üçtərəfli Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonunun işğal altında olan hissəsi, noyabrın 25-də Kəlbəcər rayonu, dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verilib.

• Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edilib. İndiyədək Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi azad olunub.

***Mustafa KAMAL***
***XQ***

# Müharibə istəmirik, sülhü qorumağa isə güc və birliyimiz var

## *Azərbaycan, Türkiyə və Pakistan liderləri dünyaya hansı mesajları verdilər?*

**Biz müharibə istəmirik, amma sülhü qorumaq üçün birliyimiz var. Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş möhtəşəm Hərbi paradda məhz bu mesaj verildi. Mesajın müəllifləri Azərbaycan, Türkiyə və Pakistan liderləri - Prezident İlham Əliyev, Prezident Rəcəb Tayyib Ərdoğan və Baş nazir Məhəmməd Şahbaz Şərif oldu. Ali rəhbərlər səsləndirdikləri fikirlərlə Hərbi paradı dostluq və qardaşlığın növbəti təntənəli nümayiş meydanına çevirdilər. Şübhəsiz, liderlərin bir araya gəlmələrinin konkret mesaj payı da var və bu barədə söz açacağıq.**



Bəli, ilk dəfə olaraq dünənki hər üç ölkənin Silahlı Qüvvələrinin təmsilçilərinin təntənəli marşla keçidinə şahidlik etdik. “Bu gün bizim hərbi paradda Türkiyə hərbçilərinin iştirakı bizim birliyimizin növbəti təzahürüdür”. Bu fikirləri Prezident İlham Əliyev Hərbi paraddakı çıxışında bildirib. 44 günlük Vətən müharibəsi dövrünə ekskurs edən dövlətimizin başçısı onu da deyib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan İkinci Qarabağ müharibəsinin ilk saatlarından başlayaraq, Azərbaycana, Azərbaycan xalqına, Azərbaycan Ordusuna öz dəstəyini göstərirdi: “Onun bizə verdiyi siyasi və mənəvi dəstək bizə güc verirdi, bizi ruhlandırırdı”.

Vətən müharibəsində Azərbaycana Türkiyədən sonra ikinci ən böyük siyasi dəstəyi Pakistan verdi. Ona görə də ölkənin baş naziri Məhəmməd Şahbaz Şərifin “torpaqların azadlığı uğrunda mübarizədə Pakistan Azərbaycanın yanında qaya kimi dayandı və bundan sonra da belə olacaq” deməsi qürurvericidir: “Əziz qardaşım Prezident İlham Əliyevin uzaqgörən rəhbərliyi altında azərbaycanlı qardaşlarım tarixin çağırışına qalxdılar. Bütün dünya Azərbaycanın şanlı Silahlı Qüvvələrinin öz əzəli torpaqlarını azad etməsinin şahidi oldu”.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Hərbi paraddakı çıxışda verdiyi başlıca mesaj bu idi ki, Qarabağ Zəfəri vicdanları qanadan böyük ədalətsizliyi sonlandırmaqla yanaşı, bölgədə yeni dövrün qapılarını araladı. Ən başlıcası: “Vətən müharibəsi Asiya və Avropadakı geopolitik reallıqları da dəyişdi. Biz nə kin tutarıq, nə də keçmişdəki acıların təkrar yaşanmasına icazə verərik”.

Üzərindən beş il keçdikdən sonra tam qətiyyətlə demək olar ki, Azərbaycanın Vətən müharibəsindəki qələbəsi yaşadığımız Cənubi Qafqaz coğrafiyasına tamamilə yeni reallıqlar gətirdi. Əslində, bu reallıqların anonsunu Prezident İlham Əliyevin xalqa istər 44 günlük müharibənin son günündə - 2020-ci il noyabrın 10-dakı müraciətində, istərsə də 2023-cü il sentyabrın 20-də - lokal xarakterli antiterror tədbirlərindən sonrakı müraciətində səsləndirmiş, Ermənistanı konstruktivliyə, sülhə çağırmışdı. Əlbəttə, rəsmi İrəvanın bunu anlaması üçün zamana ehtiyac duyuldu. Amma necə deyərlər, gec olsun, güc olsun. Hazırda Azərbaycan-Ermənistan sülh sazişi paraflanıb. Yəni sənəd imzalanmaya tam hazırdır. Prezident Ərdoğan isə bildirir ki, Azərbaycanın 44 günlük müharibədəki Zəfərini “Cənubi Qafqazda qalıcı sülhə gedən yolun əsası olaraq görürük”.

Türkiyə lideri onu da deyib ki, Cənubi Qafqazda sülhün hakim olması Asiyadan Avropaya bütün bölgənin rifahına xidmət edəcək: “Xüsusilə vurğulamaq istəyirəm ki, biz davamlı sülhün əldə ediləcəyinə son dərəcə ümidliyik. İlham Əliyev qardaşımın davamlı sülhün təsisi üçün göstərdiyi səmimi səylərini təqdirlə qarşılayırıq”.

Bəli, ümumiləşdirmə apararaq, Azərbaycan, Türkiyə və Pakistan liderlərinin Bakıdakı möhtəşəm Hərbi paradda iştirakları fonunda vurğuladıqları məqamların dünyaya mesaj payı baxımından bir neçə cəhətin üzərində dayanmaq mümkündür. Birinci mesaj türk-müsəlman həmrəyliyidir. Üç ölkə lideri bu rasional və praqmatik ruhlu həmrəyliyin praktiki şəkildə mümkünlüyünü göstərdilər. Halbuki, müasir dünyamızda belə bir hala, demək olar, rast gəlinmir. Tarix boyu da müsəlman dünyasında bu cür vəhdət nümunəsi görünməyib.

İkinci mesaj regional güc balansı ilə bağlıdır. Yəni Azərbaycan, Türkiyə və Pakistan liderləri Cənubi Qafqazda və Yaxın Şərqdə yeni güc mərkəzinin formalaşdığını göstərirlər. Türkiyə NATO üzvü və bölgədə mühüm hərbi qüvvə, Pakistan nüvə gücünə malik müsəlman ölkəsi, Azərbaycan isə enerji resursları və hərbi uğurları ilə ön planda olan dövlətdir. Onların birlikləri isə regiona maraq duyan digər oyunçulara, Cənubi Qafqazda nüfuz mübarizəsi aparan güclərə “biz buradayıq və bir-birimizin yanındayıq” xitabıdır.

Daha bir mesajdan bəhs edərkən, onu deyək ki, Bakıdakı Hərbi paradda hər üç ölkənin hərbi kontingentlərinin və texnikalarının birgə iştirakı həm də onların müdafiə və hərbi texnologiya sahəsində oturuşmuş əməkdaşlığa malik olduqlarını göstərir. Deməli, liderlərin əlamətdar gündə bir araya gəlmələri təkcə siyasi jest deyil, həmçinin real hərbi əməkdaşlıq infrastrukturunun möhkəmləndirilməsi anlamı verən hadisədir.

Sonda onu da deyək ki, Bakı səmasında dalğalanan Azərbaycan, Türkiyə və Pakistan bayraqları sadəcə bir mərasimin rəmzi deyildi. Bu mənzərə müasir beynəlxalq münasibətlər sistemində yeni güc balansının yaranmaqda olduğunun göstəricisidir. Üç qardaş ölkənin liderlərinin eyni tribuna arxasında dayanmaları dünyaya həm mənəvi, həm də siyasi baxımdan çoxşaxəli bir mesaj idi. Əminik ki, bu mesaj gələcəkdə daha fərqli nümunələr və praktiki addımlarla dolğunlaşacaqdır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

*9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür*

# Xalqımızın bayraq sevgisi Vətənə qələbələr qazandırıb

## *Qarabağ Zəfəri bu ali duyğunun zirvəsi oldu*



**Bakıda möhtəşəm Dövlət Bayrağı Meydanı açılanda mən çıxış edərkən demişdim ki, gün gələcək və Azərbaycan Bayrağı işğal edilmiş torpaqlarda, o cümlədən Şuşada qaldırılacaqdır. Bax, bu gün gəldi.**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Şuşa şəhəri, 15 yanvar 2021-ci il.**

**Azərbaycan Bayrağı sadəcə bayraq deyil. O bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir. Bu bizim müstəqil dövlətimizin rəmzidir. Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin...**

***Heydər ƏLİYEV,***
***Ümummilli lider***

**Mən səni Ağdamda, Şuşada, Xankəndidə, Laçında görmək istəyən əlli milyondan biri idim, Azərbaycan Bayrağı. Gördüm. Elə bildim ki, oralarda yer də, göy də sənin rənglərindən rəng alaraq möhtəşəm bir əsrarəngizlik qazanmışdı. Ağdamda çöllər, Şuşada dağlar, Laçında dərələr, Xankəndidə isə ... otuz il sənin həsrətini çəkən meydanlar indi sənin rənglərinlə süslənirdi, üçrəngli müqəddəsimiz, Tanrının bəxş etdiyi, baş əydiyimiz tutiyəmiz.**

İşğaldan azad edilmiş istənilən kənddə, şəhərdə Azərbaycan Bayrağını görəndə şəhidlərə rəhmət diləyir, qazilərə şəfa arzulayır, Azərbaycan əsgərinin əzminə, qüdrətinə baş əyirdim. O yerlərin istənilən ünvanında səni – Azərbaycan Bayrağını görəndə “Bayrağın daim uca olsun, cənab Ali Baş Komandan!” – deməmdən ötə bilmirdim.

Səninlə hər görüşdə böyük ədibimiz Cəfər Cabbarlının “Azərbaycan Bayrağına” adlı şeirini xatırlayır, yadımda qalan sətirləri təkrar edirdim:

***“Buraxınız, seyr edəyim düşünəyim, oxşayayım,***
***Şu sevimli üç boyalı, üç mənalı bayrağı.***
***Mələklərin qanadımı üzərinə kölgə salan?***
***Nə imiş bu, aman Allah?! Od yurdunun yaprağı!***
***Göy yapraqlı, al çiçəkli yaşıl otlar topasımı?***
***Xayır, xayır! Çiçək solur, otlar yerdə tapdanır.***
***Fəqət bizim bayrağımız ucaları pək seviyor,***
***Yıldızlardan, hilaldan da yüksəklərdə fırlanıyor”.***

Cəfər Cabbarlı Azərbaycan Bayrağının ulduzlardan, Aydan da yüksəklərdə fırlandığını ötən əsrin əvvəllərində demişdi. Prezident İlham Əliyev isə Azərbaycan Bayrağını bu əsrin əvvəllərində kosmosa göndərdi. Bu gün üçrəngli dövlət Bayrağımız kosmosdakı rabitə və müşahidə peyklərimizin üstündə Cəfər Cabbarlı demişkən, “fırlanıyor”.

...Təbii ki, müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli dövlət bayrağının təsis edilməsi, cəmi 23 aydan sonra həmin dövlət atributumuzun da digər atributlarımız kimi yasaqlanması, ulu öndər Heydər Əliyevin əsrin sonuncu onilliyində Xalq Cümhuriyyətimizin bayrağını Naxçıvanda qaldırması, Bakıda Dövlət Bayrağı Meydanının açılması və bu qəbildən olan digər tarixi faktlar barədə dəfələrlə yazıldığına görə o qədər də təfərrüata varmaq istəmirik. Ancaq elə məqamlar var ki, adam onu təkrar edəndə “ürəyindən tikan çıxmış kimi” olur.

Məsələn, Prezident İlham Əliyev Bakıda Dövlət Bayrağı Meydanının açılışında demişdi: “Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına!”.

Maraqlıdır, həmin mərasim, yəni adıçəkilən meydanın açılışı 2010-cu il sentyabrın 1-də olmuşdu. Düz on il sonra, yenə də bir payız fəslində Azərbaycan Ordusu işğal altındakı torpaqlarımızı düşmən tapdağından kəndbəkənd azad etdikcə yaşayış məntəqələrinin hamısında dövlət bayrağımız qaldırılırdı. O zaman mən həmin mənzərəni “Bayraqların paradı” adlandırmışdım. Qocaman həmkarlarımızdan biri isə mənimlə razılaşmamışdı: “O, bayraqların paradı deyil, Prezident İlham Əliyevin sərkərdəlik məharətinin təntənəsidir”.

Təbii ki, hər ikimiz haqlı idik. Fakt ondan ibarət idi ki, bir tərəfdən bayrağımız cəbhədə, öndə olan əsgərlərin yoluna işıq salmaq istəyirmiş kimi döyüşən hərbi hissələrin ardınca gedirdi, digər tərəfdən, ulu öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin milli ideyalara bağlılığı həm də bayrağımıza münasibətdə açıq-aydın görünürdü. Prezidentin “Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında Əsasnaməyə edilmiş əlavə və dəyişikliklərin təsdiqlənməsi” və “Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında” Qanunu imzalaması da dövlətçiliyə sədaqətin, yüksək ehtiramın ifadəsidir.

Prezident Kitabxanasının elektron materiallarında (preslib.az) oxuyuruq ki, Prezident İlham Əliyevin 2009-cu il noyabrın 17-də imzaladığı Sərəncamla Azərbaycanın üçrəngli bayrağının ilk dəfə qəbul edildiyi 9 noyabr (1918-ci il) tarixi Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi təsis edilmişdir. 2010-cu ildən etibarən noyabrın 9-u Dövlət Bayrağı Günü qeyd olunur.

Qətiyyətlə və fəxrlə deyə bilərik ki, son 20 ildə Azərbaycanın Dövlət Bayrağının dünyanın az qala hər yerində dalğalandığının şahidi oluruq. Respublikamız öz dövlət müstəqilliyini bərpa edəndən qısa müddət sonra biz BMT-nin üzvü olduq və bayrağımız həmin mötəbər beynəlxalq təşkilatda dünya ölkələrinin bayraqları ilə yanaşı dalğalandı. Sonra ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıtmasıyla gənc müstəqil dövlətimizin dostları və tərəfdaşları birəbeş qat artdı və səfirlik, konsulluq açdığımız ölkələrdə Azərbaycan bayraqlarının sayı aydan-aya çoxaldı.

Daha sonra Prezident İlham Əliyevin siyasi-diplomatik uğurlarının beynəlxalq aləmdəki əks-sədası olaraq, Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçildi və iki il həmin beynəlxalq təşkilatın tədbirləri Azərbaycanın sədrliyi ilə Bayrağımızın altında keçirildi. Daha sonra Qoşulmama Hərəkatına sədrliyimiz gəldi. Dünyanın yüzlərlə siyasi lideri dəfələrlə Azərbaycan Bayrağının altında yığışdı.

Sonra ölkəmiz daha mötəbər bir tədbirə – BMT xətti ilə keçirilən COP29-a ev sahibliyi etdi. Həmin tədbirə gələn dünya siyasətçilərini iki lider qarşılayırdı – BMT-nin Baş katibi Antonio Quterreş və Azərbaycan Prezidenti İlham Əliyev. Liderlərin qarşılandığı xüsusi zalda iki bayraq qoyulmuşdu – BMT-nin və Azərbaycanın bayraqları.

Bütün bunlarla yanaşı, biz Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) sədrlik etmişik, həmin qurum Türk Dövlətləri Təşkilatına (TDT) çevriləndən sonra onun mühüm tədbirlərindən bir neçəsi Bakıda – Azərbaycan Bayrağının altında keçirilmişdir. Bir sözlə, dünya Azərbaycan Bayrağının əsrarəngiz rənglərini görür, sevir və salamlayır.

Sonda daha iki faktı xatırlatmaq istəyirəm. Əslində bu barədə bir dəfə yazmışam. Ancaq indiki əlamətdar dövrdə – Zəfər Gününün beş illiyində – o beşilliyin ertəsi günü Dövlət Bayrağı Günüdür, onun ertəsi günü Ermənistan rəhbərliyinin kapitulyasiya aktını imzadığı gün, sonra Konstitusiyamızın 30 illiyi gəlir – həmin faktları təkrarən xatırlatmağa dəyər.

*Birinci fakt:* Prezident İlham Əliyev 2010-cu ildə Dövlət Bayrağı Meydanının açılışı mərasimində çıxış edərkən “bu bayrağı Şuşada, Xankəndidə də qaldıracağıq” – deyəndə dönüb yanımdakı köçkün qocaya baxmışdım. Qoca üzündəki qırışların arasıyla axan göz yaşlarını silirdi və onun gözlərindən oxuduğum ifadələri qələmə almaq mənim üçün həddən artıq çətindir. Dilimdən sadəcə bir söz çıxmışdı: “Salam, Azərbaycan Bayrağı!”.

*İkinci fakt:* Allah həmişə mənim tərəfimdə olub. Elə Dövlət Bayrağımızı hər gün, hər an uca, dalğalanan şəkildə görməyi də mənə Allah nəsib edib. Jurnalistlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün Prezident Sərəncamı əsasında tikilmiş yaşayış binasında mənzil verilmiş qələm sahiblərindən biri kimi, uzun müddət hər səhər və hər axşam o uca bayrağın yanından keçmiş, onu salamlamışam.

...Bu il avqustun 8-də isə Azərbaycan Bayrağı dünyanın ən qüdrətli dövlətinin Baş ofisində – Ağ Evdə dalğalandı. Liderimizin və bayrağımızın Ağ Evdə o şəkildə – inam və ehtiramla qarşılanması çoxmilyonlu dostlarımızı, tərəfdaşlarımızı məmnun, bədxahlarımızı isə məyus və peşman etmişdi.

Həmin məmnunluğun da, məyusluğun da davamı gəlsin, İnşallah! Həmişə ucalarda olasan, Azərbaycan Bayrağı!

***İttifaq MİRZƏBƏYLİ,***
***Əməkdar jurnalist***

# Paytaxtda Zəfər təntənələri

**Artıq neçə gündür ki, Bakımız bayramsayağı bəzədilib. Hər tərəfdə – uca dirəklərdə, eyvanlarda, vitrinlərdə üçrəngli bayrağımız qürurla dalğalanır. Musiqi sədaları payız küləklərinə qoşularaq dalğa-dalğa ətrafa yayılır. Möhtəşəm Hərbi parad, Qələbə marşları, hərbi qulluqçular və döyüş texnikasının paradı həm Zəfər Gününün, həm də Dövlət Bayrağı Gününün təntənələri şəhərdə əsl bayram ovqatı yaradıb. Qardaş Türkiyə və Pakistan rəsmilərinin, çeşidli silahlı qüvvələrin yürüşü hər kəsə ecazkar təsir bağışlayıb.**

**Bakının ayrı-ayrı rayonlarında da rəngarəng bayram tədbirləri keçirilib və Vətən müharibəsində 44 günlük Zəfər yürüşünün tarixi, ictimai-siyasi önəmindən, qəhrəmanlıq salnaməmizin silinməz səhifələrinə çevrilməsindən iftixarla bəhs olunur. Həmin bayram mərasimlərinin bir qismindən qeydləri oxucularımıza təqdim edirik.**

## Nəsimi

**Paytaxtın Nəsimi rayonundakı idarə və müəssisələrdə, təhsil ocaqlarında Zəfər Günü silsilə tədbirlərlə əlamətdar olub.**



Mərasimlərdə qeyd edilib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin əsas istiqamətlərini şəhid ailələrinin, müharibə əlillərinin sosial müdafiəsinin gücləndirilməsi, onların problemlərinin vaxtında həllinə nail olunması təşkil edir. Müstəqil Azərbaycanımızın tarixinə qızıl hərflərlə yazılmış 44 günlük Vətən müharibəsi şəhidlərinin ailələrinə, qazilərinə Nəsimi rayonunda da daim həssaslıqla yanaşılır, yüksək diqqət və qayğı göstərilir. Məktəblilər təqdim etdikləri şeir, mahnı və kompozisiyalarla tədbir iştirakçılarına xoş ovqat yaşadıblar.

Bayramqabağı abadlıq tədbirləri çərçivəsində rayonun küçə və parklarında, məhəllələrində xeyli iş görülüb. Zəfər Günü münasibətilə "Abad həyət" sakinlərin istifadəsinə verilib və ağacəkmə aksiyası keçirilib. Bayram ərəfəsində Nizami Kino Mərkəzinin inzibati binasında növbəti əmək yarmarkası təşkil edilib.

## Səbail

**Milli qürurumuzun təntənəsi olan 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü Səbail rayonunda təmtəraqla qeyd olunub.**

Bayram mərasimində 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfərdən iftixarla bəhs edilib, şəhid ruhları ehtiramla anılıb. Natiqlər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Xankəndidə separatçı rejimin ləğv edilməsini, Azərbaycanın müstəqilliyini, hər bir qarış torpağı üzərində suveren hüququnun tam bərpa edilməsi kimi tarixi missiyanın tam yerinə yetirildiyini diqqətə çatdırıblar.




Çıxışlarda vurğulanıb ki, ölkəmizdə şəhid ailələrinə, müharibə veteranlarına və qazilərə yüksək diqqət və qayğı göstərilir, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyeva tərəfindən bütün dövlət qurumları qarşısında bu insanların problemlərinin həlli bir nömrəli vəzifə kimi müəyyən edilib. Sonda məlum 23 saatlıq antiterror əməliyyatından bəhs edən "Səbrin sonu" sənədli filmi nümayiş olunub.

Səbaillilər Badamdar qəsəbəsindəki qəbiristanlıqda Vətən müharibəsi şəhidlərinin məzarlarını və "Şəhidlər" abidə kompleksini də ziyarət ediblər.

## Yasamal

**Rayon ictimaiyyəti Zəfər Günü münasibətilə ulu öndər Heydər Əliyevin məzarını, Yasamal rayon şəhidlər xatirə kompleksini və Hərbi Memorial Məzarlığı ziyarət edib. Ümummilli liderin və ərazi bütövlüyümüz uğrunda şəhid olan Vətən oğullarının əziz xatirəsi yad edilib, ruhlarına dualar oxunub.**



Rayon icra hakimiyyətinin, Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının və Azərbaycan Milli Konservatoriyasının birgə təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində 8 Noyabr – Zəfər Gününə həsr edilmiş "Suverenliyimizin Zəfər təntənəsi" adlı bayram gecəsi iştirakçılara xoş ovqat bəxş edib. Gecədə çıxış edənlər Ali Baş Komandan İlham Əliyevin siyasi rəhbərliyi və sərkərdəlik məharəti ilə Vətən müharibəsində qazanılan qələbənin müasir Azərbaycan tarixinin ən parlaq səhifəsi kimi yaddaşlara həkk olunduğunu bildiriblər. Qeyd edilib ki, əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş ordu quruculuğu strategiyasının Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Qarabağ azad edilib və Azərbaycanın ərazi bütövlüyü və suverenliyi tam bərpa olunub.

Çıxışlardan sonra Vətən müharibəsinə həsr edilən filmə baxış keçirilib. Tədbir Azərbaycan Milli Konservatoriyasının incəsənət ustalarının ifasında bayram konserti ilə başa çatıb.

## Suraxanı

**"Konstitusiya və Suverenlik İli" çərçivəsində Şanlı tariximizin ən şərəfli və qürurverici səhifələrinə həkk olunmuş 8 Noyabr – Zəfər Gününün 5-ci ildönümü münasibətilə Suraxanıda "Zəfər Bayrağına düzlən!" adlı vətənpərvərlik tədbiri keçirilib.**



Əvvəlcə Mədəniyyət Nazirliyinin və Azərbaycan Fotoqraflar Birliyinin təşkilatçılığı ilə düzənlənən "Zəfərin ruhu" adlı fotosərgiyə baxış olub. Orada nümayiş olunan əsərlər Azərbaycan Ordusunun şücaətini, xalqımıza bəxş etdiyi əbədi Zəfər ruhunu, həmçinin işğaldan azad edilmiş torpaqlarımızda aparılan böyük quruculuq və dirçəliş prosesini, o cümlədən Qarabağ təbiətinin füsunkar gözəlliklərini rəssam və fotoqrafların gözü ilə əks etdirirdi.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, müharibə və Silahlı Qüvvələr veteranı, polkovnik Abdulla Qurbaninin ssenarisi və rejissorluğu ilə hazırlanmış "Zəfər Bayrağına düzlən!" adlı vətənpərvərlik tədbiri azadlığına qovuşmuş Şuşa şəhərinə sancılan və Qələbəmizin rəmzinə çevrilən Zəfər bayrağının fəxri qaravolun müşayiətilə zala gətirilməsi ilə başlanıb. Bakı Bələdiyyə Teatrının aktyorları 2020-ci il 27 sentyabrda başlanan müqəddəs savaşın tarixindən söhbət açıb, ulu öndər Heydər Əliyevin zəkasının işığında Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış Şanlı Qələbədən bəhs edən kompozisiyalarla çıxış ediblər. Zəfərimizi tərənnüm edən mahnılar, xoreoqrafik kompozisiyalar təqdim olunub.

## Nizami

**Zəfər Gününün qeyd olunması Nizami rayonunda "Vətən Müharibəsi Şəhidləri" Memorial Kompleksinin və Keşlə Şəhidlər xiyabanının ziyarəti ilə başlanıb. Rayon rəsmiləri və ictimaiyyət nümayəndələri abidələr önünə gül dəstələri düzüb, canlarını Vətənə qurban verən qorxmaz oğullarımızın xatirələrini ehtiramla yad ediblər.**



Bayram ərəfəsində isə rayon icra hakimiyyəti və YAP Nizami rayon təşkilatının birgə təşkilatçılığı ilə deputatların, şəhid ailələrinin, qazilərin və gənclərin iştirakı ilə "Şanlı Zəfər – milli qürurumuzun təntənəsi" adlı ümumrayon tədbiri keçirilib. Şəhid Kənan Süleymanlının anası Səadət Şirəliyeva və Vətən müharibəsi iştirakçısı Zöhrab Vəliyev çıxış edərək ölkəmizdə şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına göstərilən hərtərəfli qayğı və diqqətə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya dərin minnətdarlıqlarını bildiriblər.

Sonda bayram konsert proqramı nümayiş olunub, Fövqəladə Hallar Nazirliyi Akademiyasının Orkestrinin və tanınmış incəsənət nümayəndələrinin milli-vətənpərvərlik mövzularında çıxışları dinlənilib.

## Binəqədi

**Zəfər Günü və Dövlət Bayrağı Günü münasibətilə Binəqədi rayonunun küçə və prospektləri başdan-başa Azərbaycan Respublikasının üçrəngli bayrağı ilə bəzədilib.**



Silsilə tədbirlər çərçivəsində Xocəsən qəsəbəsində şəhid ailələri və müharibə əlillərinin yaşadığı kompleksin yaxınlığında yerləşən ərazidə ağacəkmə aksiyasında hər kəs həvəslə iştirak edib. 600-dən çox meşə ağacları və dekorativ kollar əkilib.

"Konstitusiya və Suverenlik İli" çərçivəsində Şanlı Qələbəmizin 5-ci ildönümünə həsr olunmuş "8 Noyabr – qürurumuzun, varlığımızın, birliyimizin təntənəsi" adlı ümumrayon mərasimi iştirakçılara unudulmaz təsir bağışlayıb. Şanlı Qələbəmizin 5 illiyinə həsr olunmuş sənədli film göstərilib. Sonra çıxış edən natiqlər vurğulayıblar ki, qazanılan Qələbə yalnız silahın deyil, milli iradənin, ölkə rəhbərinin müdrik siyasətinin və xalqın dəmir birliyinin nəticəsidir. Azad Qarabağda bu gün ucalan hər bina, açılan hər məktəb, səslənən hər azan o möhtəşəm günlərin davamıdır. Bu Qələbənin işığı gələcək nəsillərin yolunu daim nurlandıracaq.

Tədbirin bədii hissəsində "Amarok" ritm qrupunun, populyar müğənnilərin ifasında biri-birindən gözəl musiqilər səslənib. Azərbaycan Dövlət Rəqs Ansamblının ifasında möhtəşəm "Zəngəzur yallısı" nümayiş edilib. Sonda iştirakçılar böyük atəşfəşanlığı seyr ediblər.

## Xəzər

**Zəfər Günü ilə bağlı toplantıda rayon rəsmiləri, hüquq-mühafizə orqanlarının rəhbərləri, inzibati ərazi dairələri üzrə nümayəndələr, bələdiyyə sədrləri, şəhid ailələri, qazilər və müharibə iştirakçıları, rayonun idarə-təşkilat, təhsil və səhiyyə müəssisələrinin rəhbərləri, ziyalılar, gənclər iştirak ediblər.**



Əvvəl rəsm sərgisi nümayiş olunub. Ardınca tarixi qələbəmizə həsr olunmuş "Qızıl payız" adlı sənədli film nümayiş etdirilib. Çıxışlarda tarixi günün ümummilli önəmindən danışılıb. Vətən Müharibəsi Qəhrəmanı, şəhid Elçin Mansurovun anası Məleykə xanım Məcidova torpaqlarımızın 30 illik işğalına son qoyulduğunu qeyd edərək əbədiyyət ünvanlı oğulların ailə üzvlərinə və qazi olanlara dövlət tərəfindən göstərilən diqqət və qayğıdan hədsiz razılığını ifadə edib.

Çıxışlardan sonra respublikanın tanınmış incəsənət xadimlərinin iştirakı ilə konsert proqramı keçirilib. Konsert proqramı iştirakçılar tərəfindən böyük maraq və coşqu ilə qarşılanıb.

## Dövlət Sərhəd Xidməti

**Vətənimizin qəhrəman sərhədçilərinin də sevinc və fərəh duyğuları sonsuz idi. Xidmətin struktur qurumlarında və hərbi hissələrində bayram təntənələri yaddaqalan olub.**




DSX aparatında keçirilən mərasimdə Vətən müharibəsində qazanılan tarixi Qələbənin Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin müdrik rəhbərliyi, sərkərdə məharəti, xalqımızın birliyi, Silahlı Qüvvələrimizin misilsiz fədakarlığı və qəhrəmanlığı nəticəsində əldə olunduğunu xüsusi vurğulayan DSX-nın rəisi general-polkovnik Elçin Quliyev Zəfər Günü münasibətilə şəxsi heyəti təbrik edib, xidmətlərində uğurlar arzulayıb.

Tədbirdə Vətən müharibəsi zamanı DSX-nin qarşısına qoyulan tapşırıqların layiqincə icra olunduğu bildirilib, keçirilən əməliyyatlarda sərhədçilərin qəhrəmanlıqlarından danışılıb, igidlikləri ilə örnək olan şəhidlərimizin hər zaman ehtiramla xatırlanacağı, qanları ilə yazdıqları tarixi Zəfərin daim uca tutulacağı böyük qürur hissi ilə qeyd edilib.

Tədbirin sonunda Böyük Zəfərə həsr olunan "Dövlət xətti" sənədli filmi nümayiş olunub.

## Ekologiya və Təbii Sərvətlər Nazirliyi

**Zəfər Gününün 5-ci ildönümünü nazirlik rəsmiləri və əməkdaşları Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası ilə əlamətdar ediblər. Yerli torpaq–iqlim şəraitinə uyğun olaraq çoxlu sayda Eldar şamı və zeytun ağacları əkilib.**



Daha sonra nazirlikdə Vətən müharibəsi iştirakçılarının və şəhid ailələri üzvlərinin iştirakı ilə Zəfər Günü qeyd olunub. Ölkəmizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib. Çıxışlarda qeyd olunub ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılan Zəfər böyük tarixi hadisə olmaqla yanaşı, Azərbaycan xalqı üçün daimi qürur mənbəyidir. Bildirilib ki, bu möhtəşəm Qələbə ordumuzun qəhrəmanlığı və xalqımızın birliyi sayəsində əldə olunub.

## Dövlət Su Ehtiyatları Agentliyi

**Bayram mərasimdə Agentliyin rəhbər heyəti, şöbələrin əməkdaşları, həmçinin şəhid ailələri və qazilər iştirak ediblər.**



Əvvəlcə Vətənimizin azadlığı və suverenliyi uğrunda canlarını qurban vermiş qəhrəman şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra çıxış edənlər 44 günlük Vətən müharibəsinin xalqımızın birlik, cəsarət və qətiyyət rəmzinə çevrildiyini, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qazandığı şanlı Zəfərin Azərbaycan tarixində əbədi iz qoyduğunu vurğulayıblar.

## Əqli Mülkiyyət Agentliyi

**Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Respublika Elmi-Texniki Kitabxanasının təşkilatçılığı və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Bakı–Şamaxı yolunun Pirəkəşkül ərazisindən keçən hissəsində "44 ağac əkək" devizi ilə ağacəkmə aksiyası keçirilib.**



Ekoloji davamlılıq, ətraf mühitin yaşıllaşdırılması və qorunması məqsədilə təşkil edilən aksiya zamanı ərazidə Eldar şamı və zeytun ağaclarının hər birindən 44 ədəd əkilərək aqrotexniki qaydada qulluq göstərilib.

44 günlük Vətən müharibəsində qazanılmış Zəfərin 5 illiyi münasibətilə keçirilən aksiyanın əsas məqsədlərindən biri həm də ekoloji vəziyyətin sağlamlaşıdırılması, cəmiyyətdə ekoloji mədəniyyəti və təbiətə qayğını təbliğ etmək ənənələrini davam etdirmək, ağac əkilməsini və yaşıllıqların çoxaldılmasını təşfiq edərək ətraf mühitin qorunmasına töhfə verməkdir.

*Səhifəni hazırladı:*
*Ə.NƏCƏFXANLI*
*XQ*

# Bölgələrdə Zəfər Günü təntənələri

**Xalqımıza 30 illik məyusluq və ağrı-acılardan sonra xoşbəxtlik bəxş etmiş, Qarabağda əmin-amanlığı bərpa etmiş, hər bir soydaşımıza sonsuz öyünc gətirmiş Vətən müharibəsində tarixi qələbənin 5-ci ildönümü ölkəmizin hər yerində böyük təntənə ilə qeyd edilir. Keçirilən şənliklərdə, anım mərasimlərində, yubiley məclislərində öz qanları ilə Azərbaycana tarixi Zəfər qazandırmış şəhidlərimizin xatirəsi dərin ehtiramla yad edilir, ordumuzun rəşadətindən, əsgər və zabitlərimizin hünərindən iftixar və minnətdarlıqla bəhs olunur.**

## Naxçıvan

**Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyinin dəstəyi, Naxçıvan Dövlət Universiteti və Milli Müdafiə Universitetinin tabeliyində fəaliyyət göstərən Naxçıvan Hərbi Kollecinin birgə təşkilatçılığı ilə "Zəfər Günü – əbədi qürurumuz" adlı tədbir keçirilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli mərasimdə iştirak edib.**



Ümummilli lider Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Naxçıvan televiziyasının Zəfər Gününün 5 illiyi münasibətilə hazırladığı videoçarx nümayiş etdirilib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli kollecin müəllim, zabit və kursantlarını Azərbaycan xalqının şərəf, qürur və milli iftixar rəmzinə çevrilmiş 8 Noyabr – Zəfər Günü münasibətilə səmimi-qəlbdən təbrik edib, əlamətdar gündə şəhidlərimizin əziz xatirəsinə ehtiramını bildirib, Vətən uğrunda sağlamlığını itirənlərə şəfa diləyib.

Fuad Nəcəfli kursantlara xitab edərək deyib ki, siz bu böyük tarixin canlı şahidləri, gələcəyin zabitlərisiniz. Zəfər yolu şəhidlərimizin qanı, qazilərimizin fədakarlığı, xalqımızın birliyi ilə yazılıb. Bu müqəddəs mirası qorumaq, suverenliyimizi möhkəmləndirmək, Vətənə sədaqətlə xidmət etmək sizin əsas vəzifənizdir. Qoy, sizin hər addımınızda Zəfər ruhu, Vətən sevgisi və milli məsuliyyət olsun.

Tədbir bədii hissə ilə davam edib. Kursantlar Hərbi Kollecin marşını səsləndirib, Naxçıvan Dövlət Universitetinin Simfonik orkestri vətənpərvərlik və qələbə ruhlu musiqi nömrələri təqdim ediblər.

***

**AMEA Naxçıvan Bölməsində "8 Noyabr – Zəfər bayramı" mövzusunda elmi konfrans keçirilib. Əvvəlcə şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**



AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev əməkdaşları Zəfər bayramı münasibətilə təbrik edib, Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamı ilə 8 Noyabr gününün Zəfər Günü kimi qeyd olunmasının böyük tarixi və mənəvi əhəmiyyətini vurğulayıb.

Akademik qeyd edib ki, XIX əsrin əvvəllərində imzalanan Türkmənçay və Gülüstan müqavilələri ilə Cənubi Qafqaz Rusiya imperiyasının tərkibinə qatılıb, Azərbaycanın tarixi torpaqları süni şəkildə bölünüb, bununla da bölgədə demoqrafik və siyasi tarazlıq pozulub. Bu dövrdən etibarən ermənilərin kütləvi şəkildə Azərbaycan torpaqlarına köçürülməsi prosesinə başlanılıb və gələcək münaqişələrin təməli qoyulub. Sonrakı dövrlərdə isə ermənilərin Azərbaycana ərazi iddiaları davamlı olaraq güclənib.

## Gəncə

**Azərbaycan Dövlət Aqrar Universitetində Zəfər Günü münasibətilə təntənəli tədbir təşkil olunub. Mərasim əvvəlcə universitet rəhbərliyi və qonaqlar tərəfindən Şəhidlər Xatirə Kompleksinin ziyarəti ilə başlayıb və şəhidlərin xatirəsi ehtiramla yad edilib.**



Universitetin rektoru Zəfər Qurbanov çıxışında tədbir iştirakçılarını Zəfər Günü münasibətilə təbrik edib. O bildirib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan Qələbə xalqımızın birliyinin, ordumuzun gücünün və dövlətimizin qüdrətinin təntənəsidir. "Bu Qələbə gələcək nəsillər üçün qürur mənbəyi olacaq. Universitet kollektivi şəhidlərimizin ruhu qarşısında baş əyir, qazilərimizlə fəxr edir", – deyə rektor vurğulayıb.

## Goranboy

**Rayonun Fəxralı kəndində Zəfər Günü ilə bağlı ağacəkmə aksiyası keçirilib. Tədbirdə Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev, rayonun hüquq-mühafizə orqanlarının rəhbərləri, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**



Aksiya zamanı torpaq-iqlim şəraitinə uyğun olaraq müxtəlif növ ağaclar, o cümlədən Eldar şamı və zeytun ağacları əkilib. Mərasimin keçirilməsində məqsəd qəhrəman şəhidlərimizin əziz xatirəsini yad etmək, həmçinin yaşıl mühitin qorunmasına və ekoloji tarazlığın bərpasına töhfə vermək olub.

## Şəmkir

**Şəmkir Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Zəfər Günü münasibətilə "Vətən müharibəsi qəhrəmanları ilə bir gün" adlı tədbir keçirilib. Mərasimdə Şəmkir rayon rəhbərliyi, şəhid ailələri, qazilər və ictimaiyyət nümayəndələri iştirak ediblər.**



RİH başçısı Rəşad Tağıyev çıxışında qeyd edib ki, Vətən müharibəsində Azərbaycan Ordusunun əldə etdiyi tarixi Qələbə Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi, xalqımızın birliyi və ordumuzun gücü sayəsində mümkün olub.

## Lənkəran

**Zəfər Günü Lənkəranda da silsilə tədbirlərlə qeyd olunub. İcra hakimiyyətinin başçısı Taleh Qaraşov, rayonun hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, eləcə də şəhid ailələrinin üzvləri, qazilər, ictimaiyyətin nümayəndələri şəhərdə milli qəhrəmanların şərəfinə ucaldılmış abidələri ziyarət edib, önünə gül dəstələri düzüblər.**



Sonra Şəhidlər xiyabanında Vətənimizin azadlığı, suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin əziz xatirəsi ehtiramla yad olunub, ruhlarına dualar edilib. İcra hakimiyyətinin başçısı burada şəhid ailələrinin üzvləri və qazilərlə görüşüb, onların qayğı və problemləri ilə maraqlanıb.

***

**"Xalqın zəfər təntənəsi" adlı tədbirdə şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları, icra hakimiyyətinin və digər dövlət qurumlarının rəhbər şəxsləri, Dövlət Sərhəd Xidmətinin "N" saylı hərbi hissəsinin əsgər və zabit heyəti, gənclər, könüllülər, idmançılar iştirak ediblər.**

Çıxışlarda vurğulanıb ki, Vətən müharibəsi Azərbaycan xalqının milli birliyini və vətənpərvərlik ruhunu misilsiz şəkildə nümayiş etdirdi. Məhz bu həmrəylik və birlik sayəsində xalqımız böyük qələbə qazandı və bu qələbə ölkəmizi bərpa, yenidənqurma və inkişaf mərhələsinə yüksəltdi.

Mərasim gənclər və könüllülər tərəfindən hazırlanmış bədii hissə ilə davam edib. İdmançılar boks, cüdo, karate, ağırlıqqaldırma və digər idman növləri üzrə nümunəvi çıxışlar nümayiş etdiriblər. Gənc rəssamların əl işləri və sənətkarlıq nümunələri sərgilənib. Səhnədə gənc müğənnilərin ifasında vətənpərvərlik ruhunda mahnılar və rəqslər təqdim olunub, zəfərə həsr edilmiş şeirlər səsləndirilib.

## Laçın



**Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin dəstəyi və rayondakı Bərpa, Tikinti və İdarəetmə Xidmətinin təşkilatçılığı ilə "Zəfərin səsi – Laçın 2025" adlı tədbir keçirilib.**

Mərasimi açan Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov vurğulayıb ki, azadlıq və bütövlük uğrunda canlarını fəda edən şəhidlərin xatirəsi xalqımız tərəfindən daim dərin ehtiramla yad olunur. Məhz onların qəhrəmanlığı və igid əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün üçrəngli Bayrağımız işğaldan azad olunmuş bütün torpaqlarımızda əzmlə dalğalanır. Həmçinin vurğulayıb ki, Zəfərin rəmzinə çevrilən Laçında bu bayramın qeyd olunması həm qayıdışın, həm də dirçəlişin simvoludur. Bu torpaqlara həyatın, inkişafın və insan nəfəsinin qayıdışı şəhidlərimizin ruhuna ən böyük ehtiramdır.

Rəsmi hissədən sonra tədbir Heydər Əliyev küçəsində ağacəkmə aksiyası ilə davam edib.

## Ağdam

**Şəhərdə 8 Noyabr - Zəfər Günü ilə əlaqədar dəyirmi masa keçirilib. Tədbirdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Ağdam, Füzuli və Xocavənd rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları, ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri və qazilər iştirak ediblər.**



Dəyirmi masada çıxış edənlər 44 günlük Vətən müharibəsində qazanılan şanlı Qələbədən, Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasından danışıblar. Bildirilib ki, 30 ilə yaxın işğal altında olan torpaqlarımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Azərbaycan Ordusu tərəfindən cəmi 44 gün davam edən Vətən müharibəsində azad olundu, tarixi ədalət bərpa edildi. Xalqımız Şuşa şəhərinin işğaldan azad edildiyi 8 Noyabr tarixini – Zəfər Gününü qürurla qeyd edir. Zəfər Günü Azərbaycan tarixinin qəhrəmanlıq salnaməsidir. Bu gün işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı tikinti-quruculuq işləri aparılır, infrastruktur layihələri həyata keçirilir, keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı təmin olunur.

## Mingəçevir

**8 Noyabr – Zəfər Günü münasibətilə Mingəçevirdə Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun xatirəsinə yaradılmış parkın açılış mərasimi keçirilib. Energetiklər yaşayış massivində, qəhrəmanın yaşadığı binaya onun son döyüş səhnəsini əks etdirən portret vurulub, binanın yaxınlığında, xatirə bulağının arxasında yaradılmış parkda yaşıllıq zolağı salınıb.**



Mingəçevir Şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov tədbiri açaraq Milli Qəhrəman Natiq Qasımovun şücaətindən, onun dünyada tanındığından söhbət açıb.

Milli Qəhrəmanın qardaşı Nofəl Qasımov, Birinci Qarabağ müharibəsi əlili Əbülfət Babayev Zəfər Günü təbriklərini çatdıraraq ölkə rəhbərinin göstərdiyi diqqət və qayğıdan danışıblar.

## Zaqatala

**Vətən müharibəsində Şanlı Qələbəmizin 5-ci ildönümü Zaqatala rayonunda da bayram əhvali-ruhiyyəsi ilə qeyd edilib. Rayon rəhbərliyi və ictimaiyyətin nümayəndələri əvvəlcə şəhər qəbiristanlığında şəhid məzarlarını ziyarət edib, sonra "Zəfər kompleksi" abidəsi önünə gül dəstələri düzüblər.**



Heydər Əliyev Mərkəzində keçirilən "Qarabağ, sən azadsan" adlı tədbirin iştirakçıları əvvəlcə foyedə yeniyetmə və gənc rəssamların parlaq qələbəmizin 5-ci ildönümünə və qəhrəman şəhidlərimizə həsr etdikləri rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar. Çıxışlardan sonra "Zəfər yolu" filmi nümayiş olunub.

Sonda tədbir iştirakçıları "Zəfər yürüşü"nə qatılıblar.

*Vaqif BAYRAMOV,*
*İlqar HƏSƏNOV,*
*Hamlet QASIMOV,*
*Səbuhi HƏSƏNOV,*
*Əlisəfa HƏSƏNOV*
*XQ*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 240 (30934) 9 noyabr 2025-ci il, bazar

# Zəfər təntənəsinin “şirin marafon”u

**Xəbər verdiyimiz kimi, Bakıda keçirilən ənənəvi bal yarmarkasının builki 25-ci yubiley satış-sərgisi Vətən müharibəsində tarixi zəfərin 5-ci ildönümünə həsr edilib. Dövlət müstəqilliyinin bərpasının 34-cü ildönümü günündə – 18 oktyabrda start götürmüş “şirin marafon” bu gün başa çatır.**



Kənd Təsərrüfatı Nazirliyi və “Aqrar Tədarük və Təchizat” ASC-nin təşkilatçılığı, Azərbaycan Arıçılar Assosiasiyasının tərəfdaşlığı ilə keçirilən yarmarkada bu il 43 regiondan 280-dən çox arıçı-fermer iştirak edib. Satış-sərgiyə çıxarılmış 100 tondan artıq təbii bal və 15-dən çox arıçılıq məhsulunun böyük hissəsini Bakı sakinləri və regionlardan gələnlər, paytaxtın qonaqları böyük maraq və həvəslə alıblar. 5 il əvvəlin Zəfər yürüşünün şanlı xronikasını öyünclə və təntənə ilə izlədiyimiz gündərdə tarixi Qələbəmiz şərəfinə təşkil edilmiş yarmarka süfrələrimizə bal şirinliyi paylayıb.

Satış-sərginin bağlanış günündə Qarabağ müharibəsi iştirakçısı olmuş bir arıçı soraqladıq. Öyrəndik ki, **Qax rayonundan gəlmiş “Zərqanad” kooperativinin sədri Kamran Seyidəli** I Qarabağ savaşının iştirakçısı olub. O, atəşkəsdən sonra kiçik zabit hazırlığı kursu keçərək 8 il cəbhə bölgəsində xidmətini taqım komandiri, baş çavuş kimi davam etdirib. Ordudan tərxis edildən sonra Kamran İlisuda dədə-baba məşğuliyyəti olmuş arıçılıq sahəsində bacarığını yoxlayıb.

Bir neçə arı ailəsi ilə fəaliyyətə başlayan veteran döyüşçü arıçılığın elmi əsaslarını mənimsəyib. Uğur qazandıqca təsərrüfatını genişləndirib, pətəklərin sayını 170-ə çatdırıb. 2 il əvvəl çevrəsindəki 12 təcrübəli arıçı ilə birləşib 1300 arı ailəsindən ibarət “Zərqanad” balçılıq kooperativini qurub. Öz balına isə Əqli Mülkiyyət Agentliyindən “Sarı pətək” adlı marka alıb. Vaxtilə böyük Səməd Vurğunun ov etdiyi, sonralar onun adını daşımış Səməd Vurğun adına sovxozun yerləşdiyi Turaclı kəndində fəaliyyət göstərən təsərrüfat mövsümə və arıların məhsuldar işləməsinə görə arandan başlamış yüksək dağlıq əraziyə qədər 4 dəfə yerini dəyişir.

Kamran ötən illərdə də yarmarkada fəal iştirak edib, gətirdiyi balın böyük hissəsini satıb. Bu il satış-sərgiyə 400 kiloqram bal və müxtəlif adda arıçılıq məhsulu gətirib. Rayona isə indi boş balonlarla qayıdır. Təcrübəli balçı ilə tanışlığımızı müsahibə ilə davam etdirdik.




***– Son illərdə bazar-dükanlara, hətta küçələrə də xeyli bal çıxarılır. Amma təbii, təmiz balı seçib-ayırmaq çətin olduğuna görə adamlar bu məhsulları almağa ehtiyat edirlər.***

– Düz deyirsiniz, təbii balla saxtasını zahirən ayırmaq çətindir. Bunu yalnız laboratoriya analizi müəyyən edə bilir. Təbii balın su göstəricisi 19 faizdən, saxarozası 5 faizdən yuxarı olmamalıdır. Yaxşı diastoza göstəricisi isə 10 faizdən yüksək sayılır. Mənim 4 növ balımın saxarozası 1,7 diastozası isə 13,9–29,4 faiz arasındadır. Təbii balın kiloqramı indi 30–35 manatdır. İşbazlar 2–3 manatlıq şəkəri bal şəklinə salaraq təmiz məhsul yetişdirənlərin halal qazancına şərik çıxmaq istəyirlər.

Qoy alıcılar aldanmasınlar. Təbii bal misilsiz məlhəmdirsə, saxta həməşik ziyanlıdır, üstəlik, pul itkisidir. Bu baxımdan, bal yarmarkası hər il xalqımıza yoxlanmış, təminat verilmiş təmiz bal təqdim edir. Odur ki, bu yarmarkanın təşkilatçılarına təşəkkür edirik. Həm biz rahat, geniş bazar qazanırıq, həm də alıcılar axtardıqları balı və arı məhsullarını bir ünvandan əldə edə bilirlər.

***– Arıçılığın səfası kimi, cəfası da varmı? Daha çox hansı çətinliklərlə üzləşirsiniz?***

– Çiçəklərdən zərrə-zərrə bal alınması ilə bağlı məşğuliyyət maraqlı, gərəkli və faydalı olsa da, o qədər də asan deyil. Əlavə çətinliyimiz arıların xəstəliklərdən qorumaq, ərazi əldə etmək və satışla bağlıdır. Yaxşı olar ki, arıçılara sabit yerlər ayrıla, keyfiyyətli dərmanlar ölkəmizdə istehsal edilə. Bazar-satış məsələsində də köməyə ehtiyacımız var.

***– Sizə halal və gərəkli işinizdə uğurlar arzulayırıq. Zəfər bayramınız da mübarək olsun!***

*Tahir AYDINOĞLU*
*XQ*

## Soydaşımıza “Çingiz Aytmatov medalı” təqdim edilib

**Qırğızıstan Milli Yazıçılar Birliyinin iclas zalında Əməkdar mədəniyyət işçisi, Azərbaycan Milli Elmlər Akademiyasının baş elmi işçisi, sənətşünaslıq üzrə fəlsəfə doktoru İftixar Piriyevlə görüş və onun yeni monoqrafiyalarının təqdimatı keçirilib.**



Mərasimdə Qırğızıstan Milli Yazıçılar Milli Birliyinin rəhbərliyi, Azərbaycanın Qırğızıstandakı səfirliyinin müşaviri, yazıçılar, alimlər, ictimai xadimlər və Bişkekdəki Azərbaycan, Tacikistan və Özbəkistan milli-mədəni mərkəzlərinin rəhbərləri iştirak ediblər.

Çıxış edənlər soydaşımızın yaradıcılığını və elmi fəaliyyətini yüksək qiymətləndiriblər. Qeyd edilib ki, o, iki xalq arasında elmi-humanitar əlaqələrə, teatr tarixi və nəzəriyyəsinin inkişafına mühüm şəxsi töhfələr verir. Onun “Elçinin teatrı: qeyri-səlis məntiq nəzəriyyəsi kontekstində absurd dram” və “Qeyri-səlis məntiq və teatr” monoqrafiyaları dünya teatra sənətinə hərtərəfli baxışı və xülasəni təqdim edir.

Beynəlxalq İssık-Kul Forumunun prezidenti və dünya şöhrətli yazıçının oğlu Əsgər Aytmatov qeyd edib ki, İftixar Piriyev teatr, poeziya və elmi-yaradıcılıq vasitəsilə yüksək mənəvi dəyərlərin təbliğindəki, eləcə də Ç.Aytmatovun humanist irsinin populyarlaşdırılmasındakı nailiyyətlərinə görə “Çingiz Aytmatov medalı” ilə təltif olunur. O, yüksək mükafatı qonağa təqdim edib. Mərasimdə həmyerlimizə böyük sufi şairi və maarifçisi Xocanəzər Xuvaydo adına beynəlxalq elm və təhsil fondunun fəxri sertifikatı da təqdim edilib.

*Səxavət HƏMİD*
*XQ*

## “Zəfərdən qələmə” müsabiqəsi başa çatıb

**Mədəniyyət Nazirliyi və Azərbaycan Teatr Xadimləri İttifaqının birgə təşkilatçılığı ilə keçirilən “Zəfərdən qələmə” adlı pyes müsabiqəsi başa çatıb.**

Müsabiqə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbənin beşinci ildönümünə həsr olunaraq, milli dramaturgiya sahəsində yeni bədii əsərlərin yaranmasını təşviq etmək məqsədilə elan edilmişdi.

Müsabiqəyə təqdim olunan əsərlərdə, həmçinin 2023-cü ildə Qarabağ bölgəsində həyata keçirilən antiterror tədbirləri, bu hadisələrin psixoloji və sosial təsirləri, qəhrəmanlıq nümunələri və xalqımızın Zəfəri əks etdirilməli idi.

Müsabiqədə birinci yerə “Killigil əfsanəsi” pyesinə görə Pərviz Seyidli (3000 manat), ikinci yerə “Aslan gözü” əsərinə görə Aytac Məmmədli (2500 manat), üçüncü yerə isə “Kimsəsiz” pyesinə görə Hikmət Orhun (1500 manat) layiq görülüblər.

## Hidayət Heydərov İslam Oyunlarının ikiqat qalibidir



**Azərbaycan cüdoçusu Hidayət Heydərov Səudiyyə Ərəbistanının paytaxtı Ər-Riyad şəhərində keçirilən VI İslam Həmrəyliyi Oyunlarında qızıl medal qazanıb.**

73 kiloqram çəki dərəcəsində çıxış edən idmançı həlledici görüşdə özbəkistanlı Şakram Əhmədovu məğlub edib. Bununla da H. Heydərov İslam Həmrəyliyi Oyunlarının ikiqat qalibi olub. O, 2017-ci ildə Bakıda keçirilmiş analoji yarışda da fəxri kürsünün ən yüksək pilləsinə qalxmışdı.

Bu gün tatamiyə çıxan digər cüdoçumuz Könül Əliyeva (48 kiloqram) finalda türkiyəli Tuğçe Bederə uduzaraq gümüş medalla kifayətlənib.

Aydan Vəliyeva (52 kiloqram) və Ruslan Paşayev (66 kiloqram) isə bürünc mükafat əldə ediblər.

Qeyd edək ki, Azərbaycanı VI İslam Həmrəyliyi Oyunlarında 20 idman növündə 179 idmançı təmsil edir

*T.RÜSTƏMLİ*
*XQ*

# Hərbi Liseydə Şəhidlər muzeyi

**Cəmşid Naxçıvanski adına Hərbi Liseyin Şəhidlər muzeyindəyik. Vətənimizin bütövlüyü və suverenliyi uğrunda son nəfəsinə qədər rəşadətlə döyüşərək şəhidlik zirvəsinə yüksələn liseyin 120 zabitinin xatirəsi burada da əbədiləşdirilib.**

**Muzeyin bələdçisi, şəhid anası Vəfa Elvin** şəhidlərin yüksək vətənpərvərliyinin və qəhrəmanlığının kursantlar tərəfindən diqqətlə öyrənildiyinə toxunaraq – muzeydə dərslərin hər bir şəhidin igidlik dastanı əsasında keçirildiyini bildirdi. Kursantlar Zəfər qələbəsinin necə qazanıldığını və əsgərlərimizin döyüş meydanında əzmkarlığını görür və nümunə götürməyə çalışır. Çünki dərsdə bütün anaların təmsilçisi olaraq zabitlərimizin liseydə təhsil aldığı və zabit kimi döyüşlərdə iştirakı barədə qürur hissi ilə danışıram – deyir.

Muzeydə şəhidlərin xatirəsini yaşadan ayrı-ayrı əşyalar barədə ətraflı məlumat toplanıb və gələcəyin zabitlərini hazırlayan bir lisey olaraq kursantlara deyirik ki, burada 19 Vətən Müharibəsi Qəhrəmanı, 11 Milli Qəhrəman təhsil alıb, hər birinin döyüş rəşadəti yüksək qiymətləndirilib və Prezident İlham Əliyevin sərəncamları ilə orden və medallarla təltif olunublar. Bu barədə danışanda hiss edirəm ki, kursantların vətənpərvərliyi və rəşadəti yüksəlir.

Vəfa xanım deyir ki, ilk dərsdə kursantlara liseydə təhsil alan şəhid Elvin Şükürlünün anası kimi təqdim olunanda hər biri gözümün içinə diqqətlə baxır. Onların qarşısında qürurla dayanmaq mənim borcumdur, çünki Vətənimizin qorunması gələcək zabitlərin əlindədir. Bu mənada şəhid zabit anası kursant qarşısında alnıaçıq durmalıdır. Qoy onlar məni öz analarının yerində görsünlər. Hər dəfə şəhidlərin xatirəsi olan əşyalara baxanda sanki onları “yaşadıram”. Dərsdə kursantlar o qədər sakit və diqqətli olurlar ki, sanki burada 120 şəhidin ruhu dayanıb.



Vəfa Elvin muzeydə olan eksponatlar barədə danışaraq deyir: “Mən bu işə təyin olunanda elə bil həyata yenidən gəldim və dünyanın ən uca zirvəsində olan şəhidlərimizə “qovuşdum”. Buna görə də muzeyə daxil olanda, “sabahınız xeyir, cənab zabitlər” deyərək müraciət edirəm. Mənim üçün ən böyük qürur Şəhidlər muzeyində işləməklə onları yaşatmağımdır. Çünki şəhidlərin əşyalarına baxmaq, onları təmizləmək, səliqə ilə düzmək və təbliğ etmək ayrı bir duyğudur. Hər birinin ruhunu qəlbimdə hiss edirəm və hər pəncərədən baxanda onların ayaq səslərini belə hiss edirəm.

Qeyd olundu ki, mütəmadi surətdə şəhid ailələri ilə birlikdə uşaqları və əzizləri də gələrək buranı ziyarət edirlər.

Muzeydə toplanan şəhid kursantların venetkaları da qəhrəmanlıq tariximizdir: “Gələcək zabitlər ona baxan kimi deyirlər ki, mən də onlar kimi olmaq istərdim. Budur, vətənpərvərlik və qəhrəmanlıq nümunəsi. Şəhidlər həyat yolları ilə gənc zabitlərə canlı örnəkdir. Liseyimizin qurucusu olan ulu öndər Heydər Əliyev deyirdi ki, insan həyatda hər şeyi öyrənə bilər, ancaq cəsarətdən və sədaqətdən başqa. Çünki bu hər kəsin qanında olmalıdır. Muzeydə keçirilən dərslərdən hiss edirəm ki, belə cəsarət və xalqa sədaqət onların əməlində formalaşır. Bununla yanaşı, muzeydə hər bir şəhidin videogörüntüləri də toplanıb”.

**Vətən Müharibəsi Qəhrəmanı, liseyin rəisi, polkovnik Anar Mirzəyev** muzeyin tarixi əhəmiyyəti haqqında danışaraq dedi ki, biz burada şəhidlərimizin xatirəsini əbədi olaraq daim uca tutmaqla onların qəhrəmanlığını canlı örnək kimi kursantlara öyrədirik.

*Mikayıl NƏRİMANOĞLU,*
*XQ-nin bölgə müxbiri*

**HAVA**

# “Son bahar”ın günəşli bazar günü

## *Bakıda yağmursuz, dağlarda zəif yağıntı ehtimalı*

**Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, noyabrın 9-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə zəif duman olacaq. Cənub-qərb küləyi səhər şimal-qərb küləyi ilə əvəz olunacaq.**

Havanın temperaturu gecə 9-13, gündüz 17-20 dərəcə isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunu, nisbi rütubət isə 75-85 % təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağıntılı və arabir duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 8-13, gündüz 18-23, dağlarda gecə 1-5, gündüz 8-13 dərəcə isti olacaq.

*XQ*



DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 Email: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.
ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3481
SİFARİŞ 2212
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Ülvi QARAYEV
Çapa imzalanmışdır 00:00